AZƏRBAYCAN RESPUBLİKASI AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

alman əməkdaşlığı
DEUTSCHE ZUSAMMENARBEIT

Implemented by:
giz Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH

# QADINLAR ÜÇÜN SEÇKİ BƏLƏDÇİSİ



*Müəllif*
*Tofiq* **Həsənov**

*Redaktor*
*Cəmilə* **Zeynalzadə**

*2019*

Dizayn
AGHAYAROV BUREAU

# Ön söz

Tarix sübut edir ki, zamanın hər bir dövründə qadınlar öz qabiliyyət və bacarığını uğurla nümayiş etdirmiş, dövlət siyasətində, idarəçilikdə, özəl sahələrdə, eləcə də, ailə təməlinin qurulmasında daim öz fəaliyyətləri ilə diqqət mərkəzində olmuşlar. Cəmiyyətin inkişafında qadın hüquqları öz aktuallığı ilə daim fərqlənmiş, qadınların ictimai, siyasi, mədəni, sosial və s. sahələrdə əvəzolunmaz töhfələri olmuşdur. Günü-gündən müasirləşən ölkəmizdə iqtisadiyyatın irəliləməsi ilə yanaşı, insan hüquqlarının müdafiəsi sisteminə də xüsusi diqqət göstərilir. İnsan hüquqlarının qorunması, xüsusilə bu hüquqlar çərçivəsində qadın hərəkatının inkişafı və azadlıqlarının təmin olunması istiqamətində qanunvericilik bazası genişləndirilir, cəmiyyətin müxtəlif sferalarında qadınların rolunun artırılması yolunda işlər görülür, gender bərabərliyi mövzusunda müzakirələr aparılır.

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra cəmiyyətin inkişafında, müstəqil dövlətin qurulmasında qadınların rolu artmağa başlamışdır. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə qadın problemlərinə daha böyük diqqət yetirilməyə başlanmışdır. 1995-ci ildə qəbul olunmuş Konstitusiyada qadınların kişilərlə bərabər hüquqlarının olması ayrıca müddəa ilə təsbit olunmuşdur. Ölkəmiz beynəlxalq təşkilatlara üzv

olduqdan sonra gender məsələləri və qadınların vəziyyətinin yaxşılaşdırılması ilə məşğul olan strukturların hər biri ilə sıx əməkdaşlıq etməyə başlamışdır. Ölkəmiz xüsusən də “Qadınlara qarşı ayrı - seçkiliyin bütün formalarının ləğv olunması haqqında” 1979-cu il tarixli BMT Konvensiyasına (1995-ci il 30 iyun) qoşulmuşdur. Həmçinin 1995-ci ildə BMT-nin təşəbbüsü ilə Pekində Qadın məsələlərinə dair IV Ümumdünya Konfransı baş tutmuşdur. Konfranda bizim qadınlarımızın da iştirakı ölkəmizdə qadın hərəkatının geniş vüsət almasında mühüm rol oynamışdır. Qadınların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında rolunu artırmaq, BMT-nin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında”  Konvensiyasından irəli gələn öhdəliklərini mütəmadi həyata keçirmək üçün Heydər Əliyev 1998-ci il 14 yanvar tarixində “Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında” Sərəncam imzalamışdır. Gender siyasətinin həyata keçirilməsi məqsədilə 1998-ci il 14 yanvar tarixli Fərmanı ilə Qadın problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. 2000-ci ilin mart ayında Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi” üzrə imzalanmış Fərmanı da mühüm nəticələrin əldə olunmasına gətirib çıxarmışdır.

Dövlətimizin qadınlarla bağlı yürütdüyü siyasət bu sahədə Azərbaycanı öncül dövlətlər sırasına gətirib. Qadın məsələləri daim dövlət qayğısındadır və gender proqramı ardıcıl surətdə həyata keçirilməkdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yeni siyasi və iqtisadi sistem qurmuş, sürətlə inkişaf edərək bölgənin lider dövlətinə çevrilmiş Azərbaycan gender siyasətinin reallaşdırılması məsələsində yeniliklərə imza atmışdır. Hüquqi bazanın təkmilləşdirilməsi və bərabər hüquqların təmin edilməsi üçün “Gender bərabərliyinin təminatları haqqında” (2006-cı il), “Məişət zorakılığının qarşısının alınması haqqında” (2010-cu il) Azərbaycan Respublikası qanunları qəbul olunmuşdur. Qadın siyasəti müstəqil Azərbaycan dövlətinin əsas prioritet sahələrindəndir. Qadın hüquqları həm qanunlar, həm də bir sıra məcəllələrlə (Ailə, Mülki, Cinayət, İnzibati Xətalar və s.) təsbit olunmuşdur.

Bu gün qadın siyasəti dövlət siyasətinin tərkib hissəsi kimi ölkəmizdə

yüksək səviyyədə həyata keçirilir. Qadın hüquqlarının müdafiəsi üçün bir çox qanunlar qəbul olunur, dövlət layihələri həyata keçirilir, tədbirlər təşkil olunur, beynəlxalq təşkilatlarla birgə işlər görülür, əməkdaşlıq genişləndirilir. Azərbaycanın ictimai, siyasi, mədəni, sosial həyatında qadınların iştirakının genişlənməsi müşahidə olunur. Azərbaycan qadınlarının gözəl siması Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevadır. O, xeyirxahlıq, mərhəmət, fədakarlıq simvoludur. Mehriban xanım Azərbaycan qadınının formalaşmaqda davam edən potensialının artmasının təmin olunması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi istiqamətində lazımi işlərin görülməsinə öz mühüm töhfəsini verir.

Bu gün biz qadınlarımızı demək olar ki, bütün sahələrdə görürük. Hərbçi, polis, pilot və digər bu kimi peşələrdə bizim qadımlarımız çox aktiv təmsil olunurlar. Eləcə də Azərbaycan qadınlarının idarəçilikdə, təmsilçilikdəki artan fəaliyyətini müşahidə edirik. Statistik göstəricilərdən də biz bunun canlı şahidi oluruq. Parlament üzvləri arasında qadınların iştirak səviyyəsi 2000-ci ildə 10,7 % idisə, 2015-ci ildə keçirilən seçkilərdə bu rəqəm artaraq, 16,8%-ə qalxmışdır. Bələdiyyə üzvləri arasında qadınların iştirak səviyyəsi 2004-cü ildə 4% təşkil edirdisə, 2014-cü ildə 35 %-ə kimi yüksəlmişdir. Bütün rayon icra hakimiyyəti orqanlarında icra başçısı müavinlərindən biri qadındır. 2012-ci ildə qadın sahibkarların sayı 71 min civarında olduğu halda artıq 2018-ci ilin birinci rübə dair vəziyyətinə əsasən, regionlar üzrə qeydiyyatda olan qadın sahibkarların sayı 172.616 nəfər təşkil etmişdir.

Əvvəlki illərlə müqayisədə biz bu rəqəmlərin artımını müşahidə edirik. Əminik ki, üzümüzə gələn növbəti illərdə də biz müsbət statistikaların şahidi olacağıq. Bu istiqamətdə hədəf kütlənin maarifləndirilməsi işləri davam etdirilməlidir. Xüsusən də bələdiyyə sahəsində qadınların artan təmsilçiliyi “Qadınlar üçün seçki bələdçisi” adlı məlumat kitabçasının çap olunmasının vacibliyini ortaya qoydu. Kitabçada bələdiyyə seçkilərində iştirak etmək istəyən qadınlara yol göstərməklə nədən və necə başlamaq, seçkilərə hazırlanma prosesi, seçki kampaniyalarının həyata

keçirilməsi, təşviqat işləri, kütləvi informasiya vasitələri ilə əməkdaşlıq qaydaları və digər mühüm məlumatlar əks olunub. Bələdiyyə üzvü, eləcə də bələdiyyə sədri olmaq istəyən, lakin bu sahədə geniş məlumatı olmayan qadınlarımız üçün bu kitab həqiqətən də gözəl bələdçi rolunu oynayır. Qeyd etməliyik ki, bəzən qadınlarımızda uğur qazana bilməklə bağlı özlərinə inam hissi olmur, lakin bu kitabça sayəsində kifayət qədər məlumat əldə etdikdən sonra qadınlarda stimul və seçkilərdə iştirak etmək istəyi yaranacaqdır. Bələdçi maarifləndirmə prosesinə öz böyük töhfəsini verəcəkdir.

**Azərbaycan Respublikasının**
**Ailə, Qadın və Uşaq Problemləri üzrə**
**Dövlət Komitəsi**

# Giriş

2019-cu ilin sonunda ölkəmizdə yerli özünüidarəetmə orqanları olan bələdiyyələrə növbəti seçkilərin keçirilməsi planlaşdırılır. Artq beşinci dəfə keçiriləcək seçkilər həm də respublikada bələdiyyələrin fəaliyyətinin 20-ci ildönümünə təsadüf edir. Ötən dövr ərzində ölkəmizdə bələdiyyə institutunun inkişaf etdirilməsi məqsədilə mühüm qanunvericilik bazası formalaşdırılmış, bələdiyyələrin statusu, qulluğunun təşkili, maliyyəsinin əsasları və digər sahələri əhatə edən çoxsaylı qanunlar qəbul olunaraq onların səmərəli fəaliyyəti üçün dövlət tərəfindən hər cür şərait yaradılmışdır.

Azərbaycanda aparılan köklü islahatlar və yaşanan dinamik tərəqqi dövründə bələdiyyələr də özünün inkişaf yolunu keçmiş, vətəndaşların maraq və mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində yaxından iştirak etməyə çalışmışlar. Hal-hazırda respublikamızda bələdiyyə institutu əsasən formalaşmış, ölkənin şəhər, qəsəbə və kəndlərində vətəndaşlarımızın rifahı naminə sosial-iqtisadi inkişafın təmin olunmasında fəal iştirak edən yerli özünüidarəetmə sistemi bərqərar olunmuşdur.

Amma etiraf etməliyik ki, yerli özünüidarəetmə orqanlarının inkişaf etdirilməsi və ümumilikdə bələdiyyə idarəçiliyinin səmərəli təşkili sahəsəndə hələ kifayət qədər məqsədyönlü tədbirlərin həyata keçirilməsinə zərurət duyulur. Bələdiyyələrin səmərəli fəaliyyəti isə ilk növbədə bələdiyyənin rəhbər və qərarverici orqanını təmsil edən bələdiyyə üzvlərinin idarəetmə bacarıqlarından birbaşa asılıdır. Nəzərə alsaq ki, bələdiyyə üzvü təmsil olunduğu bələdiyyənin ərazisində yaşayan vətəndaşlar tərəfindən seçilirlər, deməli bələdiyyə seçkilərində əhalinin müxtəlif sosial təbəqələrinin seçkiyə ciddi maraq göstərməsi, layiqli və bacarıqlı namizədlərin irəli sürülməsi, seçki prosesinin demokratik, ədalətli və şəffaf keçirilməsi gələcəkdə bələdiyyənin səmərəli fəaliy-

yətinə əsaslı zəmin yaradır. Vacib məsələlərdən biri qadınların da seçki prosesində həm seçici kimi, həm də bələdiyyə üzvlüyünə namizəd kimi iştirakını təbliğ etmək, bu məsələlərdə onlara mane olan və çəkindirən ənənəvi stereotiplərin dəf etməsi istiqamətində maarifləndirmə işlərinin aparılmasıdır.

Bu gün müstəqil Azərbaycanda qadınların cəmiyyətdəki yeri və rolu həm xalqımızın öz mental ənənələrinə bəslədiyi hörmət, həm də dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək qiymətləndirilir. Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi dövlətimizin uğurlu, xoşbəxt sabahına, xalqımızın firavanlığına ən ciddi təminatlardan biridir. Respublikamızda bərqərar olan demokratik mühit ölkə qadınlarının zəngin potensialının gerçəkləşdirilməsi üçün əlverişli zəmin yaradır.

Son illər Azərbaycanda müşahidə olunan uğurlu sosial-iqtisadi inkişaf qadınların cəmiyyətin həyatında fəal iştirakına və onların vacib dövlət və yerli özünüidarəetmə qurumlarında geniş təmsil olunmasına kömək edir. Qadınların Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirakının təmin edilməsi dövlətin həyata keçirdiyi gender siyasətinin tərkib hissəsidir. Həyata keçirilən səmərəli gender siyasəti ölkə qadınlarının ictimai-siyasi fəallığını daha da artırmış, onlara həyatın bütün sahələrində tam bərabər imkanlar yaratmışdır. Statistik rəqəmlər yerli özünüidarəetmə sahəsində də qadınların fəallığının artmasını özündə ehtiva edir.

Azərbaycan cəmiyyətində qadınlar həmişə mərhəmət və xeyrixahlıq hissi, həssaslıq, nəzakət, nizam-intizam və qayğıkeşlik kimi yüksək mənəvi xüsusiyyətləri ilə seçilmişlər. Bu baxımdan insanların sosial həyatı ilə bağlı olan problemlərə, onların tezliklə həll olunmasına qadınlar daha həssaslıqla yanaşırlar. Sağlamlıq problemi olan insanlara, xüsusən də xəstə uşaqlara münasibətdə qadın qayğıkeşliyi və mərhəməti həmişə yüksəkdə durmuş və onlar digər vətəndaşlara nümunə olmuşlar. Ona görə də dövlətimizin apardığı sosialyönümlü siyasətinin inkişaf etdirilməsində qadınların potensialından maksimim yararlanmaq, dövlət və yerliözünüidarəetmə orqanların fəaliyyətində onların iştirakına lazımi şəraitin yaradılması vacib məsələlərdəndir.

Son seçkilərdən sonra ölkədə mövcud bələdiyyələrin dörddə birindən çoxunda qadınların rəhbərliyi, onların liderlik bacarıqlarının tədricən artırılması və digər bələdiyyələrdə üzvlərin fəallığı bizə deməyə əsas verir ki, yerli səviyyədə qadınların iştirak səviyyəsi real iş təcrübəsində də özünü göstərməkdədir. Cəmiyyətimizdə müşahidə olunan yerli özünüidarəetmədə uğurlu olan bu siyasət bələdiyyələrin növbəti seçkilərdə və fəaliyyət dövrlərində də davam etməsi arzuolunandır.

Qadınların yerli özünüidarəetmədə iştirak səviyyəsini artırmaq üçün inkişaf istiqamətlərini fərdi qaydada hər bir maraqlı olan şəxs və aidiyyatı dövlət orqanları, Bələdiyyələrin Milli Assosiasiyaları müzakirə etməli və zəruri tədbirlər görməlidir. Hesab edirik ki, Azərbaycanda uğurla aparılan gender siyasətinə uyğun olaraq bu istiqamətdə bütün müvafiq qurumların və Qeyri Hökumət Təşkilatlarının əməkdaşlığı daha səmərəli nəticələr verə bilər.

Yaxşı olardı ki, gələcəkdə fəal qadın iştirakçılığının təmin olunması üçün növbəti bələdiyyə seçkilərində seçicilərin təşəbbüs qrupu, siyasi partiyalar və siyasi partiya blokları tərəfindən namizədlər irəli sürülərkən bu məsələyə xüsusi diqqət yetirilsin. Belə ki, namizədlərin irəli srülməsi zamanı ilk növbədə həmin şəxsin arzusu, cəmiyyətdə nüfuzu, yerli özünüidarəetmə haqqında biliyi və məlumatlılığı, liderliyi nümayiş etdirmək üçün yerli səviyyədə olan bacarıqları, ixtisası və sairə şəxsi keyfiyyətləri nəzərə alınmalıdır.

Bu məlumat kitabı növbəti bələdiyyə seçkilərində qadın namizədlərin iştirakının daha da artırılmasına nail olmaq məqsədi ilə həyata keçirilməsi nəzərdə tutulan vacib tədbirlər prosesini özündə əks etdirir. İlk növbədə çalışmışıq ki, kitabda yığcam olaraq ölkəmizdə yerli özünüidarəetməni həyata keçirən bələdiyyələrin mahiyyəti, funksiya və səlahiyyətləri barədə ən vacib məlumatları hörmətli oxucularımıza – Sizlərə çatdıraq. Eyni zamanda 20 il ərzində bələdiyyələrin ilkin təşkilatlanmasından başlayaraq hal-hazırki vaxta qədər keçdiyi inkişaf yolu, bələdiyyə seçkilərinə hazırlıq, bələdiyyə üzvliyinə namizədlərin irəli sürülməsi, namizədlərin qeydə alınması və ümumilikdə seçilmiş bələdiyyə üzvünün vəsiqə alınmasına qədər olan seçki prosesinin əsas mərhələləri barədə məlumatlar kitabda öz əksini tapmışdır.

Ümüdvarıq ki, bu kitab bələdiyyə üzvü olmaq istəyən qadınlar üçün yaxşı bələdçi rolunu oynayacaq və onların stolüstü kitabına çevriləcəkdir. Bu kitabı oxumaqla hörmətli xanımlar bələdiyyə idarəçiliyində daha fəal içtirak edəcək və ölkəmizdə yerli özünüidarənin daha da inkişaf etdirilməsində öz layiqli töhfələrini verəcəklər. Bu yolda dəyərli oxucularımıza uğurlar arzulayırıq!

# Mündəricat


1 Yerli özünüidarəetmə və bələdiyyələr haqqında.

2 Bələdiyyə seçkilərində iştirak etmək üçün nədən başlamalı?

- ərazinin və mövcud vəziyyətin öyrənilməsi, seçki qanunvericiliyi və prosesi barədə məlumatlılıq.

3 Qadın namizədlərin bələdiyyə seçkilərinə hazırlanması.

- seçki kampaniyasının məqsədinin müəyyənləşdirilməsi (əhali və seçicilər barədə məlumatlar, ərazidə yerli əhəmiyyətli problemlərin və sosial sifarişlərin öyrənilməsi, siyasi partiyalar, irəli sürüləcək namizədlər);
- seçki kampaniyasının hədəflərinin müəyyən edilməsi, seçicilərin üstünlük verdiyi dəyərlər və KİV-lərlə iş.
- Seçki kampaniyasının mesajının hazırlanması.

4 Bələdiyyə seçkilərində qadın namizədlərin irəli sürülməsi, qeydiyyatı, hüquq və vəzifələri

- Namizədlərin öz təşəbbüsü ilə irəli sürülməsi;
- Namizədlərin seçicilərin təşəbbüs qrupları tərəfindən irəli sürülməsi;
- Namizədlərin siyasi partiyalar tərəfindən irəli sürülməsi;
- Namizədlərin siyasi partiyalar blokları tərəfindən irəli sürülməsi;
- Bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizədlərə, namizədlərin, siyasi partiyaların, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi və imzaların toplanması;
- Namizədlərin qeydə alınması üçün seçki sənədlərinin müvafiq dairə seçki komissiyasına təqdim edilməsi;
- Namizədlərin qeydiyyatı;

- Qeydə alınmış namizədlərin hüquqları, vəzifələri və məhdudiyyətləri.
- Qeydə alınmış namizədlərin səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri.

5 Seçki prosesində aşkarlıq və müşahidəçilərin fəaliyyəti

6 Seçkiqabağı təşviqat.

7 Seçki günü səsvermə prosesi, səslərin sayılması, nəticələrin və yekunların müəyyən olunaraq ictimailəşdirilməsi.

8 Seçilmiş bələdiyyə üzvünün hüquq və vəzifələri.

## Əlavələr

**Azərbaycan Respublikasının Konstitusiyasının**
3-cü, 13-cü, 25-ci, 54-cü, 55-ci, 56-cı, 142 - 146-cı, 150-ci maddələri
**Azərbaycan Respublikasının Seçki Məcəlləsinin**
1-ci, 2-ci, 53-cü, 54-cü, 210 – 246-cı maddələri
**Bələdiyyə seçkiləri – Təlimat, Qayda və İzahlar**
I, II, III, IV və V nəşrlər
**“Gender bərabərliyinin təminatları haqqında“ Azərbaycan Respublikasının Qanununun**
5-ci və 6-cı maddələri.
**CEDAW – Qadınlara Qarşı Ayrıseçkiliyin Bütün Formalarını Ləğv Edilməsi Haqqında Konvensiya**

**“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununun**
1-ci, 2-ci, 4-cü, 5-ci, 6-cı, 15-ci və 16-cı maddələri.
**“Bələdiyyə üzvünün statusu haqqında” Azərbaycan Respublikasının Qanununun**
4-cü və 14-cü maddələri.
**“Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında” Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununun**
17-ci, 19-cu və 22-ci maddələri
**Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikasının Qanunu**

# Yerli özünüidarəetmə və bələdiyyələr haqqında

Azərbaycanda ardıcıl aparılan demokratik və hüquqi islahatların əsası və başlıca istiqamətləri 12 noyabr 1995-ci ildə qəbul edilmiş ölkəmizin ilk Konstitusiyası ilə qoyulmuşdur.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə cəmiyyətimizdə aparılan geniş islahatlar nəticəsində bütün hüquq sistemində köklü dəyişikliklər həyata keçirilmiş, insan hüquqlarının daha etibarlı təmin edilməsinə xidmət edən qanunlar qəbul edilmişdir.

O cümlədən, idarəçilik sahəsində də islahatlar aparılmış və Əsas Qanunumuzda təsbit olunmuş yerli özünüidarəni həyata keçirən bələdiyyələr seçkilər əsasında yaradılmışdır. 19 ildən artıq bir dövrdür ki, cəmiyyətimizdə bələdiyyələr fəaliyyət göstərməklə ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayırlar. Vətəndaşlara qanunvericiliklə yerli özünüidarəetmənin işində yaxından iştirak etməklə geniş səlahiyyətlər verilmişdir.Son illər ölkə başçısı cənab İlham Əliyev tərəfindən bu institutun inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.

Yerli özünüidarəetmə cəmiyyətin idarə olunmasında vətəndaşların iştirakının formalarından biri, xalq hakimiyyətinin əsasıdır. Bilavasitə yerli əhalinin iradəsi zəminində formalaşan və real səlahiyyətlərə malik olan yerli özünüidarəetmə orqanlarının əhəmiyyəti ondan ibarətdir ki, bu orqanların köməyi ilə yerli əhali onları narahat edən məsələlərin həllinə yönəlmiş qərarların qəbulunda birbaşa və ya öz nümayəndələri vasitəsi ilə iştirak edə bilərlər.

Demokratik hakimiyyət sisteminə daxil olan müxtəlif dövlət və qeyri dövlət orqanları və institutları içərisində yerli özünüidarəetmənin xüsusi yeri vardır. Yerli özünüidarəçilik əhatə etdiyi ərazinin siyasi, mədəni, coğrafi, sosial-iqtisadi və digər xüsusiyyətlərini daha dolğun ifadə etməklə, yerli əhəmiyyətli məsələlərin həllində kömək edir, insanların yerli cəmiyyətə mənsub olması hissini gücləndirir.

Bir qayda olaraq, yerli özünüidarə haqqında rəhbər müddəalar Əsas Qanunumuz olan Konstitusiyada müəyyən edilir. Bu hər şeydən əvvəl, xalq hakimiyyətinin forması kimi yerli özünüidarəetmənin siyasi əhəmiyyətindən irəli gəlir. Yerli özünüidarəetmə əhalini özündə birləşdirən və müvafiq ərazidə vətəndaşların rifahını yaxşılaşdıran yerli səviyyəli idarəçilik sistemidir. Demokratiyanın məhsulu olan bu institutun xalq hakimiyyətinin inkişafında xüsusi rolu vardır.

Digər əhəmiyyətli bir məsələ isə odur ki, yerli özünüidarəetmədə vətəndaşlara gündəlik həyatına aid olan məsələlər üzrə qərarlar qəbul edilməsində iştirak etmək imkanı verir.

Azərbaycan Respublikasının Konstitusiyasının 4-cü bölməsi "Yerli özünüidarə" adlanır. Bu bölmə "Bələdiyyələr" adlanan IX fəsildən ibarət olub Konstitusiyanın 142-146-cı maddələrini əhatə edir. Əsas Qanunun 142-ci maddəsinə əsasən yerli özünüidarəni bələdiyyələr həyata keçirir və seçkilər əsasında yaradılır. Həmçinin Konstitusiyanın 13-cü maddəsində bələdiyyə mülkiyyəti və 150-ci maddəsində bələdiyyə aktları barədə müddəalar öz əksini tapmışdır.

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununda "yerli özünüidarə" və "bələdiyyə" anlayışı tam hüquqi cəhətdən əsaslandırılmışdır. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasında

yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemimdir ki, bu sistem əhaliyə yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və sosial maraqlardan irəli gələrək bəzi dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir.

Bələdiyyələr seçicilər tərəfindən birbaşa seçilir və nisbətən az əhalini əhatə etdiyinə görə onlar üçün daha yaxındır, yerli sakinlərin ehtiyaclarının ödənilməsi üçün imkanların səfərbər olunmasına və onlardan daha səmərəli istifadə edilməsinə, yerlərdə dövlət hakimiyyətinin möhkəmləndirilməsinə kömək edir.

“Yerli özünüidarəetmə” və “bələdiyyə” kimi məvhumları da bir-birindən fərqləndirmək lazımdır. Artıq qeyd edildiyi kimi, yerli özünüidarəetmə müəyyən ərazidə əhali tərəfindən seçilən orqanlar tərəfindən yerli əhəmiyyətli məsələlərin həlli ilə bağlı həyata keçirilən fəaliyyətdir. Deməli, yerli özünüidarəetmə fəaliyyət formasıdır. Bu fəaliyyət yerli əhəmiyyətli məsələlərin həlli ilə əlaqədar həyata keçirilir. Bu fəaliyyəti həyata keçirən subyekt qismində yerli ərazi vahidinin əhalisi və bu əhalinin təşkil etdiyi yerli özünüidarəetmə orqanları çıxış edir. “Bələdiyyə” isə yerli ərazi vahidinin əhalisi tərəfindən yerli əhəmiyyətli məsələləri həll etmək üçün təşkil olunan seçkili, kollegial təsisatdır, yəni yerli özünüidarəetmə fəaliyyətini həyata keçirən seçkili orqandır. Onu da qeyd edək ki, bələdiyyələrin yerli əhəmiyyətli məsələləri həlli ilə bağlı həyata keçirdiyi fəaliyyət yerli özünüidarəetmə fəaliyyətinin tərkib hissəsini təşkil edir.

Beləliklə, bələdiyyələr Qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bu qurumun öz mülkiyyəti və yerli büdcəsi olur. Qanunvericiliklə səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri bələdiyyə iclaslarında müstəqil sərbəst surətdə həll edərək qərarlar qəbul edir.

Bələdiyyələr səlahiyyətlərinə aid məsələləri əvvəlcədən müzakirə etmək, qərar layihələrini hazırlamaq, qərarların icrasına yardım göstərilməsi və nəzarət etmək üçün və digər səlahiyyətləri yerinə yetirmək məqsədilə daimi və başqa komissiyalar yaradırlar. Bu zaman yerli əhəmiyyətli məsələlər və bələdiyyənin əsas fəaliyyət istiqamətləri də nəzərə alınır.

Bələdiyə iclaslarında qəbul edilmiş qərarların icrasını təmin etmək və qanunvericilikdən irəli gələrək səlahiyyətlərini yerinə yetirmək üçün yerli özünüidarəetmə orqanlarında icra aparatı yaradılmışdır. İcra aparatı bələdiyyənin sədrindən və Qanunvericiliyə və Nizamnaməsinə uyğun olaraq formalaşdırılan struktur bölmələrindən və icra strukturlarından ibarət olur. Hər bir bələdiyyənin icra aparatı bələdiyyənin, o cümlədən daimi və başqa komissiyaların təşkilati, informasiya, kargüzarlıq, maddi-texniki təminat məsələlərini həyata keçirir, qərarların icrasını təmin edir.

1999-cu ilin dekabr ayının 12-də Azərbaycanda ilk dəfə olaraq 2667 bələdiyyə üzrə seçkilər keçirilmişdir və 2000-ci ilin yanvar ayında yeni qurumların ilk iclasları olmaqla fəaliyyətə başlamışlar. Qeyd edək ki, seçiləcək bələdiyyə üzvlərinin say tərkibi Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənir. Ərazidə olan əhalinin sayına uyğun olaraq ən azı 5 nəfər, ən çoxu isə 19 nəfər üzv seçilir. Onların səlahiyyət müddəti isə 5 il olur.

Əsas Qanunumuzda yerli özünüidarə institutu öz əksini tapdıqdan sonra bu sahəyə aid normativ hüquqi aktların qəbul olunması zərurəti meydana çıxdı. Ötən dövr ərzində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən yerli özünüidarəyə dair xeyli qanunlar qəbul olunmuşdur. Bələdiyyələrin fəaliyyətinin səmərəliliyini artırmaq üçün çoxsaylı Azərbaycan Respublikasının Prezidentinin Fərmanları və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarları verilmişdir. Milli Məclisin Regional Məsələlər Komitəsi və həmin Komitənin nəzdində yaradılmış İşçi Qrup qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi sahəsində real tədbirlər görür.

Ölkədə yerli özünüidarə siyasətini həyata keçirmək və əlaqələndirmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsində Bələdiyyələrlə iş sektoru, bələdiyyələrə metodoloji yardım göstərmək, onların maarifləndirilməsini təmin etmək və fəaliyyətlərinə inzibati nəzarəti həyata keçirmək üçün Ədliyyə Nazirliyində Bələdiyyələrlə İş Mərkəzi yaradılmışdır. 2006-cı ilin sonunda bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsinə, həmin fəaliyyətin beynəlxalq hüquq normalarına və mövcud qanunvericiliyə uyğun

qurulmasına və ortaya çıxan problemlərin birgə həll edilməsinə kömək göstərmək məqsədi ilə könüllülük əsasında Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyaları təsis edilmişdır.

2009-cu ildə bələdiyyələrin birləşməsi nəticəsində ümumi sayı 1037 vahid,  2014-cü ildə 110 vahid, 2018-ci ildə isə 1 vahid azaldılmışdır. Hazırda Azərbaycanda 1607 bələdiyyə fəaliyyət göstərir. Həmin bələdiyyələrin 170-i Naxçıvan Muxtar Respublikasındadır. Respublika üzrə bələdiyyələrin 73-ü şəhər, 148-i qəsəbə, 1386-ı isə kənd bələdiyyələridir. Ölkə üzrə yerli özünüidarə orqanlarına 2014-cü ildə bələdiyyə seçkilərində 14963 üzv seçilmişdir. Mərkəzi Seçki Komissiyası tərəfindən 7 bələdiyyənin seçkilərinin nəticələri etibarsız hesab edilmişdir. Seçkilər nəticəsində kişi üzvlərin sayı 9727 (65,01%), qadın üzvlərin sayı 5236 (34,99%), ali təhsillilərin sayı 13434 (89,80%), 30 yaşa qədər olanların sayı 5450 (36,42%) nəfər olmuşdur.

# Bələdiyyə seçkilərində iştirak etmək üçün nədən başlamalı?

## Ərazinin öyrənilməsi üçün lazım olan məlumatlar

*Bütün seçki kampaniyalarının eyni prinsiplər əsasında həyata keçirilməsinə baxmayaraq seçki ərazisinin öyrənilməsi gündəlikdə öndə durmalıdır və seçki kampaniyasına bundan başlamaq lazımdır. Bu məsələ seçkidə iştirak edən siyasi partiyaların yerli təşkilatlarının, yaxud yerli seçki qərargahların da əsas vəzifəsi hesab olunur.*

Bələdiyyə ərazisinin hansı xarakteristikayaya malik olması və seçkilərə təsir göstərən əsas faktorlar barədə məlumatların öyrənilməsi bütün seçki subyektləri üçün olduqca əhəmiyyətlidir. Uzun illərin seçki təcrübəsi və təhlilləri göstərir ki, aşagıda sadalananlar, ərazinin öyrənilməsi üçün lazım olan əsas parametrlər, seçkidə iştirak etmək istəyən hər bir  namizəd üçün  əsas strateji məlumat hesab olunur.

İlk növbədə ərazidə yaşayan əhalinin və seçicilərin sayı barədə sonuncu məlumatlar, o cümlədən ilk dəfə səs verənlər, ilk dəfə səs verən qadın seçicilər haqqında məlumatların əldə olunması tövsiyə olunur. Bələdiyyə ərazisinin xəritəsi və seçki məntəqələlərinin dislokasiyası, şəhərlərdə çoxmərtəbəli yaşayış massivlərinin öyrənilməsi, həmin yer haqqında daha müfəssəl təsəvvür yaranmasına imkan yaratmış olacaqdır.

Məqsədəmüvafiq hesab olunur ki, ərazinin iqtisadi vəziyyəti, əhalinin məşğulluğu və sosial-iqtisadi problemləri, əhalinin gündəlik ehtiyaclarından irəli gələn sosial sifarişlər haqqında dəqiqləşdirilmiş məlumatlar əldə edilsin. Yadda saxlamaq lazımdır ki, bu cür məlumatlar seçki kampaniyası boyu müxtəlif görüşlərin əsas müzakirəsi olacaqdır.

Bütün bunlarla bərabər bələdiyyə seçkilərində beynəlxalq və yerli təcrübə onu deməyə əsas verir ki, namizədlər bir qayda olaraq rəqiblərinin yol verdiyi səhvlərdən, onların istifadə etmədiyi imkanlardan məharətlə istifadə edərək qarşısındakı namizədi çətin duruma sala bilirlər. Ona görə də əvvəlki və hazırki bələdiyyə seçkilərində hansı namizədlərin seçkidə iştirak etdiyi, onların zəif və üstün tərəflərinin nədən ibarət olduğu öyrənilməlidir. Eyni qaydada ərazidə hal-hazırda fəaliyyətdə olan bələdiyyə rəhbərliyinə əhalinin münasibəti, razı və narazı olduğu səbəblər dəqiqləşdirilməlidir.

Qeyd etdiyimiz kimi namizədliyini irəli sürmüş qadınların seçkidə qalib gəlməsi üçün yerli şəraitə uyğun olan imkan və vasitələrin araşdırılması da secki kampaniyasının uğurla aparılmasına müsbət təsir göstərə bilər.

Beləliklə, seçkiyə qatılmış qadın namizədlər özündən əvvəl seçkidə iştirak edən lakin qələbə qazana bilməyən namizədin səhvləri və istifadə edə bilmədiyi seçki resurslarını bir araya gətirərək analizlər aparmalı, daha mübariz mövqe tutaraq seçki kompaniyasını əhəmiyyətli dərəcədə öz xeyrinə dəyişməyə çalışmalıdırlar.

Yadda saxlamaq lazımdır ki, potensialı daha çox olan  namizədlərin reytinqi və onların reklamı haqqında sosial sorğunun nəticələri dərindən təhlil edilməlidir. Seçkidə iştirak edən seçicilərin ərazi üzrə bölünməsi, şüarlar, müxtəlif reklamlar və KİV haqqında məlumatların əldə edilməsi

də ərazinin öyrənilməsində mühüm faktordur.

Bununla yanaşı, namizədin ərazidə fəaliyyət göstərən iri müəssisələr və onların  iqtisadi vəziyyəti haqqında, həmin müəssisələrdə çalışanların o cümlədən qadınların iş və əmək şəraiti, xüsusən qadınların əmək hüququndan istifadə vəziyyəti, qadın hüquqlarının qorunması, onlara ödənilən  əmək haqqı və onun vaxtı-vaxtında verilməsi barədə məlumatları əldə etməsi, daha hazırlıqlı və şəffaf mübarizənin əhəmiyyətli tərəfi hesab olunur.

Prioritet hesab etdiyimiz amillərdən biri isə daha həsas məsələdir. Ərazi üzrə qadın seçicilərin əksəriyyət təşkil etdiyini nəzərə alsaq hesab edirik ki, evdar, çöxuşaqlı, həmçinin ailə başçısını itirmiş qadınlar, tək-tənha yaşayan eləcədə valideyn himayəsənidən məhrum olmuş ailələr haqqında məlumatların toplanması, namizədin seçicilərindən əksəriyyət səsin toplanmasında mühüm rola malik olacaqdır.

Ərazidə olan real iqtisadi mənzərəni bilmək üçün ilk növbədə işgüzar fəaliyyət, orta və kiçik biznes, sahibkarlıq, ərazidə nüfuz sahibi olan biznesmenlər və firma rəhbərləri, onların problemləri haqqında, fermerlərin, orta və kiçik torpaq sahiblərinin ümumi vəziyyəti, qazancları və problemləri haqqında, kommunal xidmətlə təminat, kommunikasiyanın vəziyyəti haqqında məlumat; mövcüd problemlərin yaranma səbəbləri və həlli yollarını bilmək daha zəruridir. Nəzərə almaq lazımdır ki, təhsil müəssisələri, ictimai təşkilatlar, mətbuat orqanları, həmçinin müharibə, əmək veteranları, əlillər, şəhid ailələri, tanınmış adamlar-ağsaqqallar, ziyalılar və başqaları haqqında məlumatlar olduqca əhəmiyyətlidir. Qeyd olunan şəxslərin namizədə münasibəti barədə əldə olunan informasiyalar hazırlıq işinə mühüm töhvə verə bilər.

Yuxarıda göstərilən parametrlərə uyğun məlumatların toplanılması ərazinin obyektiv vəziyyətinin qiymətləndirilməsinə imkan verməklə yanaşı, seçki kampaniyasının taktika və strategiyasının düzgün hazırlanması işinə və zəruri olan maliyyə imkanlarının səfərbər olunmasına köməklik göstərəcəkdir. Bundan əlavə bu informasiyalar namizədə və onun komandasına seçki keçiriləcək ərazidə müəyyən nüfuza malik adamlarla yaxından tanış olmağa şərait yaradacaqdır.

# Seçki Qanunvericiliyi və prosesi barədə məlumatlılıq

*Hər bir demokratik cəmiyyətin atributlarından biri seçkilərdir. Bu gün əksər ölkələrdə seçkilərölkənin ictimai-siyasi həyatının ayrılmaz hissəsidir. Azərbaycanda seçki qanunvericiliyi və bu prosesi tənzimləyən normativ aktlar istənilən seçkilər zamanı hər bir namizəd üçün bərabər imkanlar və azad rəqabət mühiti yaradır. Məhz yaradılmış belə əlverişli mühit hər bir namizədə və siyasi partiyaya uğurlu seçki kampaniyası təşkil etmək imkanı yaradır.*

Azərbaycan Respublikasının Konstitusiyasının 2-ci maddəsinə əsasən Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Seçkilər vasitəsilə ölkənin Prezidenti, Milli Məclisin deputatları seçilir və yerli özünüidarəetmə orqanları formalaşır.

Əsas Qanunumuzun 56-cı maddəsi isə vətəndaşların seçki hüququndan bəhs edir. Azərbaycan dövləti ölkə vətəndaşlarının iradəsinin azad ifadə edilməsinə seçki hüququnun prinsip və normalarının müdafiə edilməsi yolu ilə təminat verir. Milli Məclisin deputatlarının, Azərbaycan Respublikasının Prezidentinin və bələdiyyə seçkilərinin, həmçinin ümumxalq

səsverməsi - referendumun təşkili ilə keçirilməsi qaydaları Azərbaycan Respublikası Seçki Məcəlləsi ilə müəyyən edilir. Məcəllə 2003-cü ilin may ayında qəbul edilmişdir. Həmin ildən bütün seçkilər və referendumlar Seçki Məcəlləsinə uyğun olaraq  keçirilir. Qeyd etməliyik ki, demokratik cəmiyyətdə ədalətli və şəffaf seçkilərin təşkil olunması üçün zəruri olan bütün hüquq normaları bu Məcəllədə öz əksini tapmışdır.

Bələdiyyə seçkilərində iştirak etmək iddiasında olan istənilən şəxs, ilk növbədə seçki qanunvericiliyi barədə müəyyən qədər məlumatlı olmalıdır. Məqsədə uyğundur ki, bələdiyyə üzvü olmaq istəyən qadın namizədlərimiz öz təşəbbüsləri ilə və ya seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürüldüyü halda, seçki prosesi zamanı müxtəlif çətinliklərlə rastlaşmamaq üçün müvafiq sahə üzrə təcrübəli hüquqşünaslara və mütəxəssislərə müraciət etsinlər. Bu cür yanaşmanın ilk gündən etibarən seçki başa çatanadək davam etdirilməsi ümumi işə yalnız fayda verə bilər. Əgər bələdiyyə üzvlüyünə namizədliyin irəli sürülməsi siyasi partiyalar və ya siyasi partiyalar bloku tərəfindən reallaşıbsa, məsuliyyət ilk növbədə həmin siyasi təşkilatların rəhbərliyinin və müvafiq seçki qərargahlarının rəsmilərinin üzərinə düşür. Əvvəlki seçki proseslərində siyasi partiyalar əldə olunan nəticələrdən asılı olmayaraq müəyyən təcrübə qazanmışlar. Sözsüz ki, növbəti seçkilər zamanı yeni namizədləri düzgün istiqamətləndirmək həmin siyasi partiyaların əsas vəzifəsi hesab olunur.

Qeyd etdiyimiz kimi, seçki prosesini uğurla həyata keçirmək üçün əvvəlcə Seçki Məcəlləsinin əsas müddəalarının öyrənilməsi vacibdir. Namizədlər o cümlədən qadın namizədlərimiz çalışmalıdırlar ki, onlar tərəfindən qanun çərçivəsində qeyd olunan bütün müddəalar və seçki hərəkətləri zamanında və düzgün icra edilsin. Bələdiyyə seçkilərinin digərlərindən əsas fərqlərindən biri də odur ki, bu zaman ayrı-ayrı bələdiyyələrə seçilmək arzusunda olan namizədlərin sayı çox olur. Təbii ki, onların seçkilərə hazırlığı və qanunvericiliyi bilmə imkanları da müxtəlif olur. Ona görə də seçki subyektlərinə tövsiyə olunur ki, ölkədə seçki komissiyalarının işinə rəhbərlik edən qurum olan Azəraycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) qəbul etdiyi normativ xarakterli sənədlər və geniş əhatəli maarifləndirmə tədbirləri barədə məlumatlı olsunlar.

Hər kəsə yaxşı məlumdur ki, yüksək texnologiyalar və innovasiyalar sahəsində ölkə vətəndaşlarının mövcud bilik və vərdişləri durmadan artır. Qanunvericiliyin verdiyi imkanlar çərçivəsində Mərkəzi Seçki Komissiyası internet vasitəsilə də seçicilərin və digər seçki subyektlərinin maarifləndirilməsi işinə xüsusi diqqət yetirir. Seçki subyektlərinin Mərkəzi Seçki Komissiyasının qəbul etdiyi bütün qərarlarla, sənədlərlə və keçirdiyi tədbirlərlə yaxından tanış olmaq, həmçinin seçkilərdə iştirak edən subyektlərlə bağlı məlumatlar əldə etmək imkanları vardır.

Komissiyasının internet səhifəsində (www.msk.gov.az, www.infocenter.gov.az) seçkilərlə bağlı bütün məlumatlar mütəmadi olaraq yerləşdirilir. Seçkilərdə namizədlərin irəli sürülməsi və qeydiyyatı barədə MSK-nın qərarları və məlumatlar, eləcə də daxil olmuş şikayət və müraciətlərlə bağlı ekspert qrupu üzvləri tərəfindən verilmiş rəylər və Komissiyanın iclasından dərhal sonra isə MSK-nın müvafiq qərarları Azərbaycan və ingilis dillərində internet səhifəsində yerləşdirilir. Bundan başqa, seçki dairələrinin və seçki məntəqələrinin dislokasiyası, seçicilərin axtarış sistemi, seçicilərin xüsusi naviqasiya xarakterli proqram təminatı vasitəsilə öz məntəqəsinə gedişi, əvvəlki seçkilərlə bağlı məlumatlar, seçki komissiyalarının tərkibi, ünvanı, əlaqə məlumatları, seçki məntəqələrinin ünvanı və xəritəsi, seçicilərin siyahısı, seçkiqabağı təşviqatla əlaqədar məlumatlar, MSK-nın mətbuat bülletenləri və ictimaiyyət üçün maraq kəsb edən digər informasiyalar müvafiq olaraq internet səhifəsinə yerləşdirilir.

Normativ xarakterli aktların hazırlanması və yayılması sahəsində həyata keçirilən tədbirlər də seçki subyektlərinin hüquqi biliklərinin artırılmasında mühüm rol oynayır. Mərkəzi Seçki Komissiyası ölkədə keçirilən hər bir seçki (referendum) üçün yuxarıda qeyd olunan məqsədə uyğun olaraq “Təlimat, Qayda və İzahlar” topluları hazırlayır. Bələdiyyə seçkiləri üçün də beş toplu çap olunmuşdur. 8 təlimat, 3 qayda, 2 izah və onlarla sənəd nümunələrini özündə cəmləşdirmiş həmin toplular nəinki seçki komissiyalarının üzvləri, eləcə də digər seçki subyektləri üçün də əhəmiyyətlidir.  Bundan başqa, hər seçki üçün “Əsas hərəkətlərin və tədbirlərin Təqvim Planı”, “Səsvermə günü üçün Yaddaş kitabçası”, “Müşahidə-

çilər üçün Yaddaş kitabçası", "Namizədlər üçün Yaddaş kitabçası", "Polis üçün Yaddaş kitabçası" və s. vəsaitlər çap olunaraq seçki subyektlərinin istifadəsinə verilir.

Bundan başqa, seçicilərin və digər seçki subyektlərinin maarifləndirilməsi məqsədilə Mərkəzi Seçki Komissiyasının üzvləri və əməkdaşları seçkilər dövrü İctimai Televiziyada hər həftə seçki kompaniyasının müxtəlif problemlərinə həsr olunmuş mövzularla çıxış edirlər. Eyni zamanda MSK üzvlərinin və Katiblik əməkdaşlarının mətbuat səhifələrindəki məqalələri və müsahibələri də vətəndaşların seçki fəallığına stimul verən tədbirlərdəndir.

Ümumiyyətlə, seçki komissiyaları kütləvi informasiya vasitələri ilə yaxından əməkdaşlıq edir, onlara seçkiləri işıqlandırmaları üçün hər cür şərait yaradır, öz peşə borclarını layiqincə yerinə yetirmələrinə lazımi köməkliklər göstərirlər. Son illər bu əməkdaşlıq daha da dərinləşmiş və bir çox birgə tədbirlər həyata keçirilmişdir. Xüsusilə vurğulamaq yerinə düşərdi ki, KİV nümayəndələri mütəmadi olaraq MSK-nın tədbirlərinə dəvət olunur və lazımi məlumatları əldə edirlər. Ölkə ictimaiyyətinin seçkilərin hazırlanması və keçirilməsilə bağlı məlumatlandırılması məqsədilə MSK tərəfindən müxtəlif xarakterli mətbuat konfransları, brifinqlər keçirilir, respublikada fəaliyyət göstərən elektron informasiya vasitələrinə məlumatlar çatdırılır, mətbuat bülletenləri və məqalələr dərc olunur. Həmçinin Mərkəzi Seçki Komissiyası tərəfindən təşviqat xarakterli videoçarxlar, seçkiyə çağırış plakatları, bukletlər hazırlanır və  ictimailəşdirilir.

Seçki komissiyaları tərəfindən seçki subyektlərinin maarifləndirilməsi məqsədilə həyata keçirilən bütün tədbirlər nəticə etibarı ilə seçki praktikasının və seçki subyektlərinin hazırlıq səviyyəsinin təkmilləşdirilməsinə, seçkilərin beynəlxalq standartlara uyğun keçirilməsinə dəyərli töhfədir.

Bir sözlə yuxarıda qeyd olunanları nəzərə almaqla seçki qanunvericiliyi barədə məlumatlılığın daim artırılması, seçki subyektləri üçün nəzərdə tutulan maarifçilik tədbirlərindəki verilmiş tövsiyələrin səmərəli istifadə edilməsi və bələdiyyə ərazisinin yaxşı öyrənilməsi namizəd üçün seçki kompaniyasının uğurlu başlanğıcı ola bilər.

# Seçki kampaniyasının məqsədinin müəyyənləşdirilməsi



*Bələdiyyə seçkilərində qələbənin təmin edilməsi üçün növbəti vacib məsələ seçki kampaniyasının məqsədinin müəyyənləşdirilməsidir.*

Ərazi haqqında müəyyən məlumatlar əldə olunduqdan və namizədliyin irəli sürülməsindən sonra seçki qərargahları bütün imkanları səfərbər etməlidir. Hamıya məlumdur ki, hər hansı bir seçki kampaniyasının məqsədi qələbəni təmin etməkdir. Sözsüz ki, bu qələbəyə nail olmaqdan ötrü bir sıra tədbirlər görülməli, müəyyən addımlar atılmalıdır.

İlk növbədə hər bir seçki qərargahı və ya namizəd real imkanları nəzərə almalı, özünəgüvənmə kimi hallara yol verməməlidir. Müəyyən qrup insanlarla tanışlıq, işlədiyi sahə üzrə populyarlıq, bu səbəbdən də erkən qələbə təəssüratı və digər belə hallar namizədləri arxayınlaşdırmamalıdır.

**Tövsiyə olunur ki, Seçki kampaniyasının məqsədinin müəyyənləşdirilməsi zamanı əsas istiqamətlər aşağıdakılardan ibarət olsun:**

1. əhali, seçki məntəqələri üzrə seçicilər və ərazidə olan yerli əhəmiyyətli problemlər barədə məlumatların bir daha dəqiqləşdirilməsi;

2. bələdiyyə ərazisində seçkilərdə iştirak edəcək digər namizədlər, siyasi partiyalar haqqında məlumatların öyrənilməsi;
3. seçki kampaniyasının hədəflərinin müəyyənləşdirilməsi;
4. seçicilərin üstünlük verdiyi dəyərlər və KİV-lərlə iş.

**Əhali və seçki məntəqələri üzrə seçicilərin seçici siyahılarında qeyd olunması barədə məlumatların bir daha dəqiqləşdirilməsi**

Namizədliyi irəli sürülən şəxs ilk növbədə bələdiyyə ərazisindəki əhali barədə statistik göstəriciləri əldə etməlidir. Əhalinin və seçicilərin sayı, məşğulluğu, təhsil səviyyəsi, yerli özünüidarəetməyə marağı və inamı barədə məlumatların öyrənilməsi vacib məsələlərdən biridir. Həmçinin, ərazidə yaşayan ailələr, ailə başçıları, onların siyasi baxışları barədə məlumatların öyrənilməsi də çox zəruridir. Belə ki, ailədən bir nəfəri namizəd öz xeyrinə inandıra bilirsə, gələcəkdə həmin şəxs digər ailə üzvlərini də həmin namizədin lehinə təbliğ edəcək. Yaşayış sahələrində olan vətəndaşların həmsöhbət olduğu məhəllə komitələri və asudə vaxt mərkəzlərinin müəyyənləşdirilməsi seçkiqabağı təşviqata qədər əhali ilə səmərəli işin aparılmasında çox faydalı olacaqdır.

> *Əhalinin ümumi sayı dedikdə seçki ərazisində yaşayan vətəndaşların sayı nəzərdə tutulur. Təbii ki, bələdiyyə ərazisində əhalinin sayı səsvermə hüququ olan seçicilərlə müqayisədə çoxluq təşkil edir*

Seçicilərin sayı dedikdə isə ərazidə olan seçki məntəqələri üzrə seçici siyahılarında qeydə alınmış şəxslərin sayı nəzərdə tutulur. Vətəndaşların seçmək və seçilmək hüququnun təmin olunması, seçkilərin azad və ədalətli keçirilməsi üçün seçici siyahıları seçkilərdə əsas əhəmiyyət kəsb edən sənədlərdəndir.

# Seçki siyahıları

*Seçici siyahıları müvafiq seçki dairəsinin seçki məntəqəsi ərazisində yaşayan və aktiv seçki hüququna malik olan Azərbaycan Respublikası vətəndaşlarının siyahılarıdır.*

Seçki komissiyaları tərəfindən seçici siyahılarının tərtib edilməsi, dəqiqləşdirilməsi və ictimailəşdirilməsi Azərbaycan Respublikası Seçki Məcəlləsinin 45-48-ci maddələri və Mərkəzi Seçki Komissiyasının qəbul etdiyi "Seşki komissiyalarının seçici siyahıları ilə iş qaydaları haqqında" Təlimatla tənzimlənir. Seçici siyahıları rəsmi seçki sənədlərindən biri sayılır, daimi və müvəqqəti seçici siyahıları formasında tərtib olunur. Daimi seçici siyahısına müvafiq İcra Hakimiyyəti orqanlarının və bələdiyyə rəhbərliklərinin, hərbi hissələrin komandirlərinin aktiv seçki hüququna malik seçicilər haqqında təqdim etdikləri məlumatlar daxil edilir.

**Qeyd: Seçicilərin daimi siyahısı hər bir seçki məntəqəsi üzrə məntəqə seçki komissiyası tərəfindən hər il may ayının 30-dək təsdiq edilir və səsvermə gününə azı 25 gün qalmış dəqiqləşdirilir.**

Hər bir vətəndaşın sorğusuna əsasən müvafiq seçki komissiyası onun seçicilər siyahısına daxil olub-olmaması haqqında məlumat verməlidir. Seçici siyahıları mətbuatda dərc edilmir. Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi qaydada seçici siyahıları Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilir.

Seçici siyahıları 2 nüsxədə tərtib edilir. Seçici siyahısına daxil edilmiş se¬çicilər haqqında məlumatlar əlifba qaydasında və ya yaşayış mən¬¬təqələri, küçələr, evlər, mənzillər üzrə yerləşdirilir. Siyahılarda seçicinin soyadı, adı, atasının adı, doğulduğu il, ?(18 yaşı tamam olmuşlar üçün ay və gün), daimi yaşadığı yerin ünvanı və seç¬ki məntəqəsinin nömrəsi göstərilir.

**Qeyd: Azərbaycan Res¬pub¬likası Seçki Məcəlləsinin 35.3.1-ci maddəsinə əsasən hər bir seçki məntəqəsinin ərazisindən çoxu 1500 və ən azı 50 seçici qeydə alınmalıdır.**
**Seçki məntəqəsi üzrə tərtib olunmuş ilkin seçici siyahılarının birinci nüs¬xəsi müvafiq akt tərtib edilməklə məntəqə seçki komissiyasında saxlanılır, ikinci nüsxəsi isə hər il fevralın 5-dən gec olmayaraq, lakin səsvermə gü¬nünə azı 25 gün qalmış dairə seçki komissiyasına verilir. Seçki mən¬tə¬qə¬lə¬ri üzrə seçici siyahıları məntəqə seçki komissiyasının sədri və katibləri tə¬rə¬findən imzalanır və komissiyanın möhrü ilə təsdiq edilir.**
**Seçki dairəsi üzrə tərtib olunmuş ilkin seçici siyahıları hər il martın 5-dən gec olmayaraq iki nüsxədə tərtib edilir, dairə seçki komissiyasının sədri və katibləri tərəfindən imzalanır, komissiyanın möhrü ilə təsdiqlənir və aprelin 5-dək Mərkəzi Seçki Komissiyasına təqdim edilir. Mərkəzi Seçki Komis¬siyası seçici siyahılarında uyğunsuzluqlar aşkar etdikdə, onlara düzəliş¬lər olunur və sonradan mayın 25-dək məntəqə və dairə seçki komissiyaları tə¬rəfindən təsdiq edilir.**

Se¬çicilərin seçici siyahıları ilə tanış edilməsi qaydaları da Mərkəzi Seçki Ko-missiyasının müvafiq təlimatında öz əksini tapmışdır. Belə ki, məntəqə seç¬ki komissiyası seçicilərin tanış olması və əlavə dəqiqləş-dirmələr apa¬rıl¬ma¬sı üçün seçici siyahılarını, seçicilərə bu barədə məlumat verməklə, səs¬ver¬mə gününə  azı  35 gün qalmış təqdim edir və bunun üçün müvafiq şə¬ra¬it yaradır. Seçici siyahıları seçicilərin yaxşı görə biləcəyi və gediş-gəliş üçün asan olan yerlərdə məlumat lövhələrin-də yerləşdirilməlidir.

Namizəd və müvafiq seçki qərargahının nümayəndələri tərəfdarları olan seçicilərlə iş aparankən əmin olmalıdırlar ki, həmin şəxslər disloka-siyaya uyğun olaraq seçki məntəqələri üzrə daimi seçici siyahısına daxil edilmişdir.

Əgər həmin seçicilərin adı seçicilər siyahısında tapılmadığı və mə-lumatlarında hər hansı yanlışlıqlar aşkar edildiyi halda Mərkəzi Seçki Komissiyasının 115 saylı qaynar xəttinə zəng vurmaqla və ya internet səhifəsindəki müvafiq “on-line” ərizə formasını dolduraraq məlumat verilə, həmçinin yaşayış ərazisində fəaliyyət göstərən məntəqə seçki komissiyasına müraciət oluna bilər.

# Ərazidə yerli əhəmiyyətli problemlərin və sosial sifarişlərin öyrənilməsi

*Kifayət qədər diqqət etmək lazımdır ki, ərazidə hansı yerli əhəmiyyətli problemlər mövcuddur. Bu, sizin gələcək seçki kampaniyanızın müvəffəqiyyətlə keçirilməsinə, başqa sözlə əhalinin sosial ehtiyaclarına dərindən bələd olmağınız, onların həlli yolunda strateji xəttin müəyyən edilməsində mühüm rola malik olacaqdır. Ona görə də bələdiyyə seçkisində iştirak etmək istəyən hər bir qadın namizəd, həmin ərazidə sosial sifarişlərin öyrənilməsinə xüsusi diqqət yetirməklə vacib problemləri öyrənib ümumiləşdirməlidir.*

Nəzərə almaq lazımdır ki, bələdiyyə ərazisində yerli əhəmiyyətli problemlər müxtəlif ola bilər. İlk növbədə "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü, 5-ci və 6-cı maddələrində nəzərdə tutulan yerli ekoloji, yerli iqtisadi və yerli sosial müdafiə və sosial inkişaf proqramlarına uyğun olaraq bələdiyyələr səlahiyyətlərinə uyğun olaraq məsələləri həll etməlidirlər. Ona görə də yerli sosial, iqtisadi və ekoloji yönümlü müxtəlif istiqamətlər ola bilər. Məsələn, abadlıq və quruculuq, yaşıllaşdırma işləri, məişət tullantılarının yığılması, qəbirstanlıqların qorunması, "xeyir və şər evi"nin tikintisi, saxlanması və başqa məsələlər ola bilər.

Lakin, Siz unutmamalısınız ki, seçki kampaniyası dövründə vaxt çatışmamazlığı ilə  qarşılaşa bilərsiniz. Ona görə də siz bu zaman, seçkiqabağı təşviqata qədər daha çevik bir metodikadan istifadə edə bilərsiniz.

Bu ondan ibarətdir ki, bələdiyyə üzvü olmaq istəyən namizəd əhalinin sıx toplaşdığı yerlərdə, yaxud ərazidə yaşayan ağsaqqallar, ziyalılar, evdar qadınlar, şəhid və əlil ailələrinin, o cümlədən gənclərin nümayəndələri ilə fərdi görüşlərinizdə ərazinin sosial qaygıları ilə yerindəcə ünvanlı şəkildə daha yaxından tanış olub, lazımı qeydlərinizi apara bilərsiniz.

Praktiki işdə yazılı və şifahi müraciətlərin öyrənilməsi təcrübəsi göstərir ki, belə görüşlərdə sakinlər arasında özünün şəxsi məsələlərini irəli sürənlər də olacaqdır. Bu anda namizəd həmin şəxsin müraciətini diqqətlə dinləməli, həlli yolları barədə onunla fikir mübadiləsi aparmalıdır. Yerli əhəmiyyətli məsələlərdə, əhəmiyyətlilik dərəcəsinə uyğun olaraq ümumiləşdirilmə aparılması tövsiyə olunur.

Siz belə fərdi görüşlər keçirərkən əhali tərəfindən sosial sifarişlərin yerinə yetirlməsində prioritetləri onların öz iştirakı ilə müəyyənləşdirməlisiniz və yaxşı olar ki, əhalinin müvafiq orqanlara əvvəlki müraciətlərinin də öyrənilməsinə üstünlük verəsiniz.

Beləliklə ərazidə sosial sifarişlərin öyrənilməsinə bu cür yanaşma qarşıdakı günlərdə seçicilərlə keçiriləcək görüşlərdə namizəd haqqında müsbət təəssurat yaradacaq, nəticə etibarı ilə seçici səslərinin toplanmasına müsbət təsir etmə imkanı əldə ediləcəkdir.

İşin bu cür təşkili ərazinin əsas yaşayış məntəqələrini əsasən əhatə etməlidir. Sosial problemləri təsnifatlaşdırdıqdan və prioritetləri müəyyənləşdirdikdən sonra seçicilərlə görüşə daha dəqiq mesajla və hazırılıqlı gedə bilərsiniz.

# Siyasi partiyalar



*İstənilən seçkilərdə və referendumlarda siyasi partiyalar iddialı subyekt kimi fəaliyyət göstərir. Belə ki, hər bir siyasi kampaniyada siyasi partiyaların əsas məqsədi qalib gəlməkdir.*

Siyasi partiyalar haqqında Azərbaycan Respublikasının Qanununa görə siyasi partiya dedikdə ümumi siyasi ideyaları və məqsədləri olan, ölkənin siyasi həyatında iştirak edən ölkə vətəndaşlarının birlikləri nəzərdə tutulur. Həmçinin, partiya üzvlərinin öz sıralarından seçkili orqanlara irəli sürmək həmin siyasi qurumun əsas fəaliyyət formalarından biridir. Siyasi partiya cəmiyyət və dövlət arasında əlaqələndirici rolunda çıxış edir və məqsədinə çatmaq üçün tərəfdarlarının sayını artırır.

Hər bir seçki prosesində qələbənin əldə olunması üçün siyasi partiyanın elektoratının rolu çox əhəmiyyətlidir. Ona görə də siyasi partiya müasir şəraitdəki siyasi və iqtisadi vəziyyəti elə qiymətləndirməlidir ki, onun baxışları elektorat, tərəfdarlar hesab olunan sosial qrupların baxışları ilə eynilik təşkil etsin.

İrəli sürüləcək namizədlərin hazırlanması siyasi partiyaların fəaliyyətinin əsas istiqamətlərindən hesab olunur. Layiqli və qələbəyə real namizədlərin müəyyənləşdirilməsi və irəli sürürlməsi hər bir partiya rəhbərliyini düşündürən vacib məsələlərdəndir. Bu məqsədlə həmin siyasi

qurumun funksionerləri müzakirələr aparır, təklifləri nəzərdən keçirirlər. Bələdiyyə seçkilərində namizədin müəyyənləşdirilməsi üçün əsas meyar – onun idarəetmə və liderlik keyfiyyətlərinə uyğun gəlməsidir.

Ona görə də ilk növbədə siyasi partiyalar və irəli sürürləcək namizəd-lər seçki ərazisini və orada olan yerli əhəmiyyətli problemləri, bələdiy-yəçiliyin vəziyyətini yaxşı bilməli, mövcud elektoratı yaxşı analiz etmə-lidirlər. Əvvəlki seçkilərdə namizəd olmuş həmfikirlərinin uğurlarından da faydalanmaq olar. Potensial namizədlərin seçkidə qələbə qazanması barədə əminlik yarandıqdan sonra hər bir partiya nizamnamələrinə uyğun olaraq namizədləri irəli sürürlər. Belə ki, yerli təşkilatlardan da təkliflər almaqla seçki keçiriləcək bələdiyyələrə seçiləcək üzvlərin sayına uyğun olaraq irəli sürüləcək namizədlərin siyahısı müəyyənləşdirilir. Siya-si partiyalar tərəfindən irəli sürülən namizədlərin siyahısı nizamnaməyə uyğun olaraq səlahiyyətli iclasda, qurultayda, yığıncaqda və ya başqa tədbirlərdə iştirakçıların qərarı ilə təsdiq olunur.

Azərbaycan Respublikası Seçki Məcəlləsi siyasi partiyalara seçkilərdə bir neçə partiyanın blok şəklində iştirak etməsi hüququnu da tanıyır.

Siyasi partiyalar blokunun azı iki və ya daha çox partiyanın yaratmağı vacibdir. Seçki prosesi zamanı blok siyasi partiyalarla eyni hüquqa malik-dir.

Siyasi partiyaların və partiyalar blokunun seçki qərargahları çalışmalı-dırlar ki, rəqib hesab olunan digər siyasi partiyalar, onların bloku, seçkidə iştirak edən bütün namizədlər haqqında ətraflı məlumatlar əldə etsinlər. Daha sonra isə rəqiblərin gücü və zəif cəhətləri təhlil olunmalı, seçki kampaniyasının növbəti mərhələləri üçün taktiki gediş müəyyənləşdiril-məlidir.

# İrəli sürüləcək namizədlər

*İstənilən seçki kampaniyasında əsas diqqət seçkidə iştirak edən namizəd və namizədlərə yönəlib. Bir çox mütəxəssislər namizədləri seçki prosesinin mərkəzi fiquru da hesab edirlər. Bələdiyyə seçkilərində namizədlərin irəli sürülməsi Azərbaycan Respublikası Seçki Məcəlləsi ilə tənzimlənir. Seçki kampaniyasının uğurla aparılmasına irəli sürüləcək namizədlərin nüfuzlu, işgüzar, seçicilər tərəfindən daha çox tanınması kimi xüsusiyyətləri birbaşa təsir edir.*

Qeyd etdiyimiz kimi, 2019-cu ilin sonunda ölkədə növbəti bələdiyyə seçkiləri keçiriləcəkdir. Bələdiyyə seçkilərinin Prezident və Parlament seçkilərindən namizədlərin irəli sürülməsi baxımından fərqli cəhətləri vardır. Belə ki, adı çəkilən seçkilərdə seçki ərazisi üzrə az sayda namizədlər irəli sürülür və həmin namizədlərdən bir nəfər qalib olur. Bələdiyyə seçkilərində isə namizədlərin və qaliblərin sayına görə çoxluq müşahidə olunur. Ona görə də irəli sürüləcək namizədlərin seçki qərargahları çalışmalıdırlar ki, onlara potensial rəqib olan namizədlər, o cümlədən siyasi partiyalar tərəfindən irəli sürülən namizədlər barədə ətraflı məlumat əldə etsinlər.

2014-cü ilin bələdiyyə seçkilərində 37077 nəfər qeydə alınmış namizədin mübarizəsində 15000-nə yaxın bələdiyyə üzvü seçilmişdir. Növbəti bələdiyyə seçkilərində də daha çox namizədlərin irəli sürüləcəyi

heç kimdə şübhə yaratmır. Qarşıdakı Siyasi kampaniyada irəli sürüləcək namizədlərdən sədaqətlilik, prinsipiallıq,  idarəetmə kimi və o cümlədən, digər şəxsi keyfiyyətlər tələb olunur.

# İşə sədaqətlilik və prinsipiallıq

*Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq namizədliyin hansı qaydada irəli srürülməsindən asılı olmayaraq hər bir namizədin konkret siyasi təşkilata, ideyaya, fəaliyyət növünə, əmək fəaliyyətinə, cəmiyyətə, ailəyə, dostlarına bağlılığı vardır.*

Seçkidə qalib gəlmək üçün həmin iddialı şəxs əhatəsində olan bütün quvvələrdən və imkanlardan qanunvericiliklə müəyyən edilmiş qaydada istifadə etməlidir. Seçki prosesində namizədlərin ünvanına tənqidlər, əleyhinə təşviqat, xoşagəlməz ifadələr kimi neqativ hallardan istifadə olunacağı gözlənilə bilər. Belə olduqda namizəd ruhdan düşməməli, adekvat cavablar hazırlamaqla ona qarşı yönəlmiş məlumatları əks tərəfə istiqamətləndirməlidir. O cümlədən, göstərilmiş etimadı doğrultmaqla, tapşırılmış işdə sədaqətlilik nümunəsi göstərməlidir. Hər bir seçki siyasi mübarizədir. Ona görə də bu prosesdə qələbədən ötrü sona qədər prinsipial olub kampaniyanı uğurla başa çatdırmaq lazımdır.

# İdarəetmə qabiliyyəti



*Hər bir namizədin üzərinə seçki prosesində mühüm vəzifələr düşür. Müxtəlif seçki hərəkatlərinin edilməsi və çoxsaylı seçicilərlə iş aparılması üçün namizəddən yüksək idarəçilik qabiliyyəti tələb olunur.*

Bu mənada seçicilərin böyük əksəriyyətini namizəd düzgün istiqamətləndirməyi bacarmalıdır. Namizəd seçki qərargahının üzvləri arasında dəqiq iş bölgüsü aparmalı və onların fəaliyyəti üçün lazımi şərait yaratmalıdır. Həmçinin, namizəd tərəfdarları olan seçki subyektləri və seçki prosesinin digər iştirakçıları ilə düzgün münasibət qurmalıdır.

# Şəxsi keyfiyyətlər

*İlk növbədə cəmiyyətdə hər bir vətəndaşın, o cümlədən namizədin şəxsi keyfiyyətləri dedikdə, onun əxlaqi və mənəvi keyfiyyətləri nəzərdə tutulur.*

Belə keyfiyyətləri olan insanlar ətraflarına daha çox seçici və ən asası tərəfdaş toplaya bilirlər. Xüsusən də, cəmiyyətdə tanınmış adamların namizədliyi irəli sürüldükdə şəxsi keyfiyyətləri də nəzərə alınmaqla onların əhatə dairəsi də geniş olacaqdır. Ünsiyyətlilik, qayğıkeşlik, ağsaqqallara, ziyalılara, gənclərə, qadınlara və digər şəxslərə qarşı diqqətli olmaqla namizəd daha üstün cəhətlərə malik olur. Nəzərə alınmalıdır ki, əksər hallarda namizədin şəxsi keyfiyyətləri seçki prosesinin nəticəsi kimi seçicilərin etimadının qazanılmasında, onlarla sıx əlaqələrin qurulmasında və qanunvericiliyə uyğun olaraq seçki fondları üçün maliyyə mənbələrinin əldə olunmasında əhəmiyyətli rol oynayır.

# Yerli özünüidarəetmə haqqında məlumatlılıq

*Yuxarıda qeyd olunan keyfiyyətlərlə yanaşı irəli sürüləcək namizədlərin yerli özünüidarəetmə haqqında üzvlüyünə namizəd olduğu bələdiyyənin fəaliyyəti barədə məlumatlı olması vacibdir.*

Bir sözlə seçkidə iddialı şəxs bilməlidir ki, seçildikdən sonra ona göstərilən etimadı necə doğruldacaq. Çox yaxşı olardı ki, fəaliyyətdə olan bələdiyyənin və bələdiyyə rəhbərliyinin güclü və zəif tərəflərini öyrənə bilsin. Əhalini maraqlandıran yerli əhəmiyyətli məsələlər, sosial sifarişlər haqqında məlumatlı olsun. Nəzərə almaq lazımdır ki, seçicilərə çatdırılacaq mesajlarda sakinləri narahat edən problemlərin həlli əsas istiqamət olmalıdır. Bütün bunlar isə, hər bir namizədin yerli özünüidarəetmə haqqında qanunvericiliyi yaxşı bildiyi və liderlik bacarığı olduğu halda daha effektli olacaqdır.

# Seçki kampaniyasının hədəfinin müəyyənləşdirilməsi

*Seçki prosesində vacib tədbirlərdən biri də seçki kampaniyasının hədəfinin müəyyənləşdirilməsidir. Sual oluna bilər: Niyə məhz 'hədəfin müəyyənləşməsi"? Hesab edirik ki, əvvəlcə 'hədəf" anlayışının özü izah olunmalıdır.*

İlk növbədə hər bir namizəd və ya seçki qərargahı bilməlidir ki, onlara qələbə üçün nə qədər lehinə veriləcək səslər lazımdır. Artıq məlumdur ki, seçki ərazisində müəyyən sayda seçki məntəqəsi üzrə nə qədər seçici vardır. Qələbə üçün zəruri seçici sayları müəyyən edildikdən sonra namizədin tərəfdarlarının sayı bilinməlidir. Daha sonra seçkidə iştirak edən rəqib namizədi dəstəkləyən seçicilərin təxmini sayını bilmək lazımdır. Bütün bu məlumatları müəyyənləşdirdikdən sonra namizəd və ya seçki qərargahı öz tərəfdarları ilə əks tərəfin namizədlərinin tərəfdarları arasında kəmiyyət fərqini ortaya çıxarmalıdır. Seçki praktikasında bu proses "hədəfə alma" yaxud "ünvanlı qrupların müəyyənləşdirilməsi" adlanır. Seçkilərin nəticəsinə təsir edə biləcək "hədəfə alma"nın əsas mahiyyəti ondan ibarətdir ki, namizədlər mesajları və təşviqatı ilə bir qrup seçiciləri öz tərəfdarlarına çevirə bilirlər.

**Seçki kampaniyasının hədəfini müəyyənləşdirərkən ərazidəki seçiciləri 3 qrupa bölmək olar:**
Namizədin inanılmış tərəfdarları olan seçicilər;
Namizədin rəqiblərinin inanılmış tərəfdarları olan seçicilər;
Öz mövqeyini təyin etməyən seçicilər.

# Namizədin inanılmış tərəfdarları olan seçicilər



*Namizədə səs verəcəkləri barədə qəti qərara gəlmiş şəxsləri bu qrupa daxil etmək olar. Onlara namizədin qohum-əqrəbası, iş yoldaşları, qonşuları, məktəb yoldaşları, siyasi partiya və əqidə yoldaşları, o cümlədən namizədə simpatiyası olan insanlar aiddir.*

Bu qəbildən olan seçicilərə geniş təbliğat işinin aparılmasına, müxtəlif vədlərin verilməsinə xüsusi ehtiyac duyulmur. Çünki bu adamlar namizədin inanılmış elektora-tıdır və namizədə səs verəcəklərinə heç bir şübhə yoxdur. Özünün adət-ənənəsi, əxlaqi keyfiyyətləri və milli-mənəvi dəyərləri olan ölkələrdə, o cümlədən Azərbaycanda və onun ayrı-ayrı bölgələrində bu məsələ xüsusi əhəmiyyət kəsb edir.

Namizədin mənsub olduğu siyasi partiya onun nami¬zədliyinə dəstək verdiyi halda ümumrespublika təşkilatı və partiyanın ayrı-ayn ərazi təşkilatları bu işdə nəinki elektoratın təşkilində, eləcə də digər problemlərin həllində na¬mizədin yardımçısı ola bilər. Məhz bu səbəbdən bu insanlar arasında xüsusi təbliğata ehtiyac duyulmur.

# Namizədin rəqiblərinin inanılmış tərəfdarları olan seçicilər



*Bu qrupa daxil olan insanlar sizin namizədinizin qəti əleyhdarlarıdır. Başqa sözlə, namizəd tam əmindir ki, hansı təbliğat formasından istifadə etməsinə baxmayaraq, bu qrupa daxil olan insanlar ona səs verməyəcəklər.*

Buraya namizədin opponentlərinin inanılmış tərəfdarları, onların qohum-əqrəbaları, yaxın adamları, mənsub olduğu siyasi partiya¬nın nümayəndələri aid edilə bilər. Bu qrupa daxil olan insanlarla da xüsusi təbliğat aparılmasına ehtiyac duyulmur. Çünki onların da böyük bir qismi əvvəlcədən kimə səs verəcəkləri barədə artıq qərar qəbul ediblər.

Qeyd edək ki, fəaliyyətdə olan bələdiyyə rəhbərliyi və bəzi üzvlərinin ətrafında olan seçicilər də əks tərəfin inanılmış tərəfdarlarından hesab olunur. Belə şəraitdə çalışmaq lazımdır ki, həmin qrupa daxil olan insanlar digər namizədlərə də səs verməsinlər. Bu məqsədlə onların mesajları ilə yaxından tanış olmaq, güclü və zəif cəhətləri aşkarlamaq, onları öz lehinə inandırmaq lazımdır. Bununla da ikinci qrupa daxil olan insanların bir qismini neytrallaşdırmaq mümkün ola bilər.

# Öz mövqeyini təyin etməyən seçicilər



*Seçki ekspertlərinin çoxu bu qrupu bir çox hallarda «potensial qrup» da adlandı¬rırlar. Bu qrup sözün həqiqi mənasında potensial və həlledici qrupdur. Çünki namizədlərin hamısı özünün əsas elektoratını bu qrupdan formalaşdırmağa çalışır. Bunun əsas səbəbi odur ki, yuxarıda haqqında danışdığımız qruplar öz mövqelərini müəyyən etmişlər.*

Üçüncü qrupa daxil olan seçicilər həm sayca çoxdur, həm də öz qərarlarını hələ müəyyən etməyiblər. Buna görə də hər bir namizəd və onların seçki qərargahı onların içərisindən öz ünvanlı qruplarını seçib, mesajlarını yetirməyə çalışırlar. Bələdiyyə seçkiləri zamanı “ideal namizəd” ərazinin yerli əhəmiyyətli və sakinləri narahat edən problemlərin həlli yolları barədə fikirlərini söyləməklə daha çox seçici özünə cəlb edə bilər. Ona görə də ilk növbədə həmin seçicilərin əhatəsində olmaq, mesajları yığcam və məzmunlu, ən əsası inandırıcı şəkildə çatdırmaq lazımdır.

# Seçicilərin üstünlük verdiyi dəyərlərin öyrənilməsi



*Seçki kampaniyasının hədəfləri müəyyən edildikdən sonra tərəfdarlarının sayının artırılması istiqamətində tədbirlər daha ciddi xarakter almalıdır. Namizədi dəstəkləyən seçicilərlə işin necə qurulması və hansı dəyərlərə üstünlük verilməsi məsələsi də gündəmdə olmalıdır.*

Nəzərə almaq lazımdır ki, bələdiyyə seçkilərində spesifik cəhətlərdən biri də odur ki, digər seçkilərdən fərqli olaraq, hər bələdiyyə üzrə seçki ərazisində əhali sayı eyni olmur. Ona görə də qeyd olunan məsələnin həlli üçün nəzərdə tutulan seçicilərin ünvanını, yaşayış sahələrini və sayını bilmək lazımdır. Növbəti addım isə iş aparılacaq seçicilərin maraqlarını öyrənməkdir.

**Təcrübədə əsasən namizədin seçki qərargahları bu məsələni 4 istiqamət üzrə təhlil aparmaq yolu ilə müəyyənləşdir.**

1. Seçici dəyərlərinin prioritetlərinin müəyyən olun¬ması;
2. Seçicilərin əhval-ruhiyyəsinin öyrənilməsi;
3. Seçiciləri maraqlandıran problemlərin müəyyənləş¬məsi;
4. Namizədin liderlik bacarıqlarının qiymətləndirməsi.

# Dəyərlər

*Bələdiyyə seçkiləri zamanı hər bir namizəd seçki ərazisində seçiciləri təmsil edən seçicilərin hansı dəyərlərə daha çox əhəmiyyət verdiyini bilməlidir. Bunlar çox müxtəlif ola bilər.*

Məsələn, namizəd seçicilərin daha çox nəyə - məsələn, yerli sosial inkişafdan irəli gələrək asudə vaxtın təşkili, ağsaqqallarla, gənclərlə iş, gender siyasətinə diqqət ola bilər. Digər bir misal isə seçicilərin ölkədə sabitliyə və hansısa bir sahə üzrə islahatlara üstünlük verməsi ola bilər. Hər bir seçici qrupunun önəm verdiyi digər dəyərlər də ola bilər.

## Seçicilərin əhval-ruhiyyəsi

Seçki prosesi zamanı müxtəlif mərhələlərdə, o cümlədən seçkiqabağı təşviqatda və səsvermə günündə seçicilərin daha çox iştirakı və namizədin lehinə  səs verməsi onların əhval-ruhiyyəsindən çox asılıdır. Qeyd etdiyimiz kimi seçki kampaniyası mühüm siyasi tədbirdir və nəticədə namizədlər qələbə qazanmaq arzusundadırlar. Ona görə də seçki qərargahı üçün vacibdir ki, seçicilərin əhval-ruhiyyəsinin öyrənilməsini təmin etsin. Bilinməlidir ki, seçicilər bələdiyyələrin fəaliyyətindən razıdırlarmı və apardığı işləri müsbət qiymətləndirirlərmi, bu quruma inamı necədir?

Ümumiyyətlə bu ərazidə yaşayanlar sabaha optimist, yoxsa pessimist münasibət bəsləyir? Vətəndaşlar bələdiyyə ərazisində hər hansı bir yeniliyin tərəfdarlarıdırmı və hansı yeniliyi görmək istəyirlər? Bu və digər belə məsələlərin hamısı seçicilərin əhval-ruhiyyəsinin öyrənilməsində hesab edirik ki, öz əksini tapmalıdır.

## Seçiciləri maraqlandıran problemlər

Seçiciləri hansı problemlər daha çox maraqlandırır və həlli yolları necədir? Bu kimi məsələlərə seçkilərə hazırlıq dövründə yenidən aydınlıq gətirməyə ehtiyac vardır. Haqlı olaraq bir çox mütəxəs¬sislər hesab edirlər ki, seçiciləri maraqlandıran pro-blemlərin həlli yollarına inandırmaq seçki prosesinin şah damarıdır. Bələdiyyə seçkiləri zamanı bu məsələnin öz spesifikliyi vardır. Belə ki, bələdiyyə üzvlüyünə namizəd və onun seçki qərargahı ərazidə hansı yerli əhəmiyyətli problemlərin olmasını və uzun illərdən bəri hansı səbəbdən həll oluna bilməməsini dəqiqləşdirməlidir. Seçkilərdən sonra qeyd olunan problemin həlli istiqamətinədə hansı addımlar atıla bilər? Həlli yollarını namizəd və ya onun seçki qərargahı necə görür? Ola bilsin ki, həmin problemlərin həlli bələdiyyələrin həm səlahiyyətləri və maliyyə imkanları xaricindədir. Başqa bir qurumun səlahiyyətlərindədir.  Həmçinin, ərazidə seçiciləri narahat edən digər sosial, iqtisadi və ekoloji problemlər barədə namizədlərdə tam məlumat olmalıdır. Yerli əhəmiyyətli məsələlərin çox olduğu halda ilk öncə hansı problemlərin həllinə üstünlük veriləcəyi barədə real vədlər seçicilərdə yaxşı stimul yarada bilər.

# Namizədin liderlik keyfiyyəti



*Liderlik keyfiyyəti bilavasitə seçkidə iştirak edən namizədin özü ilə birbaşa bağlıdır. Seçki qərargahı müəyyən etməlidir ki, seçicilər gələcək liderlərini necə görmək istəyirlər və ondan hansı liderlik bacarıqları tələb olunur. Aydınlaşdırmaq olar ki, məsələn, seçicilər təcrübəli, bacarıqlı, ünsiyyətli, orta yaşlı, prinsipial lider görmək istəyir.*

Ola bilsin ki, seçicilər öz liderlərini ziyalıların, gənclərin və əvvəllər icra hakimiyyəti orqanlarında işləmiş şəxslərin sırasından olmasını arzu edirlər. Yerli özünüidarəetmədə vətəndaşların etimadını qazanmaq üçün bu gün namizədlərdən əsil liderlik keyfiyyətləri tələb olunur və onlar fəallıq göstərməklə liderlik bacarıqlarını artırmalıdırlar.

Qeyd olunan 4 istiqamət üzrə təhlil apardıqdan sonra namizəd və ya onun seçki qərargahı, siyasi partiyalar müəyyən edə bilərlər ki, hansı yaşayış sahəsi üzrə seçicilərə hansı mesajı çatdırmaq lazımdır. Seçicilərin üstünlük verdiyi dəyərlərə həssaslıqla yanaşmaqla və seçki prosesində seçicilərə təsir etməklə namizədlər tərəfdarlarının sayını artırmış olacaqlar. Unutmayın ki, hər bir seçicinin səsi həlledici ola bilər.

# Kütləvi informasiya vasitələri ilə iş

*Demokratik cəmiyyətlərdə seçkilərə hazırlıq və kampaniya müddətində KİV-lər çox böyük önəm daşıyır. Medianın dəstəyi ilə seçki prosesi və maarifləndirmə tədbirləri barədə informasiyalar verilir. Həmçinin, seçki subyektləri olan namizədlər və siyasi partiyalar qələbələrini təmin etməkdən ötrü KİV-lərin imkanlarından geniş istifadə edə bilərlər.*

Son zamanlar Azərbaycanda müxtəlif seçkilər və referendumlar keçirilmişdir. Qeyd olunmalıdır ki, ölkənin ictimai-siyasi həyatında mühüm olan bu kampaniyalar KİV-lərin fəal iştirakı ilə təşkil edilmişdir.

Seçicilərlə əlaqələrin qurulmasında xüsusi rol oynayan amillərdən biri də məhz bələdiyyə üzvü seçilmək istəyən namizədlərin media imkanlarından səmərəli istifadə etmələridir. Ona görə də namizədlərin seçki qərargahları seçicilərlə əlaqələrin qurulması və təşviqatın aparılması işində KİV-in gücündən istifadə etmək istədikləri halda, həmin media qurumlarını müəyyən etməklə geniş iş planı hazırlanmalıdır.

İş planı tərtib edərkən teleradio şirkətlərinin efir və vaxt imkanlarını, müqavilə şərtlərini nəzərə almaq lazımdır. Dövri nəşrlərdə də eyni qaydada dərc olunacaq yazının həcmi, zaman, ödəniləcək haqq və digər imkan-

lar nəzərə alınmalıdır. Hazırlanan mesajın daha çox seçici auditoriyasına çatdırılmasına və effektivliyinə nail olmaq lazımdır. Kütləvi informasiya vasitələri ilə daha yaxın əlaqələrin qurulması namizədin lehinə olaraq yüksək səviyyəli informasiyaların verilməsinə, süjetlərin hazırlanmasına, məqalələrin çap olunmasına əhəmiyyətli təsir göstərə bilər. Qanunvericiliklə müəyyən edilmiş qaydada medianın imkanlarından səmərəli istifadə olunması namizədin təşviqata sərf edəcəyi maliyyə vəsaitinə qənaət olunmasına şərait yaratmış olacaq.

Həmçinin, nəzərə almaq lazımdır ki, Seçki Məcəlləsinin 43-cü maddəsinə görə KİV nümayəndələri müşahidəçi statusuna malikdirlər. Seçki prosesində aşkarlığı təmin etmək məqsədilə media təmsilçilərinin seçki komissiyalarının iclaslarını işıqlandırmaq, səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokollar və qərarlar ilə tanış ola bilmək və başqa hüquqları vardır.

# Seçki kampaniyasının mesajının hazırlanması



*Nəzərə almaq lazımdır ki, qadın namizədlərimiz bir qayda olaraq seçki kontingentini özünün seçici qərargahı vasitəsi ilə müəyyənləşdirdikdən sonra öz seçicilərinə nə deyəcəyi barədə konkret qərar qəbul etməlidirlər. Məhz bu qərar qadın namizədin seçki kampaniyası üçün xüsusi əhəmiyyətli mesaj hesab olunur.*

Bu gün yaşadığımız cəmiyyətdə mesaj və mesaj göndərmək sözlərindən, tez-tez istifadə olunur. İnformasiya texnologiyalarının geniş imkanlarından yararlanan əhali hər gün mesajlar vasitəsi ilə vacib olan məlumatları paylaşırlar.

İlk öncə qadın namizədlərimiz öz namizədliyini nə üçün irəli sürməsi barədə məlumatı məhz mesajlarında əks etdirməlidirlər. İstənilən seçki kampaniyasının uğuru müvafiq mesajın lazımi səviyyədə hazırlanması və seçicilərə hansı şəkildə ötürülməsindən əhəmiyyətli dərəcədə asılıdır. Bilməyiniz vacibdir ki, göndəriş, məlumat və ötürmə mənalarını bidirən mesaj sözü İngilis dilinin lüğət tərkibinə daxil olan sözdür. Bu söz daha geniş miqyasda, əsas fikir və ya əsas ideya kimi başa düşülür.

Bu mənada mesaj seçicilərə verilən əsas vəd deməkdir. Nəzərdən qaçırmaq olmaz ki, seçicilərin əksəriyyətinin arzu və ehtiyaclarına uyğun, hamının başa düşəcəyi şəkildə ifadə olunan bir neçə söz və söz birləşməsi seçki səslərinin əksəriyyətinin qazanılmasında mühüm faktordur.

Verilən mesaj namizədin öz rəqiblərindən nə ilə fərqləndiyini bildirməsi ilə yanaşı, eyni zamanda, namizədin prinsip və mövqelərini də ifadə etməlidir. Namizəd və onun rəqibi barədə informasiyanın əldə edilməsi, tədqiqat işinin aparılması, elektoratın siyasi simpatiyasının müəyyənləşdirilməsi və paralel olaraq hansı KİV-lərdə seçicilərə təbliğ olunması yollarının araşdırılması, mesajın hazırlanma prosesinə aid olan məsələlərdir.

Namizədin seçki qərargahı, seçiciləri maraqlandıran sualları ətraflı şəkildə təhlil edərək, problemlərin həlli yolları barədə öz fikirlərini, mesajlar yolu ilə seçicilərə çatdırılmasına nail olmalıdırlar. Mesajın hazırlanması isə seçicilərlə dialoqun stimullaşdırılamasının əsas məqamlarından biridir.

Mesajın daima nəzarətdə saxlanılması və namizədin rəqiblərinin bu mesajdan istifadə etməməsinə nəzarət etmək, namizədin seçki qərargahının əsas vəzifəsi hesab olunmalıdır.

Qadın namizədlərimizin diqqət mərkəzində saxlamalı olduqları əsas məsələlərdən biri də seçicilərin bu və ya digər məsələyə eyni zamanda seçicilərin digər namizədlərə olan münasibətlərinin dəyişməsi, daha doğrusu dəyişdirilməsidir. Təbiidir ki, bu, ilk öncə sizin siyasi təcrübənizdən və qarşı tərəfə meylli olan seçicini öz tərəfinizə çəkmək bacarığınızdan asılı olacaqdır.

Bu məqamda vaxt məhdudiyyətini qətiyyən nəzərdən qaçırmaq olmaz. Belə ki, seçkiyə qatılmış qadın namizədin öz seçicilərinə birbaşa müraciəti həmişə və ya tez-tez mümkün olmur. Seçicilərə ünvanlanan mesaj vaxt etibarı ilə qısa, məzmununa görə dolğun, vəd verdiyi üçün isə inandırıcı olmalıdır. Ona görə də yaranmış şəraitdən dərhal və bacarıqla istifadə olunmalıdır. Təcrübədə bunun müxtəlif yolları və formaları vardır. Auditoriyaya və mövzuya uyğun atalar sözləri, müdrik kəlamlar, və müxtəlif aforizmlər, tarix və mədəniyyət mövzusunda misallardan istifadə etmək lazımdır. Belə olduqda seçicilərin mesajı daha asan qəbul

etmələri, eləcədə yuxarıda dediyimiz kimi seçicilərin rəqiblərinə olan münasibətlərinin dəyişməsinə səbəb olacaq və namizədə inam yaranacaqdır.

Ərazidə olan mövcud yerli problemlərin həlli istiqamətində və ya qanunvericilikdən irəli gələn gələcəkdə reallaşdıra biləcəyiniz əsas layihələr barədə verəcəyiniz mesaj isə sizə olan inamı daha da artıracaqdır.

# Bələdiyyə seçkilərində namizədliyin irəli sürülməsi

Passiv seçki hüququna malik olan, müvafiq seçki dairəsində daimi yaşayan və Azərbaycan Respublikasının Seçki Məcəlləsinin (bundan sonra-Seçki Məcəlləsi) 53-cü, 54-cü, 212-ci, 214-cü maddələrinin tələblərinə cavab verən vətəndaşlar üçün namizədliyi irəli sürmək hüququna malik olan 4 seçki subyekti aşağıdakılardır

- vətəndaşın özü;
- seçicilərin təşəbbüs qrupu;
- siyasi partiya;
- siyasi partiyaların bloku.

# Bələdiyyə üzvlüyünə namizədlərə aid tələblər:

*Bu tələblər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 53-cü, 54-cü və 212-ci maddələrində əks olunmaqla aşağıdakılardan ibarətdir:*

- Azərbaycan Respublikasının vətəndaşı olması;
- Yaşının 18-dən aşağı olmaması;
- müvafiq seçki dairəsinin ərazisində daimi yaşaması;
- ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğun olmaması;
- ikili vətəndaşlığının olmaması;
- başqa dövlətlər qarşısında öhdəliyinin olmaması.

Ölkə ərazisində bələdiyyə seçkilərini Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası səsvermə gününə azı 60 gün qalmış təsdiq edir. Seçkilərin təyin edilməsi barədə MSK-nın qərarı qəbul edildiyi gündən ən geci 2 gün ərzində rəsmi dərc olunur.

Bələdiyyə üzvlüyünə namizədlərin irəli sürürlməsi qeyd olunan qərarın dərc olunmasından sonra başlayır. Namizədlərin irəli sürülməsi üçün aidiyyatı dairə seçki komissiyasina müraciət edilməlidir.

# Namizədlərin öz təşəbbüsü ilə irəli sürülməsi

*Azərbaycan Respublikasında bələdiyyə seçkilərində vətəndaşların öz təşəbbüsü ilə bələdiyyə üzvlüyünə namizədin və ya namizədlərin irəli sürülməsi Seçki Məcəlləsinin 53-cü, 212-ci, 214-cü maddələri və ‘Bələdiyyə seçkilərində seçicilərin təşəbbüs qruplarının yaradılması, namizədlərin öz təşəbbüsü ilə və ya  seçicilərin təşəbbüs qrupları tərəfindən irəli sürülməsi qaydaları” haqqında Təlimatla (bundan sonra Təlimat) nizama salınır.*

**Öz təşəbbüsü ilə namizədliyini irəli sürən vətəndaş dairə seçki komissiyasına aşağıdakı sənədləri təqdim etməlidir:**

1. Bələdiyyə üzvlüyünə namizədliyin irəli sürülməsinə dair bildiriş (Təlimata 1 saylı əlavə);

2. Bələdiyyə üzvlüyünə namizədin öhdəlik ərizəsi (Təlimata 2 saylı əlavə) (ərizədə bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya

və nömrəsi, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), məhkumluğuna, vətəndaşlığına və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir);

3 Namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin edilibsə, həmin səlahiyyətli nümayəndənin notariat qaydasında təsdiq edilmiş vəkalətnaməsi (Təlimatın 5, “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında” Təlimatın isə 3 “b” saylı əlavəsi).

4 Namizəd öz ərizəsində siyasi mənsubiyyətinə dair məlumat daxil edibsə, bu barədə təsdiqedici sənəd. Belə halda, namizəd mənsub olduğu siyasi partiyanın 5 sözdən çox olmayan adla adlandırılmasını müvafiq seçki komissiyası ilə razılaşdırır. Ərizədə göstərilmiş siyasi partiya namizədi öz sıralarından xaric edibsə və müvafiq seçki komissiyasına bildiriş göndəribsə, bildiriş alındıqdan sonra həmin namizədlə əlaqədar siyasi partiyanın adından istifadə edilə bilməz. Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış namizədə və ya onun səlahiyyətli nümayəndəsinə verilir (Təlimata 4 saylı əlavə).

*Dairə seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır, namizədə və ya onun səlahiyyətli nümayəndəsinə namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə qərar təqdim edir.*

# Namizədlərin seçicilərin təşəbbüs qrupları tərəfindən irəli sürülməsi

*Azərbaycan Respublikasında bələdiyyə seçkilərində aktiv seçki hüququ olan vətəndaşların yaratdıqları təşəbbüs qrupları tərəfindən bələdiyyə üzvlüyünə namizədin və ya namizədlərin irəli sürülməsi Seçki Məcəlləsinin 53-cü, 212-ci, 214-cü maddələri və ‘Bələdiyyə seçkilərində seçicilərin təşəbbüs qruplarının yaradılması, namizədlərin öz təşəbbüsü ilə və ya seçicilərin təşəbbüs qrupları tərəfindən irəli sürülməsi qaydaları" haqqında Təlimatla (bundan sonra Təlimat) nizama salınır.*

Bələdiyyə üzvlüyünə namizədlər aktiv seçki hüququ olan vətəndaşların yaratdıqları təşəbbüs qrupları tərəfindən də irəli sürülə bilər. Bunu üçün əvvəlcə seçicilərin təşəbbüs qrupunun yaradılması vacibdir.

**Seçicilərin təşəbbüs qrupunun yaradılması və bələdiyyə üzvlüyünə namizədliyin irəli sürülməsi qaydası**

- Namizədi irəli sürən subyektlərdən biri kimi seçicilərin təşəbbüs qrupunun yaradılması və namizədliyin irəli sürülməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada nizama salınır.

- Seçki Məcəlləsinin 215-ci maddəsində nəzərdə tutulan qaydada əhalinin sayına nisbətdə:

Əhalisi **99.999-dan çox** bələdiyyədə - üzvlərinin sayı **azı 30 nəfərdən,**

Əhalisi **49.999-dan çox** bələdiyyədə - üzvlərinin sayı **azı 25 nəfərdən**,

Əhalisi **19.999-dan çox** bələdiyyədə - üzvlərinin sayı **azı 20 nəfərdən**,

Əhalisi **19.999-dan çox** bələdiyyədə - üzvlərinin sayı **azı 20 nəfərdən**,

Əhalisi **4.999-dan çox** bələdiyyədə - üzvlərinin sayı **azı 10 nəfərdən**,

Əhalisi **4.999-dan az olan** bələdiyyədə - üzvlərinin sayı azı **5 nəfərdən ibarət** təşəbbüs qrupu yaradıla bilər.

Bunun üçün təşəbbüs qrupunu yaratmaq istəyən seçicilər öz yığıncağını keçirməlidirlər. Təşəbbüs qrupu yaratmaq istəyən seçicilərin müvafiq seçki dairəsinin ərazisində yaşaması faktı əsas götürülür. Təşəbbüs qrupu yaratmaq istəyən vətəndaş və ya vətəndaşlar tərəfindən bələdiyyə qurumunun rəhbərliyinə və ya ərazi üzrə icra hakimiyyətinin yerli nümayəndəsinə yığıncaq keçirmək üçün yer ayrılması barədə yazılı müraciət edilə bilər. Həmçinin seçicilərin təşəbbüs qrupunun yığıncağı seçicilərin yaşayış yeri üzrə, icra və bələdiyyə qurumları, o cümlədən digər hüquqi şəxslərin ərazi və binalarında keçirilə bilər. Müvafiq yer müəyyənləşdirildikdən sonra təşəbbüs qrupu yaratmaq istəyən seçicilərə yığıncağın yeri və vaxtı barədə məlumat verilir.

**Yığıncaqda aşağıdakı məsələlər müzakirə olunur:**

- Təlimatın 2.2-ci bəndində göstərilən qaydada seçicilərin təşəbbüs qrupunun yaradılması və adlandırılması;
- Qrupu təmsil edəcək şəxsin (təşəbbüs qrupunun nümayəndəsi) müəyyən edilməsi (bu şəxs iclasın sədri və ya katibi ola bilər);
- Bələdiyyə üzvlərinin sayından az və ya həmin sayda namizədlərin irəli sürülməsi;
- Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün dairə seçki komissiyasına bildirişlə müraciət edilməsi.

*Yığıncağın gündəliyinə çıxarılaraq müzakirə edilmiş hər bir məsələ barədə qərar qəbul olunur və yığıncağın protokolu tərtib edilir. Protokolu iclasın sədri və katibi imzalayır. İclasın protokolunun həmin qurumların, o cümlədən iclasın keçirildiyi yerin məxsus olduğu hüquqi şəxslərin möhrü ilə möhürlənməsi də mümkündür.*

**Bələdiyyə üzvlüyünə namizəd və ya namizədlərin seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürülməsi üçün müvafiq dairə seçki komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:**

- Seçicilərin təşəbbüs qrupunun yaradılması və namizədliyin irəli sürülməsi barədə yığıncağın protokolu (Təlimata 3 saylı əlavə);
- Hər bir namizədin irəli sürülməsinə təşəbbüs edilməsi barədə ayrı-ayrılıqda tərtib edilmiş bildiriş (Təlimata 1 saylı əlavə);
- Bələdiyyə üzvlüyünə namizədin öhdəlik ərizəsi (Təlimata 2 saylı əlavə) (ərizədə bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət

növü), məhkumluğuna, vətəndaşlığına və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir);

- Namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin edilibsə, səlahiyyətli nümayəndənin notariat qaydasında təsdiq edilmiş vəkalətnaməsi (Təlimatın 5, "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında" Təlimatın 3 "b" saylı əlavəsi).
- Namizəd və ya namizədlərin siyasi mənsubiyyətinə dair məlumat varsa, bu barədə təsdiqedici sənəd verilməlidir. Belə halda, namizəd mənsub olduğu siyasi partiyanın 5 sözdən çox olmayan adla adlandırılmasını müvafiq seçki komissiyası ilə razılaşdırır. Ərizədə göstərilmiş siyasi partiya namizədi öz sıralarından xaric edibsə və müvafiq seçki komissiyasına bildiriş göndəribsə, bu bildiriş alındıqdan sonra həmin namizədlə əlaqədar siyasi partiyanın adından istifadə edilə bilməz.
- Seçicilərin təşəbbüs qrupunun irəli sürdüyü bələdiyyə üzvlüyünə namizəd və ya namizədlərin sənədlərini müvafiq dairə seçki komissiyasına seçicilərin təşəbbüs qrupunun nümayəndəsi, habelə namizəd və ya onun səlahiyyətli nümayəndəsi təqdim edə bilər.
- Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış həmin sənədləri təqdim etmiş şəxsə (təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsinə, namizədə və ya onun səlahiyyətli nümayəndəsinə) verilir (Təlimata 4 saylı əlavə).
- Dairə seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır, namizədə və ya onun səlahiyyətli nümayəndəsinə namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə qərar təqdim edir.

# Namizədlərin siyasi partiyalar tərəfindən irəli sürülməsi

*Azərbaycan Respublikasında bələdiyyə seçkilərində siyasi partiyalar tərəfindən bələdiyyə üzvlüyünə namizəd və ya namizədlərin irəli sürülməsi Seçki Məcəlləsinin 54-cü, 212-ci, 214-cü maddələri və ‘Bələdiyyə seçkilərində namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydaları” haqqında Təlimatla (bundan sonra Təlimat) nizama salınır.*

Namizədlərin siyasi partiyalar tərəfindən irəli sürülməsinin bəzi ön şərtləri var. İlkin olaraq siyasi partiya öz nizamnaməsinə uyğun olaraq namizədin və ya namizədlərin irəli sürülməsi haqqında qərarı səsvermə yolu ilə kollegial qaydada qəbul edir. Siyasi partiyanın namizədlərlə bağlı sözügedən qərarı protokolla rəsmiləşdirilir və həmin protokolda müvafiq ardıcıllıqla iclasda (qurultayda, konfransda, rəhbər orqanın iclasında) iştirak etmək üçün qeydə alınmış iştirakçıların sayı, namizədin irəli sürülməsi barədə qərar və bu qərar üzrə səsvermənin nəticələri, habelə qərarın qəbul edilməsi tarixi göstərilir. Namizədlərin irəli sürülməsində qanunvericiliyin imkan verdiyi diqqətçəkən bir məqam var. Bu, yalnız siyasi partiya üzvlərinin deyil, həmçinin partiya üzvü olmayan nüfuzlu və seçilmək şansı yüksək olan şəxslərin də siyasi partiya tərəfindən namizəd kimi irəli sürülməsinin mümkünlüyüdür.

**Siyasi partiyalar tərəfindən bələdiyyə üzvlüyünə namizəd və ya namizədlər irəli sürülərkən siyasi partiyanın səlahiyyətli nümayəndəsi müvafiq dairə seçki komissiyasına namizədin adı ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:**

- Siyasi partiyanın qeydə alınması barədə şəhadətnamənin notariat qaydasında təsdiqlənmiş surəti;
- Siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiqlənmiş surəti;
- Namizəd və ya namizədlərin irəli sürülməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclasının) qərarı və müvafiq iclasın protokolu;
- Hər bir namizədin irəli sürülməsi barədə ayrı-ayrılıqda tərtib edilmiş bildiriş (Təlimata 1 saylı əlavə) (bu bildirişin surəti Seçki Məcəlləsinin 226.3-cü maddəsinə uyğun olaraq dairə seçki komissiyası tərəfindən təsdiq edilərək müvafiq səlahiyyətli nümayəndəyə verilir);
- Bələdiyyə üzvlüyünə namizədin öhdəlik ərizəsi (Təlimata 2 saylı əlavə) (ərizədə bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), məhkumluğuna, vətəndaşlığına və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir);
- Səlahiyyətli nümayəndələrin təyin edilməsi barədə siyasi partiyanın qurultayının (konfransın, rəhbər orqanın iclasının) qərarı;
- Siyasi partiyaların səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş vəkalətnamələri (Təlimatın 4, Qeyddə göstərilmiş Təlimatın 3 “c” saylı əlavəsi);

- Siyasi partiyaların səlahiyyətli nümayəndələrinin siyahısı (Təlimatın 5, Qeyddə göstərilmiş Təlimatın 2 saylı əlavəsi);
- Siyasi partiyaların səlahiyyətli orqanı səlahiyyətli nümayəndənin səlahiyyətinə xitam verdiyi halda, bu barədə qərarın surəti Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyasına təqdim edilməlidir;
- Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış siyasi partiyanın səlahiyyətli nümayəndəsinə verilir  (Təlimata 3 saylı əlavə).

**Siyasi partiyalar tərəfindən Mərkəzi Seçki Komissiyasına aşağıdakı sənədlər təqdim edilməlidir:**

- Siyasi partiyaların səlahiyyətli nümayəndələrinin, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin siyahıları (Təlimatın 5 və 5 “a”, Qeyddə göstərilmiş Təlimatın 2  və 2 “a”saylı əlavələri);
- Siyasi partiyaların səlahiyyətli nümayəndələrinin, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin razılıq məktubları (Bu Təlimatın 6 və 6 “a”, Qeyddə göstərilmiş Təlimatın 1  və 1 “a” saylı əlavələri);
- Mərkəzi Seçki Komissiyasında qeydə alındıqları zaman, habelə qeydə alındıqdan sonra səlahiyyətli nümayəndə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilibsə, siyasi partiyalar bloku   da müvafiq sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim etməlidir.

> *Bir məqamı da unutmamaq lazımdır ki, əgər siyasi partiyaların səlahiyyətli orqanı səlahiyyətli nümayəndənin səlahiyyətinə xitam verərsə, bu barədə qərarın surəti Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyasına təqdim edilməlidir.*

# Namizədlərin siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi

*Azərbaycan Respublikasında bələdiyyə seçkilərində siyasi partiyaların blokları tərəfindən bələdiyyə üzvlüyünə namizəd və ya namizədlərin irəli sürülməsi Seçki Məcəlləsinin 54-cü, 212-ci, 214-cü maddələri və ‘Bələdiyyə seçkilərində namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydaları” haqqında Təlimatla (bundan sonra Təlimat) nizama salınır.*

Siyasi partiyaların bloku tərəfindən irəli sürülən namizəd və ya namizədlər bloka daxil olan hər bir siyasi partiya tərəfindən təsdiq edilir. Siyasi partiyaların blokları tərəfindən  namizəd  və ya namizədlərin irəli sürülməsi haqqında qərar siyasi partiyaların nümayəndələrinin iclasında (qurultayında, konfransında, rəhbər orqanının iclasında) qəbul edilir. Siyasi partiyaların bu səlahiyyətli nümayəndələri partiyaların qurultayında (konfransında, rəhbər orqanının iclasında) müəyyənləşdirilir.

Namizəd və ya namizədlərin irəli sürülməsi barədə siyasi partiyalar blokunun qərarı protokolla rəsmiləşdirilir. Həmin protokolda iclasda (qurultayda, konfransda, rəhbər orqanın iclasında) iştirak etmək üçün qeydə alınmış iştirakçıların sayı, siyasi partiyalar blokunun yaradılması haqqında sazişdə nəzərdə tutulan qərarın qəbul edilməsi üçün lazım olan

iştirakçıların sayı, namizədin irəli sürülməsi barədə qərar və bu qərar üzrə səsvermənin nəticələri və həmçinin qərarın qəbul edildiyi tarix də qeyd olunur. Yeri gəlmişkən qeyd edək ki, siyasi partiyaların bloku bloka daxil olan partiyaların üzvü olmayan şəxsləri namizəd kimi irəli sürə bilərlər.

**Siyasi partiyalar bloku tərəfindən namizəd və ya namizədlər irəli sürülərkən siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi müvafiq dairə seçki komissiyasına namizədin adı ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:**

- Siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların qurultaylarının (konfranslarının, rəhbər orqanının iclasının) namizəd və ya namizədləri irəli sürmək barədə qərarları ilə birlikdə müvafiq iclasların protokolları;
- Siyasi partiyaların blokuna daxil olan siyasi partiya nümayəndələri iclasının (qurultaylarının, konfranslarının) siyasi partiyaların bloku adından namizəd və ya namizədlərin irəli sürülməsi haqqında qərarı və müvafiq iclasın protokolu;
- Siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada və ya notariat qaydasında rəsmiləşdirilmiş vəkalətnamələri (Bu Təlimatın 7, 7 "a", 7 "b"və 7 "c", Qeyddə göstərilmiş Təlimatın 3 "d", 3 "e", 3 "ə" və 3 "f" saylı əlavələri);
- Siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin siyahıları (Bu Təlimatın 5 və 5 "a", Qeyddə göstərilmiş Təlimatın 2 və 2 "a" saylı əlavələri);
- Siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin səlahiyyətli nümayəndə olmağa razılığı barədə yazılı məktubları (Təlimatın 6 və 6 "a" Qeyddə göstərilmiş Təlimatın 1 və 1 "a" saylı əlavələri);
- Bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, əsas

iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), məhkumluğuna, vətəndaşlığına dair və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmaması barədə məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş razılıq ərizəsi (Təlimata 2 saylı əlavə);

- Hər bir namizədin irəli sürülməsi barədə ayrı-ayrılıqda tərtib edilmiş bildiriş (Təlimata 1 saylı əlavə) (bu bildirişin surəti Seçki Məcəlləsinin 226.3-cü maddəsinə uyğun olaraq dairə seçki komissiyası tərəfindən təsdiq edilərək müvafiq səlahiyyətli nümayəndəyə verilir);
- Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə verilir (Təlimata 3 saylı əlavə).

**Qeyd: Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-2 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında" Təlimat**

Müvafiq seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır və namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə namizədliyin müvafiq seçki dairələri üzrə irəli sürülməsinin təsdiqi və ya bundan imtina barədə qərar təqdim edir. Əgər sənədlərdəki səhvlər və pozuntular siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi tərəfindən düzəlişlər edilməsi yolu ilə aradan götürülə bilərsə, müvafiq seçki komissiyası namizədi bu haqda xəbərdar edir, müvafiq düzəlişlər edildikdən sonra namizədin irəli sürülməsini təsdiqləyir.

# Seçici imzalarının toplanması

## İmza toplamaq hüququ olan şəxslər

Seçici imzalarını Azərbaycan Respublikasının 18 yaşına çatmış aktiv seçki hüququ olan vətəndaşı toplaya bilər.

**Qanunvericiliyin bu tələbinə əsasən imza toplayan subyektləri aşağıdakı kimi qruplaşdırmaq olar:**

a) namizədin özü ;

b) seçici imzalarını müqavilə əsasında toplayan şəxslər ;

c) siyasi partiya və siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələri.

Namizəd, siyasi partiya, siyasi partiyaların bloku seçici imzalarını toplayan şəxslə imza toplanması barədə müqavilə bağlaya bilər. Belə işin haqqı yalnız namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondu hesabına ödənilir.

# Qaydalar

İmza toplanması prosesində seçiciləri imzalamağa məcbur etmək, imza atmağa imkan verməmək və ya buna görə onları hər hansı formada mükafatlandırmaq qadağandır. Həmin qadağaya əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu, toplanmış imzaların etibarsız sayılması və namizədin qeydiyyatından, qeydə alınmış namizədlərin qeydiyyatından imtinası üçün əsas ola bilər.

Namizədin müdafiəsi üçün seçici imzaları tədris müəssisələrində, yaşayış yerlərində, eləcə də qanunla seçkiqabağı təşviqat aparılmasının qadağan edilmədiyi digər yerlərdə toplana bilər.

Qanunvericilikdə namizədin müdafiəsi üçün toplanan imzaların konkret həddi də məyyənləşdirilib:

- əhalisinin sayı 99.999-dan çox (100.000-dən 299.999-dək) olan və 19 bələdiyyə üzvünün seçilməsi nəzərdə tutulan ərazidə ən azı – 150 seçici imzası;
- əhalisinin sayı 49.999-dan çox (50.000-dən 99.999-dək) olan və 17 bələdiyyə üzvünün seçilməsi nəzərdə tutulan ərazidə ən azı – 100 seçici imzası;
- əhalisinin sayı 19.999-dan çox (20.000-dən 49.999-dək) olan və 15 bələdiyyə üzvünün seçilməsi nəzərdə tutulan ərazidə ən azı – 75 seçici imzası;
- əhalisinin sayı 9.999-dan çox (10.000-dən 19.999-dək) olan və 13 bələdiyyə üzvünün seçilməsi nəzərdə tutulan ərazidə ən azı – 50 seçici imzası;
- əhalisinin sayı 4.999-dan çox (5.000-dən 9.999-dək) olan və 11 bələdiyyə üzvünün seçilməsi nəzərdə tutulan ərazidə ən azı – 30 seçici imzası;

əhalisinin sayı 4.999-dan az olan və müvafiq olaraq 9, 7 və 5 bələdiyyə üzvünün seçilməsi nəzərdə tutulan ərazilərdə ən azı – 15 seçici imzası.

- İmza toplanması başa çatdıqdan sonra namizədin irəli sürülməsinin təşəbbüsçüləri, namizədin və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələri irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzalarının sayını hesablayır, bu haqda protokol tərtib edir, imzalayır və vərəqələri nömrələyərək digər sənədlərlə birgə müvafiq seçki dairəsinə təqdim edirlər.

# Namizədin qeydə alınması üçün lazım olan seçki sənədləri

*Seçki Məcəlləsinin 58.1-ci maddəsinə əsasən irəli sürülmüş namizədlərin qeydə alınması üçün namizəd və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18.00-dək müvafiq seçki komissiyasına aşağıdakı seçki sənədlərini təqdim etməlidir:*

1. İmza vərəqələri;
2. İmza toplanması haqda yekun protokol (2 nüsxə);
3. Namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumat;
4. Namizədə məxsus əmlak barədə məlumat;
5. Namizədin ilkin maliyyə hesabatı

*Əgər namizəd irəli sürlməsindən sonrakı müddətdə onun haqqında öhdəlik ərizəsindəki məlumatlarda dəyişikliklər olarsa, o zaman təqdim olunan sənədlərə yenilik barədə bildiriş də əlavə olunacaq.*

Təqdim edilən sənədlər sırasının önündə gələn “İmza vərəqələri” dedikdə, əlbəttə ki, irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri nəzərdə tutulur. İkinci sənəd, yəni “İmza toplanması haqda yekun protokol” seçici imzaları toplanmasının yekunu haqqında protokolun 2 nüsxəsi haqdadır. Burada diqqət verilməli məqam odur ki, bu protokol forması məhz MSK-nın müəyyənləşdirdiyi formada tərtib olunmalıdır.

**Növbəti mühüm sənəd, göründüyü kimi, namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumatdır və 5 növ arayışdan ibarətdir.**

a) əsas iş yerindən əmək haqqı barədə arayış;

b) mükafat və maddi yardım haqqında arayış;

c) mülki-hüquqi müqavilələrdən əldə olunan gəlir haqqında arayış;

ç) sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir haqqında arayış;

d) qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir haqqında arayış.

Bu arayışlar gəlirlərin alındığı təşkilatlardan və fiziki şəxslərdən seçkilərin təyin edildiyi gündən əvvəlki bir ili əhatə etməklə həmin gəlirlərin cəmi barədə olmalıdır. Daha aydın olması, həm də təqdim olunan sənədlərin məzmununun düzgün anlaşılması üçün yuxarıda qeyd ediıən arayışların konkret açması aşağıdakı kimidir.

Əsas iş yerindən əmək haqqı dedikdə, vətəndaşlar tərəfindən müəssisələr, idarələr və təşkilatlarla bağlanmış əmək müqavilələrinə (kontraktlara) əsasən konkret ixtisas, dərəcə və vəzifə üzrə işlərin yerinə yetirilməsi, yaxud kooperativdə, kəndli-fermer təsərrüfatında, ictimai və ya dini təşkilatda, vəkillikdə, habelə xidməti və ya tədrislə əlaqədar əmək funksiyasının yerinə yetirilməsinə görə ödənişlər başa düşülür.

Mükafat və maddi yardım dedikdə, il ərzində işin yekununa görə mükafat, xidmət illərinə görə mükafat, birdəfəlik xarakter daşıyan əlavə mükafatların bütün növləri, yubiley, bayram, doğum günləri ilə bağlı və

digər oxşar hallarda verilən həvəsləndirici ödənclər, əmək funksiyalarının yerinə yetirilməsinə görə başqa mükafatlar və bütün növlərdən olan maddi yardımlar başa düşülür.

Mülki-hüquqi müqavilələrdən əldə olunan gəlir dedikdə, vətəndaşların əsas iş yerində əmək haqqı, vəzifə icrası ilə əlaqədar olmayan işləri yerinə yetirməkdən (birdəfəlik yerinə yetirilən və əvəzçilik üzrə işlərdən) əldə etdikləri gəlirlər başa düşülür.

Sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir dedikdə, Azərbaycan Respublikasının mövcud qanunvericiliyi ilə nəzərdə tutulan və qanunla qadağan edilməyən fəaliyyət növlərindən əldə edilmiş gəlirlər (sahibkarlıqla məşğul olan fiziki şəxs tərəfindən ilin yekununa görə vergi orqanlarına təqdim edilmiş bəyannamədə göstərilən gəlir) başa düşülür.

Qeyri sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirə muzdlu işlə əlaqədar və ya sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərdən başqa digər gəlirlər daxildir. O cümlədən:

- banklardan və kredit idarələrindən alınmış faizlər;
- dividendlər;
- müəlliflik haqqı;
- royalti;
- qiymətli kağızlar üzrə əməliyyatlardan əldə edilən gəlir;
- bağışlanmış borcun məbləği;
- əmlakın icarəyə verilməsindən əldə edilən gəlir;
- həyatın yığım sığortası üzrə gəlir;
- ailə üzvü olmayan şəxslərdən alınan hədiyyələr və maddi yardım;
- alınmış miraslar;
- lotoreya uduşları;
- birgə gəlirlər;
- sair gəlirlər (sair gəlirlər dedikdə, yuxarıda sadalanmayan digər gəlirlər nəzərdə tutulur).

Dördüncü sənəd mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumatları özündə əks etdirməklə  Seçki Məcəlləsinin 5 saylı Əlavəsinin forma və məzmununa uyğun olmalıdır.  Bu sənədləri hazırlayarkən əsasən daşınmaz əmlaka, o cümlədən nəqliyyat vasitələrinə diqqət yetirmək məsləhətdir.

**Daşınmaz əmlak:**

a) torpaq sahəsi;

b) yaşayış sahəsi;

c) mənzillər;

ç) bağlar;

d) qaraj və digər bina, tikili və avadanlıq.

**Nəqliyyat vasitələri:**

a) minik avtomobilləri;

b) yük avtomobilləri;

c) digər nəqliyyat vasitələri.

Sonuncu-beşinci sənəd namizədin ilkin maliyyə hesabatıdır. Əgər namizədin müdafiəsi üçün seçici imzaları toplanarkən vəsait sərf olunubsa, o zaman bu xərclər ilkin maliyyə hesabatında göstərilməlidir.

Yuxarıda qeyd edilən sənədlərdə qəsdən buraxılmayan səhvlər aşkar edilərsə, müvafiq seçki komissiyası namizədi 48 saat müddətində məlumatlandırmalı və buraxılan səhvlərin düzəldilməsini təklif etməlidir.

**Qeyd: Seçki komissiyaları seçki sənədlərini qəbul edərkən imza vərəqələri olan hər bir qovluğu möhürü ilə təsdiqləyir, onların qəbul edilmə tarixini və vaxtını qeyd edərək, namizədə və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə qəbul edilmiş imza vərəqələrinin və oradakı imzaların sayını göstərməklə sənədlərin qəbulu barədə yazılı arayış verir.**

# Namizədlərin qeydiyyatı

*Bələdiyyə seckilərində bələdiyyə üzvlüyünə namizədin dairə seçki komissiyası tərəfindən qeydə alınması Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58-ci, 60-cı və 216-cı maddələri ilə tənzimlənir.*

İmza vərəqələri yoxlanılarkən müvafiq seçki komissiyası namizədləri, onların səlahiyyətli nümayəndələrini, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrini  Seçki Məcəlləsinin 59.3-cü maddəsinin tələbinə uyğun olaraq məlumatlandırmaqla, onların komissiyada iştirakını təmin edə bilər.

İmza vərəqələri müvafiq seçki komissiysına təqdim edilənədək namizədi irəli sürənlərin imza vərəqələrində pozduqları imzalar o şərtlə yoxlanılmır və nəzərə alınmır ki, imza toplayanlar tərəfindən vərəqələrdə bu pozulmalar haqqında əvvəlcədən müvafiq qeydlər aparılmış olsun.

**İmza vərəqələri yoxlanılarkən eyni adamın bir neçə imzası aşkar edilərsə, yalnız bir imza etibarlı, digər imzalar isə qeyri-düzgün sayılır. Bunlarla yanaşı, aşağıdakılar qeyri-düzgün imzalar hesab edilir:**

- müvafiq icra hakimiyyəti orqanının arayışı, yaxud seçki komissiyasının işinə cəlb edilmiş ekspertin rəyi əsasında seçki hüququ olmayan və məlumatları qeyri-düzgün göstərən seçicilərin imzaları;
- namizəd irəli sürülməsi haqqında müvafiq seçki komissiyasına bildiriş göndərilənədək imza vərəqələrinə daxil edilmiş seçici imzaları;
- müxtəlif şəxslərin adından bir şəxs tərəfindən və ya bir şəxsin adından müxtəlif şəxslər tərəfindən qoyulmuş imzalar;
- imza vərəqəsinə əl yazısı ilə qoyulmayan və ya karandaşla qoyulan imzalar.
- İmza vərəqələrində seçici imzalarının qoyulması tarixində düzəliş edildikdə, bu imzalar o şərtlə düzgün sayılır ki, imza vərəqəsini təsdiq edən şəxslər həmin düzəlişləri təsdiqləmiş olsunlar.

**Qeyd: İmza vərəqələri imza toplayan şəxsin, habelə namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinin əl yazısı qaydasında imzası ilə təsdiq edilməyibsə və ya səlahiyyətli nümayəndənin imzası qeyri-düzgündürsə, imza vərəqələrində olan bütün imzalar etibarsız sayılır.**

Müvafiq seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər sənədləri qəbul etdikdən sonra 7 gün müddətində qanunvericilikdə nəzərdə tutulmuş qaydada sənədlərlə iş aparmalı və məlumatları yoxlayaraq namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməlidir. Qərarda namizədin kim tərəfindən irəli sürülməsi, qeydə alınmanın və ya qeydiyyatdan imtinanın əsasları, qərarın qəbul edilmə vaxtı və tarixi göstərilməlidir.

Namizədin qeydə alınması barədə qərarın surəti dairə seçki komissiyası tərəfindən həmin qərarın qəbul edildiyi gündən etibarən 1 gün müddətində namizədə, namizədi irəli sürmüş siyasi partiyanın və ya siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə verilməlidir.

Qeydə alınmış hər bir namizədə dairə seçki komissiyası tərəfindən qeydiyyat vəsiqəsi verilir. Qeydə alınmış bələdiyyə üzvlüyünə namizədlər barədə məlumatlar qeydiyyatdan sonra 24 saat müddətində kütləvi informasiya vasitələrinə təqdim edilir.

**Qeyd: Qeydə alınmış bələdiyyə üzvlüyünə namizədlərin siyahısı səsvermə gününə azı 20 gün qalmış müvafiq dairə seçki komissiyası tərəfindən müvafiq dövri nəşrlərdə dərc edilir.**

# Qeydə alınmış bələdiyyə üzvlüyünə namizədlərin hüquq və vəzifələri, məhdudiyyətlər

## Hüquqlar:

- dövlət vəzifələrində olan qeydə alınmış namizədlərin yalnız öz vəzifələrini icra etməkdən azad olunduğu vaxtda seçki-qabağı təşviqat aparmaq hüququ vardır;
- qeydə alınmış namizədin işlədiyi, qulluq etdiyi, oxuduğu, dövlət orqanının, təşkilatının müdiriyyəti, hərbi hissənin komandiri dairə seçki komissiyasında namizədin qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək ərizəsində və ya raportunda göstərilən müddət üçün onu işdən, tədrisdən, xidmətdən ödənilməyən məzuniyyət verilməsi əsasında istənilən gün və vaxt azad etməlidir;
- dairə seçki komissiyasında namizədin qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək qeydə alınmış namizəd dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının onların vəzifəli şəxslərinin təşəbbüsü ilə işdən, xidmətdən, təhsil müəssisəsindən çıxarıla və ya öz razılığı olmadan başqa işə, başqa yerdə işləməyə keçirilə bilməz, habelə ezamiyyətə göndərilə bilməz;
- seçki kampaniyası dövründə müvafiq prokurorun razılığı olmadan, namizəd kimi qeydə alındıqdan sonra törətdiyi əməllərə görə cinayət məsuliyyətinə cəlb edilə bilməz və məhkəmə qaydasında müəyyənləşdirilən inzibati tənbeh tədbirlərinə məruz qala bilməz;
- qeydə alınmış namizəd müvafiq dairə seçki komissiyasından hüdudları, ünvanı və telefonları göstərilməklə seçki məntəqələrinin, məntəqə seçki komissiyalarının siyahısını və səsvermə yerlərinin ünvanlarını ala bilər;

- qeydə alınmış namizəd dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının seçki komissiyasının hərəkəti (hərəkətsizliyi) nəticəsində ona dəymiş zərərin ödənilməsi məqsədilə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq məhkəməyə müraciət edə bilər;
- qeydə alınmış namizədin 3-ə qədər vəkil edilmiş şəxs təyin etmək hüququ vardır;
- bələdiyyə seçkiləri zamanı Mərkəzi Seçki Komissiyasının tərkibinə bələdiyyələrin yarısından çoxunda namizədlər irəli sürən, dairə seçki komissiyasının tərkibinə isə dairənin ərazisindən bələdiyyələrin yarısından çoxunda namizədlər irəli sürən siyasi partiyalar, siyasi partiyaların blokları bir məşvərətçi səs hüquqlu üzv təyin edə bilərlər.

## Vəzifələr:

- mətbuat azadlığına hörmət bəsləmək;
- öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, siyasi partiyaların (siyasi partiyalar bloklarının) seçki kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;
- seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmamaq;
- seçkiqabağı təşviqat plakatlarını və digər bu cür təşviqat materillarını məhv etməmək və korlamamaq;
- seçkiqabağı kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;
- seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları ilə və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək;
- seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək;
- səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək və onlarla əməkdaşlıq etmək;
- səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstər-

- mək;

  seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməmək;
- seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək,
- səslərin verilməsi və ya səslərin hesablanması prosesini pozmamaq;
- seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etmək;
- hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materiallar yaymamaq;
- seçicilərə mükafat təklif etməmək, onları cəza ilə hədələməmək;
- dövlət resurslarından, bələdiyyə və digər ictimai resurslardan Seçki Məcəlləsi ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək;
- təzyiq göstərməklə və ya bəxşiş təklif etməklə, yaxud digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkinməyə sövq etməmək;
- təzyiq göstərməklə və ya bəxşiş təklif etməklə, yaxud digər qanunazidd üsullarla seçiciləri referendum üzrə təşviqat qruplarında iştirak etməyə və ya iştirak etməməyə, öz namizədliklərini irəli sürməyə və ya irəli sürməməyə, namizədliklərini geri götürməyə və ya götürməməyə, seçkiqabağı təşviqatda iştirak etməyə və ya etməməyə məcbur etməmək;
- heç bir vəzifəli şəxsin namizədin dəstəklənməsinə və ya dəstəklənməməsinə yönəldilən köməyindən və ya fəaliyyətindən istifadə etməmək;
- qeydə alınmış digər namizədlərin seçki kampaniyası zamanı öz siyasi ideyalarını və baxışlarını azad və sərbəst yaymaq hüququna hörmət bəsləmək;
- qeydə alınmış digər namizədlərin, siyasi partiyaların, seçicilərin və ictimai təşkilatların hüquqlarına hörmət bəsləmək;
- seçicilərlə azad ünsiyyətin yaradılmasında qeydə alınmış digər namizədlərə mane olmamaq.

## Qadağalar:

- qeydə alınmış namizədlərin, namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının seçkiqabağı proqramlarında, yığıncaqlarda, kütləvi informasiya vasitələrində yayılan təşviqat materiallarında və çıxışlarda hakimiyyətin zorla ələ ke-çirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar, vətəndaşların şərəf və ləyaqətini təhqir edən mülahizələr olmamalıdır;
- seçkiqabağı təşviqat aparılarkən kütləvi informasiya vasitələrindən sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan təşviqat formasında sui-istifadə qadağandır;
- əqli mülkiyyət haqqında qanunvericiliyi pozan təşviqat qadağandır;
- seçkiqabağı təşviqatın aparılmasının Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydalarını pozduqda müvafiq seçki komissiyası təqsirli şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi üçün müvafiq tədbirlər görür. Seçki komissiyasının müvafiq qərarı kütləvi informasiya vasitələrində dərc olunur;
- dövlət vəzifələrində olan qeydə alınmış namizədlər öz vəzifə mövqelərindən üstünlük əldə etmək üçün istifadə edə bilməzlər;
- vəzifəli şəxslər, teleradio verilişləri və kütləvi informasiya vasitələri redaksiyalarında işləyən jurnalistlər və yaradıcı işçilər qeydə alınmış namizəddirlərsə, onlara seçkilərin gedişinin kütləvi informasiya vasitələri ilə işıqlandırılmasında iştirak etmək qadağan edilir;
- göstərilən şəxslərin və təşkilatların fiziki və hüquqi şəxslərə, seçicilərə maddi və maliyyə, yaxud digər xidmətlər göstərmək təklifi ilə müraciət etməsi qadağandır;
- namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupları üzvlərinin, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin adından və onların müdafiəsi üçün fiziki və hüquqi şəxslərin xeyriyyə fəaliyyəti ilə məşğul olması qadağandır.

# Bələdiyyə üzvünün hüquqları və vəzifələri



*Bələdiyyə üzvü – bələdiyyə seçkilərində seçilmiş, mandatı dairə seçki komissiyası tərəfindən təsdiq edilmiş şəxsdir. Ərazi seçki komissiyası tərəfindən bələdiyyə üzvünə seçkilərin yekunları elan olunduqdan sonra 5 gün müddətində Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilmiş nümunədə vəsiqə verilir.*

Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir. Müddətin hesablanması səsvermənin keçirildiyi gündən başlanır və yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır. Bələdiyyə üzvlərinin səlahiyyəti yalnız ölkə üzrə seçkilərdə formalaşmış bələdiyyənin səlahiyyət müddətində qüvvədədir.

Seçkilərin yekunlarına əsasən bələdiyyə üzvü seçilmiş şəxsləri “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununun 19-cu maddəsinə uyğun olaraq ilk bələdiyyə iclasına dəvət olunurlar. Həmin iclasın birinci məsələsi təşkilati əhəmiyyətli olaraq bələdiyyə sədrinin, sədr müavinin və ya müavinlərinin seçilməsi məsələsi olur. Bələdiyyənin sədri yeni seçilmiş bələdiyyənin birinci iclasında üzvlər sırasından açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyənin sədri bələdiyyə

üzvlərinin yarısından çoxunun  səsini topladıqda seçilmiş hesab olunur.

Bələdiyyə sədrinin müavinləri də bələdiyyə üzvlərinin yarıdan çoxunun səsini topladıqda seçilmiş hesab olunurlar. Belədliklə yeni tərkib bələdiyyənin rəhbərliyinin seçilməsindən sonra digər strukturların da formalaşmasını və dəyişikliklərin edilməsini həyata keçirə bilər.

**Qeyd: Yerli üzünüidarəetmədə fəal iştirakınız və seçicilərə verdiyiniz vədlərə əməl etmək üçün Sizlər bələdiyyənin rəhbərliyində daimi və başqa komissiyalarında, digər strukturlarında təmsil olunmalısınız. Bu məqsədə çatmaq üçün ilk növbədə hüquq və vəzifələrinizi yaxşı bilməli və gündəlik fəaliyyətinizdə səmərəli istifadə etməlisiniz.**

Bələdiyyə üzvünün statusu, onların hüquqları, səlahiyyətləri, vəzifələri və hüquqi vəziyyəti ilə bağlı münasibətlər Azərbaycan Respublikasının Konstitusiyası, “Bələdiyyələrin statusu haqqında”, “Bələdiyyə üzvünün statusu haqqında” və  Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında Azərbaycan Respublikasının Qanunları, Azərbaycan Respublikasının digər qanunvericilik aktları, habelə bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir.

## Bələdiyyə üzvünün hüquqları

**Bələdiyyə üzvü bələdiyyənin fəaliyyəti ilə bağlı aşağıdakı hüquqlara malikdir:**

- bələdiyyənin daimi və digər komissiyalarına üzvü seçmək və seçilmək;
- bələdiyyənin və onun orqanlarının iclaslarında müzakirə üçün məsələlər təklif etmək, müzakirə olunan məsələlər barəsində çıxış etmək, təkliflər və düzəlişlər vermək, qeydlər etmək, çıxış edənlərə və ya təyin edilməsinə razılıq verilən vəzifələrlə göstərilmiş namizədlərə sual vermək, arayış vermək, səsvermədə iştirak etmək;

- bələdiyyənin iclaslarında müzakirə üçün qərar layihələrini hazırlamaq;
- bələdiyyənin daimi və başqa komissiyalarının iclaslarına təqdim edilmiş məsələlərin müzakirəsində iştirak etmək və təkliflər vermək;
- bələdiyyənin fəaliyyəti ilə əlaqədar zəruri məlumat almaq;
- sorğu vermək;
- qanunvericiliyə müvafiq surətdə yerli radio və televiziyadan, mətbu nəşrlərdən istifadə etmək.

## Bələdiyyə üzvünün sorğusu

*Bələdiyyə üzvü yerli məsələlərlə bağlı aşağıdakı subyektlərə sorğu ilə müraciət etmək hüququna malikdir:*

- bələdiyyənin vəzifəli şəxslərinə;
- bələdiyyənin icra orqanlarına;
- bələdiyyə müəssisə, idarə və təşkilatlarına.

Bələdiyyə üzvünün sorğusuna ən geci on beş gün müddətində, məsələnin əlavə öyrənilməsi və (və ya) yoxlanılması tələb edildiyi hallarda isə bir aydan gec olmayaraq cavab verilməlidir.

## Bələdiyyə üzvünün bələdiyyə qərarlarının pozulması hallarının aradan qaldırılmasını tələb etmək hüququ

Bələdiyyə üzvü bələdiyyə tərəfindən onun səlahiyyətləri daxilində və qanunvericiliyə müvafiq olaraq qəbul etdiyi qərarlarının pozulmasını aşkar etdikdə onun ərazisində yerləşən həmin pozuntulara yol vermiş şəxslərdən onların aradan qaldırılmasını tələb edə bilər.

## Bələdiyyə üzvünün vəzifələri

*Bələdiyyə üzvlərinin üzərinə düşən əsas vəzifələr aşağıdakılardan ibarətdir:*

- Bələdiyyə üzvləri bələdiyyənin iclaslarında iştirak etməyə borcludurlar;
- Bələdiyyə üzvü seçicilərlə mütəmadi olaraq əlaqə saxlamalıdır
- Bələdiyyə üzvü seçicilərlə görüşlər keçirməlidir;
- Bələdiyyə üzvü seçicilərin təkliflərinə baxmalıdır;
- Bələdiyyə üzvü seçicilərin müraciətlərinə baxmalıdır;
- Bələdiyyə üzvü seçicilərin şikayətlərinə baxmalıdır;
- Bələdiyyə üzvü 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verməlidir;

## Bələdiyyələrin iclaslarında aşağıdakı məsələlər həll edilir:

1. bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;
2. bələdiyyənin reqlamentinin təsdiq edilməsi;
3. bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi;
4. yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;
5. yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi;
6. bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;
7. yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi;

8 yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi;

9 yerli ekoloji proqramların qəbul və icra edilməsi.

Bələdiyyə öz fəaliyyətini iclaslar, daimi və başqa komissiyalar vasitəsi ilə həyata keçirdiyindən bələdiyyə üzvü bələdiyyənin iclaslarında iştirak etməyə borclu olduğu kimi o bələdiyyənin daimi komissiyalarında da təmsil olunmalıdır. Bələdiyyə üzvü bələdiyyənin bir və ya bir neçə daimi və başqa komissiyasının üzvü kimi fəaliyyət göstərə bilər.

## Bələdiyyənin daimi və başqa komissiyaları

*Bələdiyyə öz səlahiyyətinə aid məsələlərin qabaqcadan nəzərdən keçirilməsi və qərar layihələrinin hazırlanması üçün, habelə bələdiyyənin qərarlarının həyata keçirilməsinə yardım göstərilməsi, bələdiyyənin tabeliyində olan müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarət üçün daimi və başqa komissiyalar yarada bilər.*
*Daimi və başqa komissiyalar səlahiyyətləri daxilində fəaliyyətlərinin təşkili məqsədilə öz işinə ekspertlər cəlb edə bilər.*
*Daimi və başqa komissiyalar yaradılarkən yerli əhəmiyyətli məsələlər nəzərə alınır və onlar 'Bələdiyyənin daimi və başqa komissiyaları haqqında" əsasnamə, bələdiyyənin nizamnaməsi əsasında fəaliyyət göstərir.*

**Bələdiyyənin daimi və başqa komissiyalarının əsas vəzifələri aşağıdakılardan ibarətdir:**

- yerli əhəmiyyətli sosial müdafiə və sosial inkişaf, ekologiya, iqtisadi inkişaf, yerli xidmət üzrə proqramlar hazırlayıb, bələdiyyənin iclasına və ya bələdiyyənin qərarına əsasən yerli əhalinin müzakirəsinə çıxarmaq;
- yerli əhəmiyyətli məsələləri müzakirə etmək, bələdiyyə iclaslarında müzakirə üçün proqramlar, arayışlar, qərar layihələri və başqa materiallar hazırlamaq;

- bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlamaq;
- seçicilərin tapşırıqlarının yerinə yetirilməsinin təşkilinə və yoxlanılmasına kömək etmək.

## Daimi və başqa komissiyalar onları seçmiş bələdiyyə qarşısında məsuliyyət daşıyır və ona hesabat verir.

Bələdiyyə üzvü bələdiyyədəki fəaliyyətini daimi və ictimai əsaslarla icra edə bilər. Öz səlahiyyətlərini daimi əsasla icra edən bələdiyyə üzvü - bələdiyyə büdcəsi hesabına aylıq əmək haqqı alan və əsas iş yeri bələdiyyə hesab edilən bələdiyyə üzvüdür. Elmi, yaradıcılıq və pedaqoji fəaliyyət istisna olmaqla, öz səlahiyyətlərini daimi əsasla icra edən bələdiyyə üzvü əsas iş yeri üzrə başqa yerdə işləyə bilməz.

Əmək haqqı bələdiyyə tərəfindən ödənilməyən bələdiyyə üzvü öz səlahiyyətini həyata keçirərkən istehsal və ya xidmət fəaliyyətini dayandırmır. Bələdiyyə üzvü bələdiyyənin və tərkibinə seçildiyi daimi komissiyanın iclasları zamanı daimi iş yerində orta əmək haqqı saxlanılmaqla öz istehsal və ya xidmət vəzifəsini yerinə yetirməkdən azad edilir.

Bələdiyyə üzvü bələdiyyə qulluqçusu kimi fəaliyyət göstərə bilməz. Bələdiyyə qulluqçusu bələdiyyə üzvü seçildikdə, 3 gün müddətində öz ərizəsinə əsasən bələdiyyə qulluğundan azad edilir.

Başqa əsas iş yeri olan bələdiyyə üzvü (sədr və onun müavinləri daxil olmaqla) öz səlahiyyətlərini daimi əsasla icra etmək və əmək haqqını bələdiyyədən almaq üçün bələdiyyəyə yazılı müraciət edir.

Bələdiyyə sədri  müraciət etmiş bələdiyyə üzvünün öz səlahiyyətlərini daimi əsasla icra etməsinə bələdiyyəyə ehtiyac olduqda, 5 gün müddətində bu barədə bələdiyyə üzvünün əsas iş yeri üzrə işəgötürənə yazılı bildiriş göndərir.

Bələdiyyə üzvünün əsas iş yeri üzrə işəgötürən bu maddənin qeyd olunan bildirişi aldığı tarixdən 5 gün müddətində əmək qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada müvafiq bələdiyyə üzvü ilə əmək müqaviləsinə xitam verir və bu barədə bələdiyyəyə yazılı məlumat verir.

## Bələdiyyə üzvünün bələdiyyədə fəaliyyəti ilə əlaqədar məsuliyyəti

Bələdiyyə üzvü barəsində bələdiyyədə fəaliyyəti ilə əlaqədar aşağıdakı hallarda intizam tədbirləri tətbiq edilir:

- bələdiyyənin iclaslarının aparılmasına mane olduqda;
- bələdiyyənin və onun komissiyalarının iclaslarında insanın şərəf və ləyaqətinə xələl gətirən kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verdikdə, başqalarını bu cür hərəkətlər etməyə çağırdıqda;
- bələdiyyənin nizamnaməsində göstərilən müddətlərdə bələdiyyənin və onun daimi və başqa komissiyalarının iclaslarında üzürsüz səbəbə görə iştirak etmədikdə;
- Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində müəyyən edilmiş tələblərə əməl etmədikdə və ya həmin Qanunun 9-cu maddəsində göstərilən hüquqpozmaları törətdikdə (onlar inzibati və ya cinayət məsuliyyəti yaratmadıqda).

Bələdiyyə üzvünün səlahiyyətlərinin maneəsiz və səmərəli həyata keçirilməsinə, onun hüquqlarının, şərəf və ləyaqətinin qorunmasına dövlət tərəfindən təminat verilir. Bununla belə bələdiyyə üzvü qanunla müəyyən edilmiş etik davranış qaydalarına əməl etmədikdə, bələdiyyə üzvü kimi üzərinə düşən vəzifə və funksiyalarını lazımi səviyyədə həyata keçirmədikdə ona qarşı aşağıda göstərilən intizam tədbirləri tətbiq edilə bilər:

- xəbərdarlıq;
- söz kəsmə;
- iclas zalından çıxarma;
- töhmət;
- bələdiyyə üzvünün səlahiyyətlərinə xitam verilməsi.

Bələdiyyə üzvü etik davranışı və peşəkar fəaliyyəti ilə yerli özünüidarə orqanlarına inamı artırmalı və möhkəmləndirməli, seçkiqabağı kompaniya zamanı seçicilərinə verdiyi vədləri reallaşdırmağa çalışmalıdır. O yerli problemlərin həlli istiqamətində öz fəaliyyətini qanunla müəyyən olunmuş səlahiyyətlər çərçivəsində peşəkarlıqla həyata keçirməyə və yerli özünüidarə orqanının fəaliyyətində fəal iştirak etməyə borcludur.

Bələdiyyə üzvü seçicilərinin, cəmiyyətin, bələdiyyənin və dövlətin maraqları uğrunda öz vəzifələrini səmərəli yerinə yetirməli, vəzifələrin icrasına uyğun olmayan və onun adına xələl gətirə biləcək, habelə yerli özünüidarə orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. Onların fəaliyyəti insan hüquq və azadlıqlarının, vətəndaşların qanuni maraqlarının təmin olunmasına (qorunmasına) xidmət etməli, onların şərəf və ləyaqətini, işgüzar nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə (hərəkətsizliyə) yol verməməlidir.

# Azərbaycan Respublikasının Konstitusiyası

## Maddə 3. Ümumxalq səsverməsi-referendum yolu ilə həll edilən məsələlər

1. Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər.

II. Aşağıdakı məsələlər yalnız referendumla həll oluna bilər:

1. Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi;
2. Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi.

III. Aşağıdakı məsələlər üzrə referendum keçirilə bilməz:

1. vergilər və dövlət büdcəsi;
2. amnistiya və əfv etmə;
3. seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi.

## Maddə 13. Mülkiyyət

I. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

II. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

III. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz.

## Maddə 25. Bərabərlik hüququ

I. Hamı qanun və məhkəmə qarşısında bərabərdir.

II. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.

III. Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

IV. Heç kəsə bu maddənin III hissəsində göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz.

V. Hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir.

VI. Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.

## Maddə 54. Cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ

I. Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyəti və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ vardır.

II. Dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə müstəqil müqavimət göstərmək Azərbaycan Respublikasının hər bir vətəndaşının hüququdur.

## Maddə 55. Dövlətin idarə olunmasında iştirak etmək hüququ

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsi ilə həyata keçirə bilərlər.

II. Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər.

## Maddə 56. Seçki hüququ

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

II. Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak etmək hüququ yoxdur.

III. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçilmək hüququ qanunla məhdudlaşdırıla bilər.

## Maddə 142. Yerlərdə özünüidarənin təşkili

I. Yerli özünüidarəni bələdiyyələr həyata keçirir.

II. Bələdiyyələr seçkilər əsasında yaradılır.

III. Bələdiyyələrin statusunun əsasları bu Konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir.

## Maddə 143. Bələdiyyələrin işinin təşkili

I. Bələdiyyə öz fəaliyyətini iclaslar, daimi və başqa komissiyalar vasitəsi ilə həyata keçirir.

II. Bələdiyyənin iclaslarını bələdiyyənin sədri çağırır.

## Maddə 144. Bələdiyyələrin səlahiyyətləri

I. Bələdiyyələrin iclaslarında aşağıdakı məsələlər həll edilir:

1) bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;

2) bələdiyyənin reqlamentinin təsdiq edilməsi;

3) bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi;

4) yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;

5) yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi;

6) bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;

7) yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi;

8) yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi;

9) yerli ekoloji proqramların qəbul və icra edilməsi.

II. Bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər . Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

## Maddə 145. Bələdiyyələrin qərarları

I. Bələdiyyənin iclaslarında baxılan məsələlərə dair qərarlar qəbul edilir.

II. Bələdiyyənin qərarları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

III. Yerli vergilər və ödənişlər ilə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

## Maddə 146. Bələdiyyələrin müstəqilliyinin təminatı

I. Bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər, bu isə bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında onların məsuliyyətini istisna etmir. Bələdiyyə üzvlərinin seçilməsi, səlahiyyətlərinin dayandırılması və ya səlahiyyətlərinə xitam verilməsi, bələdiyyələrin vaxtından əvvəl buraxılması halları və qaydası qanunla müəyyən edilir.

II. Bələdiyyələrin öz səlahiyyətlərini müstəqil həyata keçirməsi Azərbaycan dövlətinin suverenliyinə xələl gətirə bilməz.

III. Dövlət bələdiyyələrin fəaliyyətinə nəzarət edir.

IV. Qanunla müəyyən edilmiş hallarda və qaydada bələdiyyələr öz

fəaliyyətləri barəsində Azərbaycan Respublikasının Milli Məclisinə hesabat təqdim edirlər.

V. Bələdiyyələrin məhkəmə tərəfindən müdafiəsinə, dövlət orqanlarının qərarları nəticəsində yaranan əlavə xərclərinin ödənilməsinə təminat verilir.

## Maddə 1461. Bələdiyyələrin məsuliyyəti

Bələdiyyələr, bələdiyyə qulluqçuları ilə birlikdə, bələdiyyə qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyırlar.

## Maddə 150. Bələdiyyə aktları

I. Bələdiyyələrin qəbul etdikləri aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalı, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) zidd olmamalıdır.

II. Bələdiyyələrin qəbul etdiyi aktın icrası onun ərazisində yaşayan vətəndaşlar və onun ərazisində yerləşən hüquqi şəxslər üçün məcburidir.

# Azərbaycan Respublikasının Seçki Məcəlləsi

## Maddə 1. Bu Məcəllədə istifadə edilən əsas anlayışlar

1.1. Bu Məcəllədə aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.1.1. referendum — Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilən məsələlər üzrə Azərbaycan Respublikası vətəndaşlarının səsverməsi;

1.1.2. seçkilər — Azərbaycan Respublikasının Konstitusiyası və bu Məcəllə əsasında keçirilən Azərbaycan Respublikası Milli Məclisi deputatlarının, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikasında bələdiyyə üzvlərinin seçkiləri;

1.1.3. seçici — seçki hüququna malik şəxs;

1.1.4. seçki (referendum) komissiyası — bu Məcəllə ilə nəzərdə tutulan qaydada formalaşdırılan və seçkilərin (referendumun) keçirilməsini təşkil edən və təmin edən kollegial orqan;

1.1.5. seçki dairəsi — qeydə alınmış seçicilərin hər hansı seçkili orqana nümayəndə (nümayəndələr) seçməsi üçün bu Məcəlləyə uyğun olaraq təşkil edilmiş ərazi vahidi;

1.1.6. vətəndaş — aktiv seçki hüququ olan Azərbaycan Respublikası vətəndaşları, bu Məcəllənin 12.2-ci və 12.3-cü maddələrində göstərilən şəxslər;

1.1.7. namizəd — Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Respublikasının Prezidenti, bələdiyyələrə üzv seçilmək üçün bu Məcəlləyə uyğun olaraq namizədliyi irəli sürülmüş şəxs;

1.1.8. seçki hüququ — Azərbaycan Respublikası Milli Məclisinin deputatlarını, Azərbaycan Respublikasının Prezidentini, bələdiyyələrə üzvləri seçmək və həmin orqanlara, Azərbaycan Respublikasının Prezidenti və-

zifəsinə seçilmək hüququ, o cümlədən namizədlərin irəli sürülməsində, seçkiqabağı (referendumqabağı) təşviqatda, seçki (referendum) komissiyalarının işində, seçkilərin (referendumun) keçirilməsinin müşahidəsində (seçkilərin (referendumun) nəticələrinin müəyyən edilməsi də daxil olmaqla), səsvermədə, digər seçki (referendum) hərəkətlərinin həyata keçirilməsində iştirak etmək;

1.1.9. seçici siyahıları — müvafiq seçki (referendum) dairəsinin seçki (referendum) məntəqəsi ərazisində yaşayan və seçki hüququna malik olan Azərbaycan Respublikası vətəndaşlarının siyahıları;

1.1.10. imza vərəqələri — bu və ya digər namizədin seçkilər zamanı dəstəklənməsinə yönəldilən və ya referendumqabağı təşviqatda iştirak məqsədi ilə referendum üzrə təşviqat qrupunda üzvlük haqqında seçicilərin imzaları olan siyahılar;

1.1.11. təşviqat materialları — seçki (referendum) kampaniyası zamanı dərc edilməsi və ya digər üsullarla yayılması nəzərdə tutulan seçkiqabağı (referendumqabağı) təşviqata həsr edilmiş çap, audiovizual və digər materiallar;

1.1.12. referendumqabağı təşviqat — vətəndaşların, referendum üzrə təşviqat qruplarının referendumda iştirak etmək hüququ olan vətəndaşları referendumda iştirak etməyə, referenduma çıxarılan məsələləri dəstəkləməyə və ya dəstəkləməməyə çağıran və ya çağırmaq məqsədi daşıyan fəaliyyəti;

1.1.13. seçkiqabağı təşviqat — vətəndaşların və siyasi partiyaların seçiciləri seçkilərdə iştiraka, bu və ya digər namizədlərin lehinə səs verməyə (səs verməməyə) çağıran və ya çağırmaq məqsədi daşıyan fəaliyyəti;

1.1.14. namizədlərin irəli sürülməsi — Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasında bələdiyyə üzvü vəzifəsinə seçilməsi nəzərdə tutulan şəxslərin müəyyən edilməsinə dair təşəbbüs, həmçinin bu təşəbbüsün dəstəklənməsinə yönəldilmiş imzaların toplanması və ya bu Məcəllə ilə nəzərdə tutulmuş qaydada göstərilən təşəbbüsün digər üsullarla həyata keçirilmə formaları;

1.1.15. qeydə alınmış namizəd — Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Respublikasının Prezidenti, bələdiyyələrə üzv seçilmək üçün bu Məcəlləyə uyğun olaraq qeydə alınmış şəxs;

1.1.16. referendum üzrə təşviqat qrupunun yaradılmasının təşəbbüsçüləri — referendum üzrə təşviqat qrupunun yaradılması üçün təşəbbüs göstərən və həmin qrupun yaradılması üçün müvafiq seçki komissiyasına təqdim edilməli olan bildirişi imzalayan Azərbaycan Respublikasının vətəndaşları;

1.1.17. referendum üzrə təşviqat qrupunun üzvləri — referendum üzrə təşviqat qrupunun qeydə alınması üçün zəruri olan imza vərəqələrində imza edən Azərbaycan Respublikasının vətəndaşları;

1.1.18. müşahidə — məlumatların yığılması və onların qiymətləndirilməsi əsasında ekspert rəyinin hazırlanması;

1.1.19. müşahidəçi — seçkilərin (referendumun) keçirilməsi zamanı seçkiləri (referendumu) müşahidə etmək üçün siyasi partiyalar, qeyri-hökumət təşkilatları, referendum üzrə təşviqat qrupları, namizədlər tərəfindən təyin edilən və bu Məcəllə ilə nəzərdə tutulmuş qaydada müvafiq seçki (referendum) komissiyasında qeydə alınmış şəxs;

1.1.20. beynəlxalq (xarici) müşahidəçi — seçkiləri (referendumu) müşahidə etmək hüququnu almış və xarici dövləti, xarici və ya beynəlxalq təşkilatı təmsil edən şəxs;

1.1.21. seçki (referendum) hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququ olan şəxslər — müşahidəçilər, beynəlxalq (xarici) müşahidəçilər, vəkil edilmiş şəxslər, səlahiyyətli nümayəndələr, kütləvi informasiya vasitələrinin nümayəndələri;

1.1.22. siyasi partiyalar bloku — seçkilərdə birgə iştirak etmək üçün iki və ya daha çox siyasi partiyanın yaratdığı və seçkilər zamanı siyasi partiyalarla eyni hüquqa malik olan blok;

1.1.23. seçki (referendum) kampaniyası — seçkilərin (referendumun) təyin edilməsi haqqında səlahiyyətli dövlət orqanının qərarının dərc edildiyi gündən seçkilərin (referendumun) nəticələrinin dərcinə qədər çəkən

müddətdə həyata keçirilən seçki (referendum) hərəkətləri;

1.1.24. seçki (referendum) şikayəti — seçkilərlə (referendumla) əlaqədar sənədlərin, qərarların, hərəkətlərin (hərəkətsizliyin) nəticələrinin ləğv edilməsinə və ya bu nəticələrə yenidən baxılmasına yönəldilmiş müraciət;

1.1.25. şəxsiyyəti təsdiq edən sənəd — şəxsiyyət vəsiqəsi və ya vətəndaşın adını, atasının adını, soyadını, doğum tarixini, yaşayış ünvanını əks etdirən və həmçinin vətəndaşın fotoşəkli olan rəsmi sənəd (bu cür sənədlərin siyahısı Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edilir);

1.1.26. tabelik — rəhbər ilə tabelikdə olan arasında xidməti münasibətlər, o cümlədən birincinin ikinci üzərində sərəncamçı səlahiyyətlərinin olması nəzərdə tutulur, yəni birinci öz vəzifə səlahiyyətləri daxilində ikincini işə qəbul etmək, işdən azad etmək, ona icrası məcburi olan əmr, sərəncam və göstərişlər vermək, onu mükafatlandırmaq və onun barəsində intizam tədbirləri görmək hüququna malik olmalıdır;

1.1.27. dərc — seçki komissiyalarının və seçkilərin (referendumun) keçirilməsində iştirak edən digər dövlət orqanlarının seçkilərlə (referendumla) bağlı qərarlarının məlumat lövhələrində yerləşdirilməsi yolu ilə, rəsmi çap, televiziya, radio və ya hamının həmin qərarlarla tanış olmasını mümkün edən digər üsullarla əhalinin nəzərinə çatdırılması və ya elan edilməsi;

1.1.28. uzaq və ya yolu çətin yerlər — dağlıq ərazidə yerləşən və təbii şəraitlə bağlı ictimai nəqliyyat ilə ən yaxın seçki məntəqəsinə çatmaq üçün 1 saatdan artıq vaxt tələb olunan yaşayış məntəqələri.

1.1.29. səsvermənin nəticələri - məntəqə seçki komissiyasında seçkilər (referendum) zamanı səslərin hesablanmasının nəticələri; dairə seçki komissiyasında referendum və Prezident seçkiləri zamanı səslərin hesablanmasının nəticələri;

1.1.30. seçkilərin (referendumun) nəticələri - dairə seçki komissiyası tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının seçkiləri və bələdiyyə seçkiləri zamanı müəyyən edilmiş səsvermənin

nəticələri;

1.1.31. seçkilərin (referendumun) yekunları - seçkilər zamanı Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Prezident, bələdiyyə üzvü seçilmiş namizədin müəyyən edilməsi, referendumda qəbul edilmiş (edilməmiş) məsələnin müəyyən edilməsi;

1.1.32. seçkilərin ümumi yekunları - seçilmiş namizədlərin adlarını və onların lehinə verilən səslərin sayını əks etdirən Milli Məclisə seçkilərin və bələdiyyə seçkilərinin yekunlarının ümumiləşdirilməsi.

## Maddə 2. Seçkilərdə və referendumda iştirakın prinsipləri

2.1. Azərbaycan Respublikasının vətəndaşları seçkilərdə və referendumda ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə iştirak edirlər.

2.2. Azərbaycan Respublikası vətəndaşlarının seçkilərdə və referendumda iştirakı azad və könüllüdür. Seçkilərdə və ya referendumda iştirak edib-etməməyə məcbur etmək məqsədi ilə heç kəsin Azərbaycan Respublikası vətəndaşına təzyiq göstərmək hüququ yoxdur və heç kəs onun öz iradəsini azad ifadə etməsinə mane ola bilməz.

2.3. Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsul idarələri seçkilərin və referendumun keçirilməsi zamanı Azərbaycan Respublikasından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikası Konstitusiyasının 3-cü və 56-cı maddələrində nəzərdə tutulan hüquqlarının həyata keçirilməsinə kömək göstərməlidirlər.

2.4. Seçkilər referendumla eyni gündə keçirilə bilməz. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının seçkiləri və Azərbaycan Respublikası Prezidentinin seçkiləri eyni gündə keçirilə bilməz. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının seçkiləri və bələdiyyə seçkiləri eyni gündə keçirilə bilməz. Azərbaycan Respublikası Prezidentinin

seçkiləri və bələdiyyə seçkiləri eyni gündə keçirilə bilməz.

2.5. Seçkilərin və referendumun hazırlanması və keçirilməsi, səslərin hesablanması, səsvermənin yekunlarının, seçkilərin və referendumun nəticələrinin müəyyən edilməsi açıq və aşkar həyata keçirilir.

2.6. Seçkilərdə (referendumda) iştirak edənlər aşağıdakı şərtlərə riayət etməlidirlər:

2.6.1. mətbuat azadlığına hörmət bəsləmək;

2.6.2. öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, partiyaların (siyasi partiyalar bloklarının) seçki (referendum) kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;

2.6.3. seçkiqabağı təşviqat materiallarının, referendumqabağı təşviqat materiallarının yayılmasına mane olmamaq;

2.6.4. seçkiqabağı (referendumqabağı) təşviqat plakatlarını və digər bu cür təşviqat materiallarını məhv etməmək və korlamamaq;

2.6.5. seçkiqabağı (referendumqabağı) kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;

2.6.6. seçkilərin (referendumun) azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki (referendum) orqanları ilə və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək;

2.6.7. seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək;

2.6.8. səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək və onlarla əməkdaşlıq etmək;

2.6.9. səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərmək;

2.6.10. seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməmək;

2.6.11. seçki (referendum) komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək, səslərin verilməsi və ya səslərin hesablanması prosesi-

ni pozmamaq;

2.6.12. seçkilərin (referendumun) qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə (referendumla) bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etmək;

2.6.13. hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materiallar yaymamaq;

2.6.14. seçicilərə mükafat təklif etməmək, onları cəza ilə hədələməmək;

2.6.15. dövlət resurslarından, bələdiyyə və digər ictimai resurslardan bu Məcəllə ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək;

2.6.16. təzyiq göstərmək və ya bəxşiş təklif etmək yolu ilə və ya digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkinməyə sövq etməmək;

2.6.17. təzyiq göstərmək ilə və ya bəxşiş təklif etmək yolu və ya digər qanunazidd üsullarla seçiciləri referendum üzrə təşviqat qruplarında iştirak etməyə və ya iştirak etməməyə, öz namizədliklərini irəli sürməyə və ya irəli sürməməyə, namizədliklərini geri götürməyə və ya geri götürməməyə, seçkiqabağı (referendumqabağı) təşviqatda iştirak etməyə və ya iştirak etməməyə məcbur etməmək;

2.6.18. heç bir vəzifəli şəxsin referenduma çıxarılan məsələnin, namizədin dəstəklənməsinə və ya dəstəklənməməsinə yönəldilən köməyindən və ya fəaliyyətindən istifadə etməmək.

2.7. Bu Məcəllənin 2.6.2-ci — 2.6.5-ci, 2.6.7-ci, 2.6.10-cu, 2.6.11-ci, 2.6.13 - 2.6.18-ci maddələrinin tələblərinin pozulması Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və ya İnzibati Xətalar Məcəlləsində göstərilən məsuliyyətə səbəb olur.

## Maddə 53. Namizədlərin öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülməsi

53.1. Namizəd öz təşəbbüsü ilə və ya aktiv seçki hüququ olan seçicilər

tərəfindən irəli sürülə bilər, o şərtlə ki, ərazisində namizədin dəstəklənməsi üçün zəruri olan imzaların yığıldığı və namizədin qeydə alınmasının nəzərdə tutulduğu müvafiq seçki komissiyasına bu barədə bildiriş göndərilsin.

53.2. Namizəd və ya namizədi irəli sürən seçicilərin təşəbbüs qrupu öz təşəbbüsü barədə müvafiq seçki komissiyasına yazılı bildiriş verir. Bildirişdə namizədi irəli sürən hər bir təşəbbüsçünün və namizədin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, bundan başqa, irəli sürülən namizədin əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda — fəaliyyət növü) göstərilməlidir.

53.3. Bu Məcəllənin 53.2-ci maddəsində göstərilən bildirişlə birlikdə namizədin seçkili dövlət və ya bələdiyyə orqanında seçkili vəzifəyə seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyinə dair yazılı öhdəliyi olan ərizədə göndərilir. Bu ərizədə onun tərcümeyi-halına aid məlumatlar (soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri (bu olmadıqda — fəaliyyət növü)) göstərilir. Namizədlərin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, ərizədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsi, namizədin xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa, xarici ölkənin müvafiq qanununun adı göstərilməlidir. Namizədin ərizəsində Azərbaycan Respublikasının vətəndaşlığı haqqında məlumatla yanaşı, xarici ölkə vətəndaşlığının və başqa ölkələr qarşısında öhdəliklərinin olub-olmaması da göstərilməlidir.

53.4. Namizəd öz ərizəsinə siyasi partiyaya mənsubiyyəti barədə təsdiq olunan sənəd əsasında məlumatları daxil edə bilər. Belə halda namizəd mənsub olduğu siyasi partiyanın 5 sözdən çox olmayan adla adlandırılmasını müvafiq seçki komissiyası ilə razılaşdırır. Ərizədə göstərilmiş siyasi partiya namizədi öz sıralarından xaric edibsə və müvafiq seçki komissiyasına bildiriş göndəribsə, həmin bildiriş alındıqdan sonra həmin

namizədlə əlaqədar siyasi partiyanın adından istifadə edilə bilməz.

53.5. Müvafiq seçki komissiyası bu Məcəllənin 53.4-cü maddənin tələblərinə uyğun olaraq təqdim edilmiş sənədlərin alınması barədə namizədə, seçicilərin təşəbbüs qrupuna yazılı məlumat verməlidir.

53.6. Müvafiq seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır və namizədə, onun səlahiyyətli nümayəndəsinə namizədliyin müvafiq seçki dairələri üzrə irəli sürülməsini təsdiq edən qərarı, həmçinin seçicilərin imzalarının toplanması üçün imza vərəqələrini təqdim edir. Müvafiq seçki komissiyası təqdim olunmuş sənədlərin qəbul edilməsindən imtina edə bilməz. İmza vərəqələrini götürən namizəd və ya onun səlahiyyətli nümayəndəsi hər imza vərəqəsinin aşağı künc hissəsində imza qoyur.

53.7. Namizədin irəli sürülməsinin təsdiq olunmasından imtina edilməsi üçün əsas yalnız bu Məcəllənin 53.2 və 53.3-cü maddələrində göstərilən sənədlərin lazımi qaydada rəsmiləşdirilməməsi və ya namizədlərin irəli sürülməsinin bu Məcəllə ilə müəyyənləşdirilmiş qaydasının pozulması ola bilər. Səhvlər və pozuntular müvafiq sənədlərdə namizəd tərəfindən düzəlişlərin edilməsi yolu ilə aradan götürülə bilərsə, müvafiq seçki komissiyası bu Məcəllənin 53.6-cı maddəsində göstərilən müddətdə namizədi bu haqda xəbərdar edir və onun tərəfindən müvafiq düzəlişlər edildikdən sonra namizədin irəli sürülməsini təsdiqləyir.

## Maddə 54. Namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi

54.1. Namizədin irəli sürülməsi haqqında qərarı siyasi partiya öz nizamnaməsinə uyğun olaraq qəbul edir. Belə qərar kollegial qaydada səsvermə yolu ilə qəbul edilməlidir.

54.2. Siyasi partiyaların bloku tərəfindən irəli sürülən namizəd bloka daxil olan hər bir siyasi partiya tərəfindən təsdiq edilir. Siyasi partiyaların blokları tərəfindən namizədin irəli sürülməsi haqqında qərar siyasi

partiyaların nümayəndələrinin iclasında (qurultayında, konfransında, rəhbər orqanının iclasında) qəbul edilir. Siyasi partiyaların bu səlahiyyətli nümayəndələri partiyaların qurultayında (konfransında, rəhbər orqanının iclasında) müəyyənləşdirilir.

54.3. Namizədin irəli sürülməsi barədə siyasi partiyanın, siyasi partiyalar blokunun qərarı protokolla rəsmiləşdirilir. Həmin protokolda aşağıdakılar göstərilir:

54.3.1. iclasda (qurultayda, konfransda, rəhbər orqanın iclasında) iştirak etmək üçün qeydə alınmış iştirakçıların sayı;

54.3.2. siyasi partiyalar blokunun yaradılması haqqında sazişdə nəzərdə tutulan qərarın qəbul edilməsi üçün lazım olan iştirakçıların sayı;

54.3.3. namizədin irəli sürülməsi barədə qərar və bu qərar üzrə səsvermənin nəticələri;

54.3.4. qərarın qəbul edilməsi tarixi.

54.4. Siyasi partiya, siyasi partiyaların bloku bloka daxil olan partiyaların üzvü olmayan şəxsləri namizəd kimi irəli sürə bilərlər.

54.5. Namizədin adı ilə birlikdə siyasi partiyanın səlahiyyətli nümayəndəsi müvafiq seçki komissiyasına aşağıdakı sənədləri də təqdim edir:

54.5.1. siyasi partiyanın qeydə alınması barədə şəhadətnamənin notariat qaydasında təsdiqlənmiş surəti;

54.5.2. siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiqlənmiş surəti;

54.5.3. namizədin irəli sürülməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanının iclaslarının) qərarı və müvafiq iclasın protokolu;

54.5.4. siyasi partiyanın səlahiyyətli nümayəndələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada rəsmiləşdirilmiş vəkalətnamələrini.

54.6. Namizədin adı ilə birlikdə siyasi partiyalar blokunun səlahiyyətli nü-

mayəndəsi müvafiq seçki komissiyasına aşağıdakı sənədləri təqdim edir:

54.6.1. siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların qurultaylarının (konfranslarının, rəhbər orqanının iclasının) namizəd irəli sürmək barədə qərarları ilə birlikdə müvafiq iclasların protokolları;

54.6.2. siyasi partiyaların blokuna daxil olan siyasi partiyaların nümayəndələrinin iclasının (qurultayının, konfransının) siyasi partiyaların bloku adından namizəd irəli sürülməsi haqqında qərarı və müvafiq iclasın protokolu;

54.6.3. siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin notarial qaydasında rəsmiləşdirilmiş vəkalətnamələri.

54.7. Müvafiq seçki dairələri üzrə irəli sürülmüş namizədlərə aid sənədlər müvafiq seçki komissiyasına siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri tərəfindən təqdim edilir. Namizədlərin adları Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada təqdim edilir, çap üsulu ilə və ya maşınla oxunmasına imkan verən başqa üsulla tərtib olunur.

54.8. Siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi bu Məcəllənin 54.1-54.7-ci maddələrində göstərilən sənədlərlə birlikdə namizədin seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam veriləcəyi barədə öhdəliyi də göstərilməklə, namizədliyinin irəli sürülməsinə razılıq verməsi barədə ərizəsini də təqdim edir. Bu ərizədə namizədin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri, o cümlədən tutduğu vəzifə (bu olmadıqda — fəaliyyət növü), namizədin arzusu ilə siyasi partiyaya mənsubluğu göstərilir. Namizədlərin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, ərizədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsi, namizədin xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa, xarici ölkənin qanununun adı göstərilməlidir. Ərizədə namizədin vətəndaşlığı və ya xarici ölkə vətəndaşlığına mənsubluğu, başqa

dövlətlər qarşısında öhdəliyin olub-olmaması haqqında məlumatlar daxil edilir.

54.9. Seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır, müvafiq seçki dairəsi üzrə irəli sürülmüş namizədin təsdiq olunub-olunmaması barədə əsaslandırılmış qərar qəbul edir və siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə bu barədə məlumat verir. Müvafiq seçki komissiyası təqdim olunmuş sənədlərin qəbul edilməsindən imtina edə bilməz. Seçki komissiyası namizədin təsdiq olunması barədə qərar qəbul etdikdə, həmin qərarı və seçicilərin imzalarının toplanması üçün imza vərəqələrini siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə təqdim edir. İmza vərəqələrini götürən səlahiyyətli nümayəndə hər imza vərəqəsinin aşağı künc hissəsində imza qoyur.

54.10. İrəli sürülmüş namizədin təsdiq olunmasından imtina edilməsi üçün əsas yalnız bu Məcəllənin 54.1-54.7-ci maddələrində göstərilən sənədlərin lazımi qaydada rəsmiləşdirilməməsi və ya namizədin irəli sürülməsinin bu Məcəllə ilə müəyyənləşdirilmiş qaydasının pozulması ola bilər. Səhvlər və pozuntular müvafiq sənədlərdə siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi tərəfindən düzəlişlər edilməsi yolu ilə aradan götürülə bilərsə, müvafiq seçki komissiyası namizədi bu Məcəllənin 54.9-cu maddəsində göstərilən müddətdə bu haqda xəbərdar edir, müvafiq düzəlişlər edildikdən sonra namizədin irəli sürülməsini təsdiqləyir.

54.11. Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyaları irəli sürülmüş müvafiq namizədlər barədə məlumat alınmasına şərait yaratmalıdırlar.

## Maddə 210. Bələdiyyə seçkilərinin əsasları

210.1. Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələrin üzvləri nisbi çoxluq sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər.

210.2. Seçki əraziləri üzrə aşağıdakı sayda bələdiyyə üzvləri seçilir:

210.2.1. əhalisi 500-dən az olan ərazilərdə — 5 bələdiyyə üzvü;

210.2.2. əhalisi 500-dən 999-dək olan ərazilərdə — 7 bələdiyyə üzvü;

210.2.3. əhalisi 1000-dən 4.999-dək olan ərazilərdə — 9 bələdiyyə üzvü ;

210.2.4. əhalisi 5000-dən 9.999-dək olan ərazilərdə — 11 bələdiyyə üzvü;

210.2.5. əhalisi 10000-dən 19.999-dək olan ərazilərdə — 13 bələdiyyə üzvü;

210.2.6. əhalisi 20000-dən 49.999-dək olan ərazilərdə — 15 bələdiyyə üzvü;

210.2.7. əhalisi 50000-dən 99.999-dək olan ərazilərdə — 17 bələdiyyə üzvü;

210.2.8. əhalisi 100000-dən 299.999-dək olan ərazilərdə — 19 bələdiyyə üzvü.

Maddə 211. Bələdiyyələrin səlahiyyət müddəti

211.1. Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir.

211.2. Bələdiyyələrin səlahiyyət müddətinin hesablanması səsvermənin keçirildiyi gündən başlanır və yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır.

211.3. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir.

211.4. Ölkə üzrə bələdiyyə seçkilərinin keçirilməsinə 6 aydan az müddət qalarsa, bu Məcəllənin 243.0.2-ci maddəsində nəzərdə tutulmuş hallarda, habelə yeni yaradılmış, birləşmiş, ayrılmış, yaxud vaxtından əvvəl buraxılmış bələdiyyələrə seçkilər ölkə üzrə bələdiyyələrə seçkilər zamanı keçirilir.

211.5. Ölkə üzrə bələdiyyə seçkilərinin keçirilməsinə 6 aydan çox qalmış müddətdə bu Məcəllənin 243.0.2-ci maddəsində nəzərdə tutulmuş hallarda, habelə yeni yaradılmış, birləşmiş, ayrılmış, yaxud vaxtından əvvəl buraxılmış bələdiyyələrə keçirilən seçkilər nəticəsində formalaşan

bələdiyyələrin səlahiyyət müddəti ölkə üzrə yeni bələdiyyə seçkiləri nəticəsində formalaşan bələdiyyələrin birinci iclas günü başa çatır.

## Maddə 212. Bələdiyyələrə üzv seçilmək hüququ

Seçkilərdə iştirak etmək hüququna malik olan və müvafiq seçki dairəsində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyələrə üzv seçilə bilərlər.

## Maddə 213. Bələdiyyə seçkilərinin təyin edilməsi

213.1. Bələdiyyə seçkilərini bu Məcəllənin 211.1-ci və 211.2-ci maddələrinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası təyin edir.

213.2. Bələdiyyə seçkilərinin təyin edilməsi barədə qərar onun qəbul edildiyi gündən ən geci 2 gün ərzində kütləvi informasiya vasitələrində rəsmi dərc edilməlidir.

Maddə 214. Bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi

214.1. Seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizədləri siyasi partiyalar, siyasi partiyaların blokları, həmin seçki dairəsində daimi yaşayan seçki hüququ olan Azərbaycan Respublikasının vətəndaşları bu Məcəllənin 53 və 54-cü maddələrinə uyğun olaraq irəli sürə bilərlər.

214.2. Bələdiyyələrə təkrar seçkilərdə bələdiyyə üzvlüyünə namizədlər bu seçkilərin təyin edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra irəli sürülür.

214.3. Bələdiyyələrə əlavə seçkilərdə bələdiyyə üzvlüyünə namizədlər bu Məcəllənin 213.2-ci maddəsində göstərilən müddətdən sonra irəli sürülür.

214.4. İrəli sürülən namizəd yalnız bir bələdiyyəyə namizəd irəli sürülməsinə razılıq verə bilər.

214.5. Bələdiyyə üzvlüyünə namizəd yalnız bir bələdiyyə üzvlüyünə namizəd kimi irəli sürülə və qeydiyyata alına bilər.

214.6. Bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsinədək dairə seçki komissiyasının yaradılması başa çatmayıbsa, namizədin irəli sürülməsi haqqında bildiriş, müvafiq namizədlərin razılıq ərizələri və digər sənədlər Mərkəzi Seçki Komissiyasına göndərilir. Mərkəzi Seçki Komissiyası göstərilən sənədləri dairə seçki komissiyasının təşkilindən və sədrinin seçilməsindən sonra ona təqdim edir.

## Maddə 215. Bələdiyyə üzvlüyünə namizədin müdafiəsi üçün seçici imzalarının toplanması qaydası

215.1. Müvafiq seçki ərazisi üzrə bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmaq üçün namizədliyi irəli sürülmüş hər bir vətəndaş:

215.1.1. əhalisi 99.999-dan çox olan ərazidə — 150;

215.1.2. əhalisi 49.999-dan çox olan ərazidə — 100;

215.1.3. əhalisi 19.999-dan çox olan ərazidə — 75;

215.1.4. əhalisi 9.999-dan çox olan ərazidə — 50;

215.1.5. əhalisi 4.999-dan çox olan ərazidə — 30;

215.1.6. əhalisi 4.999-dan az olan ərazidə — 15 seçici imzası toplamalıdır.

215.2. Seçicilərin bələdiyyə üzvlüyünə bir neçə namizədin müdafiəsi üçün imza etmək hüququ vardır.

215.3. Seçicilərin imzaları bu Məcəllənin 56-cı və 57-ci maddələrində göstərilən qaydada toplanır.

## Maddə 216. Bələdiyyə üzvlüyünə namizədin qeydə alınması

216.1. Bələdiyyə üzvlüyünə namizədlər bu Məcəllənin 60-cı maddəsində göstərilən qaydada qeydə alınırlar.

216.2. Bir şəxsin birdən çox bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmasına yol verilmir.

216.3. Bu Məcəllənin 214.5-ci maddəsində göstərilən qaydalar pozulduqda bələdiyyə üzvlüyünə namizədin əvvəlki qeydiyyatı etibarlı sayılır, qeydiyyat haqqında nisbətən gec qəbul edilmiş qərar isə müvafiq dairə seçki komissiyasının qərarı ilə ləğv edilir.

216.4. Qeydə alınmış bələdiyyə üzvlüyünə namizədlərin fəaliyyəti bu Məcəllənin 69- 71-ci maddələri ilə tənzimlənir.

216.5. Bələdiyyələr üzrə qeydə alınmış namizədlərin siyahısı səsvermə gününə azı 20 gün qalmış müvafiq dairə seçki komissiyaları tərəfindən bu Məcəllənin 77.3-cü və 77.4-cü maddələrində göstərilən dövri nəşrlərdə dərc edilir.

## Maddə 217. Bələdiyyə seçkilərinin təxirə salınması

217.1. Bu Məcəllənin 58.1-ci maddəsində göstərilən müddətdə bələdiyyə üzrə heç bir namizəd qeydə alınmayıbsa və ya bu Məcəllənin 210-cu maddəsində göstərilən bələdiyyə üzvlərinin sayından az sayda namizəd qeydə alınıbsa, əlavə namizədlərin irəli sürülməsi və növbəti seçki hərəkətlərinin həyata keçirilməsi məqsədi ilə müvafiq bələdiyyə üzrə seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən 2 ay müddətinə təxirə salınır.

217.2. Səsvermə gününədək bələdiyyə üzrə qeydə alınmış namizəd qalmazsa, yaxud bələdiyyə üzvlüyünə bir yerə qeydə alınmış bir namizəd qalarsa, seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən namizədlərin irəli sürülməsi və sonrakı hərəkətləri edilməsi üçün bələdiyyə üzrə seçkilər 2 ay müddətinə təxirə salınır.

## Maddə 218. Bələdiyyə üzvlüyünə qeydə alınmış namizədin nəqliyyat xərclərinin ödənilməsi

218.1. Bu Məcəllənin 70.2-ci maddəsinə uyğun olaraq bələdiyyə üzvlüyünə namizəd qeydə alındığı gündən seçkilərin yekunları rəsmi dərc edildiyi günədək müvafiq seçki ərazisində gəliş-gediş üçün ictimai

nəqliyyatın bütün növlərindən (taksi və sifarişli reyslər istisna olmaqla) pulsuz istifadə etmək hüququna malikdir.

218.2. Bu cür ödəmələr dairə seçki komissiyasına ayrılan vəsait hesabına və təqdim edilmiş gediş-gəliş sənədləri əsasında həyata keçirilir.

## Maddə 219. Bələdiyyə üzvlüyünə qeydə alınmış namizədin toxunulmazlığı

Bələdiyyə üzvlüyünə qeydə alınmış namizəd bu Məcəllənin 70.4-cü maddəsində nəzərdə tutulan qaydada yalnız müvafiq rayon prokurorunun razılığı ilə məsuliyyətə cəlb edilə bilər.

## Maddə 220. Bələdiyyə üzvlüyünə qeydə alınmış namizədlərin vəkil edilmiş şəxslərinin sayı

220.1. Bələdiyyə üzvlüyünə qeydə alınmış namizədin 3-ə qədər vəkil edilmiş şəxs təyin etmək hüququ vardır. Göstərilən şəxslər dairə seçki komissiyası tərəfindən qeydə alınır.

220.2. Vəkil edilmiş şəxslərin statusu bu Məcəllənin 72-ci maddəsi ilə müəyyən edilir.

## Maddə 221. Bələdiyyə üzvlüyünə namizədlərin namizədlik statusundan imtina etməsi

221.1. Bələdiyyə üzvlüyünə namizədlərin namizədlik statusundan imtina etməsi bu Məcəllənin 73-1-ci maddəsi ilə tənzimlənir.

221.2. Bu Məcəllənin 73-1.1-ci və 73-1.2-ci maddələrində göstərilən hərəkətləri etmiş şəxsin bu Məcəllədə nəzərdə tutulmuş qaydada və müddətdə istənilən digər bələdiyyə üzrə öz namizədliyini təkrar irəli sürmək hüququ vardır.

Maddə 222. Siyasi partiyanın, siyasi partiyalar blokunun bələdiyyə seç-

kilərində iştirak etməkdən imtina etməsi

222.1. Siyasi partiya öz nizamnaməsinə uyğun olaraq, siyasi partiyaların bloku isə ona daxil olan siyasi partiyaların səlahiyyətli nümayəndələrinin qərarı ilə səsvermə gününə azı 10 gün qalanadək istənilən vaxt müvafiq dairə seçki komissiyasına yazılı ərizə verərək, seçki dairəsi üzrə irəli sürülmüş bələdiyyə üzvlüyünə namizədi, qeydə alınmış bələdiyyə üzvlüyünə namizədi geri çağırmaq hüququna malikdir.

222.2. Bələdiyyə üzvlüyünə namizədlər irəli sürmüş siyasi partiya, siyasi partiyaların bloku səsvermə gününə azı 10 gün qalmış müvafiq dairə seçki komissiyasına yazılı ərizə verməklə, namizədləri irəli sürmüş orqanın qərarı ilə seçkilərdə iştirak etməkdən imtina edə bilər. Bu halda siyasi partiya, siyasi partiyaların bloku bələdiyyə üzvlüyünə namizədləri geri çağıra bilər.

222.3. Siyasi partiyalar blokunun tərkibinə daxil olan siyasi partiya səsvermə gününə azı 3 gün qalmış istənilən vaxt dairə seçki komissiyasına ərizə verməklə müvafiq siyasi partiyanın səlahiyyətli orqanının qərarı ilə bu siyasi partiyalar blokunun tərkibində seçkilərdə iştirak etməkdən imtina edə bilər.

222.4. Siyasi partiyalar blokunun tərkibində seçkilərdə iştirak etməkdən imtina edən siyasi partiya bu Məcəllə ilə müəyyənləşdirilmiş qaydada müstəqil siyasi partiya kimi çıxış edə və ya digər siyasi partiyalar blokunun tərkibinə daxil ola bilər.

222.5. Siyasi partiyalar blokunun irəli sürdüyü bələdiyyə üzvlüyünə namizədləri dairə seçki komissiyası qeydə aldıqdan sonra, bu bloka daxil olmuş bütün siyasi partiyalar (birindən başqa) seçkilərdə iştirak etməkdən imtina edərlərsə, qalan siyasi partiya seçkilərdə siyasi partiyalar blokunun adı və rəmzləri saxlanılmaqla, siyasi partiyaların bloku kimi iştirak edə bilər. Bu, bələdiyyə üzvlüyünə namizədlərin qeydə alınmasından imtina edilməsi və ya qeydiyyatın ləğv edilməsi üçün əsas ola bilməz.

222.6. Siyasi partiyalar blokunun seçkilərdə iştirak etməkdən imtina etməsi ona daxil olmuş siyasi partiyaları seçkilərdə iştirak etmək hüququndan məhrum etmir; belə halda bu Məcəlləyə uyğun olaraq bələdiyyə

üzvlüyünə namizədin təkrar irəli sürülməsi və digər zəruri seçki hərəkətlərinin həyata keçirilməsi tələb edilir.

## Maddə 223. Bələdiyyə seçkiləri zamanı seçki komissiyasına nümayəndənin təyin edilməsi

Bələdiyyə seçkiləri zamanı Mərkəzi Seçki Komissiyasının tərkibinə bələdiyyələrin yarısından çoxunda namizədlər irəli sürən, dairə seçki komissiyasının tərkibinə isə dairənin ərazisindən bələdiyyələrin yarısından çoxunda namizədlər irəli sürən siyasi partiyalar, siyasi partiyaların blokları bir məşvərətçi səs hüquqlu üzv təyin edə bilərlər.

## Maddə 224. Siyasi partiyaların, siyasi partiyalar bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin seçkiqabağı təşviqatının aparılması üçün xüsusi tələblər

224.1. Bələdiyyə üzvlüyünə namizədlərin seçkiqabağı təşviqatda iştirakı bu Məcəllənin on üçüncü fəsli ilə tənzimlənir.

224.2. Teleradio verilişləri təşkilatlarının ayırdıqları pulsuz efir vaxtının ümumi həcminin 1/3 hissəsi müvafiq olaraq bələdiyyələrin 1/3-dən çoxunda və ya yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına bu Məcəllənin 77.2-ci və 77.3-cü maddələrinin tələbləri nəzərə alınmaqla, müzakirələrin, dəyirmi masaların, digər bu cür təşviqat tədbirlərinin keçirilməsi üçün ayrılır. Bu cür tədbirlərin keçirilməsi qaydaları Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilir.

224.3. Bu Məcəllənin 77.2-ci və 77.3-cü maddələrində göstərilən teleradio verilişləri təşkilatlarının kanallarında birgə təşviqat tədbirlərinin keçirilməsi üçün efir vaxtı göstərilən siyasi partiyalar, siyasi partiyaların blokları üçün ayrılır, hesablanır və ayrı-ayrılıqda həyata keçirilir. Bu cür pulsuz efir vaxtından siyasi partiyalar, siyasi partiyaların blokları bərabər əsasla istifadə etməlidirlər. Bu halda hər bir siyasi partiya, siyasi partiya-

ların bloku tərəfindən istifadə edilən efir vaxtının həcmi ayrıca müəyyənləşdirilir.

224.4. Bu Məcəllənin 71.1-ci maddəsində göstərilən teleradio verilişləri təşkilatlarının efir vaxtından ödənişli əsaslarla istifadə norması onun ümumi həcminin bu Məcəllənin 77.4-cü maddəsində göstərilən bələdiyyə üzvlüyünə namizədlərin ümumi sayına bölünməsi yolu ilə müəyyənləşdirilir.

224.5. Bu Məcəllənin 71.1-ci maddəsində göstərilən dövri nəşr səhifələrində ayrılan, bu Məcəllənin 77.4-cü maddəsinə uyğun olaraq bələdiyyə üzvlüyünə namizədlərin ümumi sayına bölünmə yolu ilə müəyyən edilən yerdən axırıncılar müvafiq ödəniş müqabilində istifadə edə bilərlər.

224.6. Qeydə alınmış namizədlərin, bələdiyyələrin 1/3-dən və ya yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının bu Məcəllənin 224.2-ci maddəsində göstərilən tədbirlərdə iştirakdan imtina etməsi bu Məcəllənin 80.6-cı maddəsinə uyğun olaraq pulsuz təqdim edilən efir vaxtı həcminin artırılmasına səbəb olmur.

## Maddə 225. Siyasi partiyaların, siyasi partiyalar bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin seçki fondları

225.1. Bələdiyyə üzvlüyünə namizədlərin seçki fondları aşağıdakı pul vəsaiti hesabına formalaşa bilər:

225.1.1. bu Məcəllənin 215.1.1-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan şərti maliyyə vahidinin10 min manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.2-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 7 min 500 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.3-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 5 min manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.4-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 2 min 500 manatdan çox olmamaq şərti

ilə, bu Məcəllənin 215.1.5-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 1 min 250 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.6-cı maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 750 manatdan çox olmamaq şərti ilə bələdiyyə üzvlüyünə namizədlərin xüsusi vəsaiti;

225.1.2. bu Məcəllənin 215.1.1-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan şərti maliyyə vahidinin 7 min 500 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.2-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 5 min manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.3-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 3 min 750 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.4-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 2 min 500 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.5-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 1 min 250 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.6-cı maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 500 mislindən çox olmamaq şərti ilə bələdiyyə üzvlüyünə namizədləri irəli sürmüş siyasi partiyaların, siyasi partiyalar bloklarının vəsaiti;

225.1.3. bu Məcəllənin 233.8-ci maddəsi ilə müəyyənləşdirilmiş hallar istisna olmaqla, namizədlərin qeydiyyatı başa çatdıqdan sonra ən geci 3 gün müddətində bələdiyyə üzvlüyünə namizədlərə dairə seçki komissiyası tərəfindən bərabər həcmdə ayrılmış vəsait;

225.1.4. seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan şərti maliyyə vahidinin 500 manatdan çox olmayan vətəndaşların könüllü ianələri;

225.1.5. bu Məcəllənin 215.1.1-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan şərti maliyyə vahidinin10 min manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.2-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün – 7 min 500 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.3-cü maddəsində nəzərdə

tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 3 min 750 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.4-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 2 min 500 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.5-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 1 min 250 manatdan çox olmamaq şərti ilə, bu Məcəllənin 215.1.6-cı maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 750 manatdan çox olmamaq şərti ilə hüquqi şəxslərin könüllü ianələri.

225.2. Bu Məcəllənin 215.1.1-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlərin maliyyə fondu məbləğinin yuxarı həddi seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan şərti maliyyə vahidinin 50 min mislindən çox, bu Məcəllənin 215.1.2-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 37 min 500 manatdan çox, bu Məcəllənin 215.1.3-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 25 min manatdan çox, bu Məcəllənin 215.1.4-cü maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 12 min 500 manatdan çox, bu Məcəllənin 215.1.5-ci maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 7 min 500 manatdan çox, bu Məcəllənin 215.1.6-cı maddəsində nəzərdə tutulan bələdiyyə üzvlüyünə namizədlər üçün — 5 min manatdan çox ola bilməz.

225.3. Bələdiyyələr onların ərazilərində irəli sürülən namizədlərin seçki fondlarına bərabər şəkildə vəsait ayıra bilərlər.

225.4. Bələdiyyələrin 1/3-dən çoxunda namizəd irəli sürmüş və ya namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları vahid seçki fondu yarada bilərlər.

225.5. Siyasi partiyaların, siyasi partiyalar bloklarının seçki fondları yalnız aşağıdakı pul vəsaiti hesabına formalaşır:

225.5.1. siyasi partiyaların, siyasi partiyalar bloklarının seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan şərti maliyyə vahidinin 250 min manatdan çox olmamaq şərti ilə, xüsusi vəsaiti (siyasi partiyalar blokunun bu xüsusi vəsaiti seçki blokunu yaratmış siyasi parti-

yaların verdiyi vəsaitlər hesabına formalaşır);

225.5.2. bu Məcəllə ilə nəzərdə tutulan hallar istisna olmaqla, Mərkəzi Seçki Komissiyasının siyasi partiyaya, siyasi partiyaların blokuna ayırdığı vəsait;

225.5.3. vətəndaşların və hüquqi şəxslərin könüllü ianələri. Könüllü ianələrin həddi seçkilərin təyin edilməsi haqqında qərarın dərc edildiyi günə olan şərti maliyyə vahidinin vətəndaş üçün 750 mislindən, hüquqi şəxs üçün 25 min manatdan çox ola bilməz.

225.6. Siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondu vəsaitinin yuxarı həddi bu Məcəllənin 225.3-cü maddəsində göstərilən məbləğin irəli sürülmüş və ya qeydə alınmış namizədlərin sayına vurulması yolu ilə müəyyən edilir. Hər bir halda siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondunun yuxarı məbləği seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan şərti maliyyə vahidinin 500 min manatdan çox ola bilməz. Eyni zamanda, hər bir namizəd üçün xərclənmiş məbləğ bu Məcəllənin 225.3-cü maddəsində göstərilən məbləğdən yuxarı ola bilməz. Bu tələbə riayət olunması siyasi partiyaların, siyasi partiyalar bloklarının maliyyə hesabatlarında göstərilməlidir.

## Maddə 226. Siyasi partiyaların, siyasi partiyalar bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin xüsusi hesabları

226.1. Bələdiyyə üzvlüyünə namizədlər imzaların yığılmasının başlanması haqqında dairə seçki komissiyasına bildiriş təqdim etdikdən sonra 5 gün müddətində öz maliyyə fondunu formalaşdırmaq üçün xüsusi hesab açmalıdırlar.

226.2. Namizədlər üçün vahid seçki fondu yaratmaq niyyətində olan siyasi partiyalar bələdiyyələrin 1/3-dən çoxunda irəli sürülən namizədlərin siyahısını Mərkəzi Seçki Komissiyasına təqdim etdikdən sonra 5 gün müddətində vahid seçki fondunu formalaşdırmaq üçün xüsusi seçki hesabı açırlar.

226.3. Namizəd, siyasi partiya, siyasi partiyaların bloku namizədin irəli sürülməsi barədə dairə seçki komissiyasından bildirişin təsdiq edilmiş surəti əsasında, həm də bu Məcəllənin 53-cü və 54-cü maddələrində göstərilən sənədlər əlavə edilməklə xüsusi seçki hesabı açırlar. Namizəd, siyasi partiya, siyasi partiyaların bloku öz səlahiyyətli nümayəndəsinə xüsusi seçki hesabının açılmasını tapşıra bilər. Namizəd, qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku dairə seçki komissiyasına (Mərkəzi Seçki Komissiyasına) yazılı məlumat verməklə, başqa şəxsə özünün seçki hesabında olan vəsaitdən istifadə etmək hüququ verə bilər.

226.4. Namizədin, qeydə alınmış namizədin irəli sürüldüyü bələdiyyə dəyişdikdə, o, xüsusi seçki hesabının qalıq vəsaitini könüllü ianə vermiş şəxslərə, hüquqi şəxslərə proporsional əsasda qaytarmalıdır. Bundan sonra namizəd, qeydə alınmış namizəd dairə seçki komissiyasına yekun maliyyə hesabatı verməlidir. Yeni xüsusi seçki hesabının açılması bu Məcəllə ilə müəyyənləşdirilmiş qaydada tənzimlənir.

## Maddə 227. Vahid seçki fondunun ləğv edilməsi

Vahid seçki fondu yaradan siyasi partiyanın, siyasi partiyalar blokunun bələdiyyələr üzrə qeydiyyatdan keçən namizədləri bələdiyyələrin yarısını və ya yarısından azını əhatə edərsə, siyasi partiyanın, siyasi partiyalar blokunun xüsusi seçki hesabı bağlanır, həmin hesabın bağlanması ilə eyni vaxtda hər bir namizəd üçün xüsusi seçki hesabı açılır və vahid seçki fondunun vəsaitləri namizədlərin seçki fondları arasında proporsional qaydada bölüşdürülür.

Maddə 228. Siyasi partiyaların, siyasi partiyalar bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin seçki fondlarının vəsaitlərinin istifadəsində aşkarlıq

228.1. Bələdiyyə üzvlüyünə namizədin seçki fondu haqqında aşağıdakı məlumatlar bu Məcəllənin 77.4-cü maddəsində göstərilən kütləvi informasiya vasitələri tərəfindən hökmən dərc edilməlidir:

228.1.1. bələdiyyə üzvlüyünə namizədin seçki fondu vəsaitinin məbləği seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan şərti maliyyə vahidinin min manatdan çox olduqda həmin vəsaitin xərclənməsinin maliyyə hesabatı barədə;

228.1.2. bələdiyyə üzvlüyünə namizədin seçki fonduna seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan şərti maliyyə vahidinin 2 min 500 manatdan çox məbləğdə ianə köçürən hüquqi şəxslər barəsində (bu zaman eyni hüquqi şəxs tərəfindən vəsaitin bir neçə ianə şəklində köçürülməsinin mümkünlüyü nəzərə alınmalıdır);

228.1.3. bələdiyyə üzvlüyünə namizədin seçki fonduna seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan şərti maliyyə vahidinin 250 manatdan çox məbləğdə ianə köçürən vətəndaşların sayı barədə;

228.1.4. ianəçilərə qaytarılan vəsaitlər barədə, geri qaytarmanın əsası haqqında;

228.1.5. bələdiyyə üzvlüyünə namizədin seçki fonduna daxil olmuş vəsaitin ümumi həcmi və onun xərclənmiş hissəsinin ümumi məbləği barədə.

228.2. Siyasi partiyanın, siyasi partiyalar blokunun seçki fondu haqqında aşağıdakı məlumatlar bu Məcəllənin 77.2-ci və ya 77.3-cü maddəsində göstərilən kütləvi informasiya vasitələrində hökmən dərc edilməlidir:

228.2.1. seçki fondu vəsaitinin seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan şərti maliyyə vahidinin 10 min manatdan çox məbləğdə xərclənməsinin maliyyə hesabatı barədə;

228.2.2. seçki fonduna seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan şərti maliyyə vahidinin 5 min manatdan çox məbləğdə ianə köçürən hüquqi şəxslər barəsində (bu zaman eyni hüquqi şəxs tərəfindən vəsaitin bir neçə ianə şəklində köçürülməsi mümkünlüyü nəzərə alınmalıdır);

228.2.3. seçki fonduna seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan şərti maliyyə vahidinin 250 manatdan çox məbləğdə ianə köçürən vətəndaşların sayı barədə;

228.2.4. ianəçilərə qaytarılan vəsaitlər barədə, geri qaytarmanın əsası haqqında;

228.2.5. seçki fonduna daxil olmuş vəsaitin ümumi həcmi və onun xərclənmiş hissəsinin ümumi məbləği barədə.

Maddə 229. Siyasi partiyaların, siyasi partiyalar bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin aldıqları vəsaitlərin geri qaytarilmasinin ardıcıllığı

Siyasi partiyaların, siyasi partiyalar bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin aldıqları vəsaitlərin geri qaytarılması qaydası bu Məcəllənin 90.5-ci — 90.7-ci maddələri ilə müəyyən edilir.

## Maddə 230. Siyasi partiyalarin, siyasi partiyalar bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin, qeydə alınmış bələdiyyə üzvlüyünə namizədlərin aldıqları büdcə vəsaitlərinin geri qaytarılmasının məcburiliyi

Səsvermədə iştirak etmiş və seçicilərin etibarlı hesab edilən səslərinin azı 3 faizini toplamış bələdiyyə üzvlüyünə namizəd və ya seçilən sayılmış, habelə səsvermə gününədək məcburedici hallara görə namizədliyini geri götürmüş bələdiyyə üzvlüyünə qeydə alınmış namizəd, bələdiyyələrin yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiya, siyasi partiyaların bloku səsvermə günündən sonra 15 gün müddətində bələdiyyənin onların seçki fondlarına köçürdüyü vəsaitin xərclənməmiş hissəsini həmin bələdiyyəyə qaytarmağa borcludur. Bu vəsait köçürüləndən sonra, göstərilən qaydada 15 gün müddətində bələdiyyələrin vəsaitləri qaytarılmalıdır. Bu müddət başa çatdıqda müvafiq bank Mərkəzi Seçki Komissiyasının və ya müvafiq bələdiyyənin məktubunda göstərilmiş pul vəsaitini mübahisəsiz qaydada onun hesabına köçürməlidir.

## Maddə 231. Siyasi partiyalar, siyasi partiyaların blokları, bələdiyyə üzvlüyünə namizədlər tərəfindən pulsuz efir vaxtının və dövri nəşrlərdə

## pulsuz ayrılmış yerin dəyərinin ödənilməsi

231.1. Bu Məcəllənin 230-cu maddəsində nəzərdə tutulmayan namizəd, siyasi partiya, siyasi partiyaların bloku bu Məcəllənin 77.2, 77.3 və 77.4-cü maddələrində göstərilən teleradio verilişləri təşkilatlarına və dövri nəşrlərin redaksiyalarına pulsuz efir vaxtının və dövri nəşrlərdə ayrılmış yerin dəyərini tam həcmdə ödəməlidir. Göstərilən dəyər seçki fondundan yekun maliyyə hesabatının verildiyi günədək namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən ödənilməlidir. Mərkəzi Seçki Komissiyası seçkilərin ümumi nəticələrinin rəsmi dərc edildiyi gündən sonra 3 gün müddətində göstərilən namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, habelə həmin partiyaların blokunun tərkibinə daxil olmuş siyasi partiyaların siyahısını, onların ünvanını, istifadə edilmiş pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərinin ödənilməsi barədə siyasi partiyalar bloklarının birgə qərarlarından çıxarışların təsdiq edilmiş surətlərini bu Məcəllənin 77.2, 77.3 və 77.4-cü maddələrində göstərilmiş teleradio verilişləri təşkilatlarına və dövri nəşrlərin redaksiyalarına göndərir.

231.2. Bu Məcəllənin 77.2, 77.3 və 77.4-cü maddələrində göstərilən teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları seçkilərin ümumi nəticələrinin rəsmi dərc edildiyi gündən sonra 10 gün müddətində bu Məcəllənin 230-cu maddəsində nəzərdə tutulmayan namizədlərə, siyasi partiyalara, siyasi partiyaların bloklarına, habelə siyasi partiyaların blokuna daxil olmuş siyasi partiyalara istifadə edilmiş pulsuz efir vaxtının dəyəri və dövri nəşrdə ayrılmış yerin həcmi və dəyəri haqqında, özlərinin hüquqi ünvanı və bank rekvizitləri barəsində müvafiq məlumat göndərirlər.

231.3. Bu Məcəllənin 80.5, 83.6 və 224.2-ci maddələrində nəzərdə tutulmuş pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyəri bu Məcəllənin 80.6-cı və 83.7-ci maddələrində nəzərdə tutulmuş qaydada namizədə, siyasi partiyaya, siyasi partiyaların blokuna təqdim edilmiş efir vaxtının və dövri nəşrdə ayrılmış yerin ümumi həcminin teleradio verilişləri təşkilatlarının və dövri nəşrlərin redaksiyalarının müəyyənləşdirdiyi efir vaxtının və dövri nəşrdə ayrılmış və məlumat üçün dərc edilmiş yerin

qiymətinə vurulması yolu ilə müəyyən edilir.

231.4. Siyasi partiya, siyasi partiyaların bloku bu Məcəllənin 224.2-ci maddəsində göstərilən təşviqat tədbirlərinin birgə keçirilməsi yolu ilə pulsuz efir vaxtından istifadə etdikdə hər bir siyasi partiyanın, siyasi partiyalar blokunun qaytardığı pul vəsaitinin həcmi teleradio verilişləri təşkilatları tərəfindən onların iştirak etdikləri birgə təşviqat tədbirlərinin hər birinin iştirakçılarının ümumi sayına proporsional olaraq bərabər paylarla müəyyənləşdirilir.

231.5. Namizəd, siyasi partiya, siyasi partiyaların bloku pulsuz efir vaxtından bu Məcəllənin 81.5-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada və müddətdə imtina edibsə, təqdim edilmiş pulsuz efir vaxtının dəyəri ödənilmir.

231.6. Bu Məcəllənin 77.2, 77.3 və 77.4-cü maddələrində nəzərdə tutulmuş teleradio verilişləri təşkilatları və dövri nəşr redaksiyaları səsvermə günündən başlayaraq 12 ay müddətində Mərkəzi Seçki Komissiyasına bu Məcəllənin 230-cu maddəsində nəzərdə tutulmuş pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərini tam ödəməmiş namizəd, siyasi partiya haqqında məlumat verirlər. Dairə seçki komissiyaları səsvermə günündən başlayaraq 12 ay müddətində bu Məcəllənin 230-cu maddəsində nəzərdə tutulmayan və seçki komissiyaları qarşısında borc öhdəliyi olan vətəndaşlar, siyasi partiyalar haqqında Mərkəzi Seçki Komissiyasına məlumat verirlər.

## Maddə 232. Siyasi partiyaların, siyasi partiyalar bloklarının, bələdiyyə üzvlüyünə namizədlərin seçki fondlarinin xüsusi hesabinda qalmiş pul vəsaiti

Bələdiyyə üzvlüyünə namizədlərin seçki fondlarının xüsusi hesabında qalmış pul vəsaitini dairə seçki komissiyasının yazılı göstərişinə uyğun olaraq müvafiq bank səsvermə günündən 30 gün keçdikdən sonra müvafiq bələdiyyə büdcəsinin mədaxilinə köçürməlidir.

## Maddə 233. Siyasi partiyalar, siyasi partiyaların blokları, bələdiyyə üzvlüyünə namizədlər tərəfindən pul vəsaitinin öz vəsaitləri hesabına geri qaytarılması

233.1. Seçki fondunda pul vəsaiti olmadıqda və yaxud çatışmadıqda büdcə və bələdiyyə pul vəsaitinin qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku tərəfindən qaytarılması, habelə siyasi partiyalara və siyasi partiyaların bloklarına verilmiş pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərinin ödənilməsi onların öz vəsaiti hesabına həyata keçirilir.

233.2. Verilmiş pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərinin ödənilməsinə ayrılan büdcə və bələdiyyə vəsaitini qaytarmaq vəzifəsi siyasi partiyalar blokunun üzərinə düşdükdə, qaytarılmalı vəsait bu bloka səsvermə gününədək daxil olan siyasi partiyalar arasında bərabər paylarla bölüşdürülür, o şərtlə ki, siyasi partiyalar blokunun yaradılması haqqında Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş birgə qərarda ayrı qayda nəzərdə tutulmasın.

233.3. Bu Məcəllənin 230-cu maddəsində nəzərdə tutulmayan qeydə alınmış namizəd bu Məcəlləyə uyğun yekun maliyyə hesabatının verilməsi ilə yanaşı, müvafiq vəsaitin qaytarılmasını da öz üzərinə götürürsə, dövlət və bələdiyyə büdcəsinin geri qaytarılası vəsaitini səsvermə günündən başlayaraq 6 ay müddətində müvafiq olaraq dairə seçki komissiyasının və ya bələdiyyənin hesabına qaytara bilər.

233.4. Bu Məcəllənin 230-cu maddəsində nəzərdə tutulmayan və bu Məcəllənin 230-cu maddəsinin tələblərini yekun maliyyə hesabatı verilənədək yerinə yetirməyən siyasi partiya, siyasi partiyaların bloku bu Məcəllə ilə müəyyənləşdirilmiş müddətdə Mərkəzi Seçki Komissiyası, teleradio verilişləri təşkilatları və dövri nəşri redaksiyaları qarşısında müvafiq pul vəsaitinin ödənilməsi haqqında öhdəlik götürübsə, dövlət və bələdiyyə büdcəsinin vəsaitlərini, habelə istifadə edilmiş pulsuz efir vaxtının və dövri nəşrdə pulsuz ayrılmış yerin dəyərini səsvermə günündən başlayaraq 6 ay müddətində ödəmək üçün onlara möhlət verilə bilər.

233.5. Bu Məcəllənin 233.3 və 233.4-cü maddələrində nəzərdə tutulan öhdəliklər icra edilmədikdə və vəsaitin qaytarılması haqqında öhdəlikdə göstərilən müddət başa çatdıqda vəsait məhkəmə qaydasında qaytarılır. Bu Məcəllənin 230-cu maddəsində nəzərdə tutulmayan və bu Məcəllənin 233.3 və 233.4-cü maddələrində göstərilən tələbləri yerinə yetirməyən qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyalar bloku yekun maliyyə hesabatı verilənədək bu Məcəllənin 233.3-cü və 233.4-cü maddələrində göstərilən öhdəliyi götürmədikdə yekun maliyyə hesabatının verilməsi müddəti başa çatanadək pul vəsaiti məhkəmə qaydasında qaytarılır.

233.6. Namizəd, qeydə alınmış namizəd statusunu itirdikdə bu maddə ilə namizədlərin, qeydə alınmış namizədlərin üzərinə qoyulmuş öhdəliklər namizədin, qeydə alınmış namizəd sayılmış vətəndaşın üzərinə qoyulur. Namizəd, qeydə alınmış namizəd siyasi partiya, siyasi partiyaların bloku tərəfindən irəli sürülübsə, siyasi partiyanın, siyasi partiyalar blokunun üzərinə bu maddə ilə qoyulmuş öhdəliklər seçkilər qurtardıqda seçkilərdə iştirak etmiş siyasi partiyanın, o cümlədən siyasi partiyalar blokunun tərkibində iştirak etmiş siyasi partiyaların üzərinə qoyulur.

233.7. Mərkəzi Seçki Komissiyası əsas seçkilərin, təkrar və ya əlavə seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərcindən sonra bu Məcəllənin 230-cu maddəsində nəzərdə tutulan və seçki komissiyaları, bələdiyyələr qarşısında borc öhdəliyi olan vətəndaşların siyahısını dairə seçki komissiyalarına onların yaradılması günündən başlayaraq 5 gün müddətində göndərir.

233.8. Əsas, təkrar və əlavə seçkilərdə bu Məcəllənin 230-cu maddəsində nəzərdə tutulan və seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi gün seçki komissiyası qarşısında büdcə vəsaiti üzrə borcu olan vətəndaşın, irəli sürüldüyü seçki dairəsindən asılı olmayaraq, dövlət büdcəsindən və ya bələdiyyədən vəsait almağa hüququ yoxdur.

## Maddə 234. Bələdiyyə seçkiləri zamanı səsvermə üçün otaq

234.1. Bələdiyyə seçkiləri zamanı səsvermə otağı bu Məcəllənin 98-ci maddəsinin tələblərinə uyğun təşkil edilir.

234.2. Məntəqə seçki komissiyası səsvermə otağında və ya bilavasitə otağın qarşısında seçki bülleteninin nümunəsini, namizədləri qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları haqqında məlumatları, müvafiq birmandatlı seçki dairəsi üzrə qeydə alınmış bütün namizədlərin soyadı, adı, atasının adı, doğum tarixi, təhsili, əsas iş (və ya xidmət) yeri və tutduğu vəzifəsi (bu olmadıqda — fəaliyyət növü), yaşayış yeri, namizədliyini kimin irəli sürməsi haqqında məlumatları məlumat lövhəsində yerləşdirir.

234.3. Namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları haqqında məlumatlar seçki bülletenində nəzərdə tutulmuş qaydada və ardıcıllıqla yerləşdirilir.

## Maddə 235. Bələdiyyə seçkiləri zamanı seçki bülletenləri

235.1. Bələdiyyə seçkilərinin keçirilməsi üçün seçki bülletenləri bu Məcəllənin 99-cu maddəsində nəzərdə tutulmuş qaydada hazırlanır.

235.2. Hər bir bələdiyyəyə seçkilərin keçirilməsi üçün ayrıca seçki bülletenləri hazırlanır.

235.3. Seçki bülleteninin hansı bələdiyyəyə seçkilərin keçirilməsi üçün nəzərdə tutulduğu başlığında göstərilməlidir.

235.4. Bələdiyyə seçkiləri üzrə seçki bülletenində bələdiyyə üzvlüyünə namizədlərin soyadı, adı və atasının adı, təxəllüsü, doğum tarixi, yaşayış yeri, əsas iş və ya xidmət yeri (bu olmadıqda — fəaliyyət növü), habelə qeydə alınmış bələdiyyə üzvlüyünə namizədi kimin irəli sürdüyü göstərilməlidir.

235.5. Seçki bülletenində bu Məcəllənin 54-cü maddəsinə uyğun olaraq qeydə alınmış bələdiyyə üzvlüyünə namizədin mənsub olduğu siyasi partiyanın qısa adı göstərilməlidir.

235.6. Seçki bülletenində bu Məcəllənin 53-cü maddəsinə uyğun olaraq qeydiyyatdan keçmiş bələdiyyə üzvlüyünə namizədin partiya mənsubiyyəti onun arzusu ilə göstərilə bilər.

235.7. Seçki bülletenində namizədin soyadından sağda boş kvadrat yerləşdirilir.

## Maddə 236. Bələdiyyə seçkiləri zamanı səsvermə qaydası

236.1. Bələdiyyə seçkiləri zamanı səsvermə bu Məcəllənin 104-cü və 105-ci maddələrinə uyğun olaraq keçirilir.

236.1.2. Seçici seçki bülletenində lehinə səs verəcəyi namizədlərin soyadından sağdakı kvadratlarda müvafiq bələdiyyə üzvlərinin sayına bərabər və ya bu saydan az sayda işarə qoyur.

236.1.3. İşarə qoyulmuş kvadratların sayı bələdiyyə üzvlərinin sayından çoxdursa, səs etibarsız sayılır.

236.1.4. Boş kvadratlarda heç bir işarə qoyulmamış səs etibarsız sayılır.

Maddə 237. Bələdiyyə seçkiləri zamanı seçki məntəqəsində səslərin hesablanması

237.1. Seçki məntəqəsində səslərin hesablanması bu Məcəllənin 106-cı maddəsinə uyğun həyata keçirilir.

237.2. Məntəqə seçki komissiyasının protokoluna bu Məcəllənin 100.2-ci maddəsində göstərilənlərlə yanaşı, aşağıdakı məlumatlar daxil edilir:

237.2.1. seçki bülleteninə daxil edilmiş namizədlərin soyadı, adı, atasının adı, bunlar eyni olduqda isə namizədlər haqqında digər məlumat;

237.2.2. hər bir namizədin lehinə verilmiş səslərin sayı.

## Maddə 238. Dairə seçki komissiyası tərəfindən səsvermənin nəticələrinin müəyyən edilməsi

238.1. Dairə seçki komissiyasında səslərin hesablanması bu Məcəllənin 107-ci maddəsinə uyğun aparılır.

238.2. Səsvermə günündən ən geci 2 gün keçənədək dairə seçki komissiyası çoxmandatlı seçki dairəsi üzrə seçkilərin yekunlarını müəyyən edir.

238.3. Seçkilərdə iştirak edən və seçicilərin ən çox səsini toplayan namizədlər bələdiyyə üzvlərinin sayına bərabər olaraq müvafiq bələdiyyəyə üzv seçilmiş hesab edilirlər.

238.4. Dairə seçki komissiyasının protokolunda bələdiyyəyə üzv seçilmiş namizədlərin soyadı, adı və atasının adı göstərilir.

## Maddə 239. Bələdiyyə seçkilərinin yekunlarının yoxlanılması və təsdiqi

Mərkəzi Seçki Komissiyası səsvermə günündən başlayaraq ən geci 20 gün müddətində dairə seçki komissiyalarının protokollarını (bu Məcəlləyə uyğun olaraq əlavə edilən sənədlərlə birlikdə) yoxlayır və bu Məcəllənin 108-ci maddəsinə uyğun olaraq seçkilərin ümumi yekunları haqqında protokol tərtib edir.

## Maddə 240. Bələdiyyə seçkilərinin etibarsız sayılması

240.1. Dairə seçki komissiyası qeydə alınmış namizədlərin lehinə verilən səslərin sayı bərabər olduqda, bələdiyyəyə seçkiləri baş tutmamış hesab edir.

240.2. Dairə seçki komissiyası və ya Mərkəzi Seçki Komissiyası bələdiyyə üzrə seçkiləri aşağıdakı hallarda etibarsız sayır:

240.2.1. Bələdiyyə üzrə səsvermə zamanı səsvermənin nəticələri etibarsız sayılmış seçki məntəqələrinin sayı həmin bələdiyyənin ərazisində olan seçki məntəqələrinin ümumi sayının 2/5 hissəsindən çoxunu təşkil

etdikdə və ya ləğv edildikdə, o şərtlə ki, həmin seçki məntəqələrində seçicilərin sayı bələdiyyə üzrə qeydə alınmış seçicilərin ümumi sayının 1/4-dən coxunu təşkil etsin.

240.2.2. məhkəmənin qərarı əsasında.

## Maddə 241. Bələdiyyə seçkilərinin yekunlarının elan edilməsi

Mərkəzi Seçki Komissiyası seçkilər günündən başlayaraq ən geci 25 gün müddətində Azərbaycan Respublikası üzrə bələdiyyə seçkilərinin yekunlarını elan edir. Mərkəzi Seçki Komissiyasının bu qərarı qətidir.

Maddə 242. Bələdiyyə üzvü seçilmək haqqında vəsiqə

Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilmiş nümunədə bələdiyyə üzvü seçilmək haqqında vəsiqə seçkilərin yekunları elan olunduqdan sonra 5 gün müddətində dairə seçki komissiyası tərəfindən verilir.

## Maddə 243. Təkrar seçkilər

243.0. Aşağıdakı hallarda Mərkəzi Seçki Komissiyasının qərarı ilə təkrar seçkilər keçirilir:

243.0.1. Bu Məcəllənin 240-cı maddəsinə əsasən bələdiyyə seçkiləri baş tutmadıqda və ya etibarsız sayıldıqda;

243.0.2. “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə bələdiyyə ərazilərinin dəyişdirilməsi nəticəsində müvafiq bələdiyyənin ərazisində yaşayan və səsvermə hüququna malik olan vətəndaşların sayı 25 faizdən artıq azaldıqda və ya çoxaldıqda.

## Maddə 244. Əlavə seçkilər

Bələdiyyə üzvləri tam tərkibdə seçilmədikdə yaxud onların səlahiyyətlərinə vaxtından əvvəl xitam verildikdə və bunun nəticəsində bələdiyyənin tərkibi 2/3 hissədən az olduqda Mərkəzi Seçki Komissiyasının qərarı ilə əlavə seçkilər keçirilir.

## Maddə 245. Sıradan çıxmış bələdiyyə üzvlərinin yerinin tutulması

Bələdiyyə üzvü vəfat etdikdə və ya onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verildikdə dairə seçki komissiyasının təqdimatına əsasən Mərkəzi Seçki Komissiyasının qərarı ilə yeni seçkilər keçirilir.

## Maddə 246. Bələdiyyə seçkilərinin yekunlarının və səsvermənin nəticələrinin dərc olunması

Bələdiyyə seçkilərinin yekunlarının və səsvermənin nəticələrinin dərc olunması qaydaları bu Məcəllənin 109-cu maddəsi ilə müəyyən edilir.

# Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu

## Maddə 5 . Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri

5.0. Gender bərabərliyinin təmin edilməsi üzrə dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

5.0.1. gender bərabərliyinin təmin edilməsi üçün normativ hüquqi bazanın formalaşdırılması, təkmilləşdirilməsi və inkişafı;

5.0.2. normativ hüquqi aktların gender ekspertizasından keçirilməsi;

5.0.3. gender bərabərliyinin təmin edilməsi üçün dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi;

5.0.4. gender bərabərliyi mədəniyyətinin təbliği.

## Maddə 6 . Gender bərabərliyinin təmin edilməsində dövlətin vəzifələri

Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişilər ilə qadınlara bərabər imkanların yaradılması, dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi üçün dövlət tədbirlər görür.

# CEDAW-Qadınlara Qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiya

Ümumdünya İnsan Hüquqları Bəyannaməsində ayrı-seçkiliyə yol verilməməsi prinsipinin təsdiq edildiyini və bütün insanların öz ləyaqətləri və hüquqları baxımından azad və bərabər doğulduğunun və heç bir fərq, o cümlədən, cinsi fərq qoyulmadan hər bir insanın onda bəyan edilən bütün hüquqları və bütün azadlıqlara malik olmalı olduğunun bəyan edildiyini nəzərə alaraq, insan hüquqları haqqında beynəlxalq paktların iştirakçısı olan dövlətlərin üzərinə bütün iqtisadi, sosial, mədəni, mülki və siyasi hüquqlarından kişi və qadınların bərabər hüquqda istifadə etmələrini təmin etmək öhdəliyinin qoyulduğunu nəzərə alaraq, kişi və qadınların hüquq bərabərliyinə yardım etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatının və ixtisaslaşdırılmış təsisatların himayəsi altında bağlanan beynəlxalq konvensiyaları diqqətə alaraq, həmçinin kişi və qadınların hüquq bərabərliyinə yardım etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatının və ixtisaslaşdırılmış təsisatların qəbul etdikləri qətnamələri və tövsiyələri nəzərə alaraq, lakin bu müxtəlif sənədlərə baxmayaraq, hələ də qadınlara qarşı xeyli ayrı-seçkiliyin mövcud olmasından narahat olaraq, qadınlara qarşı ayrı-seçkiliyin hüquq bərabərliyi və insan ləyaqətinə hörmət olunması prinsiplərini pozduğunu, qadınların kişilərə bərabər səviyyədə öz ölkələrinin siyasi, iqtisadi və mədəni həyatında iştirak etmələrinə əngəl törətdiyini, cəmiyyətin və ailənin rifahının yüksəlməsinə mane olduğunu və öz ölkələrinin rifahı naminə qadınların imkanlarının tam şəkildə açılmasını daha da çətinləşdirdiyini xatırladaraq, yoxsulluq şəraitində qadınların ərzağa, səhiyyəyə, təhsilə, peşə hazırlığına və işə düzəlmək imkanlarına, həmçinin, digər tələbatlara daha az yol tapabilmələrindən narahat olaraq, bərabərliyə və ədalətə əsaslanan yeni beynəlxalq iqtisadi

quruluşun yaradılmasının kişi və qadınlar arasında bərabərliyin təmin olunmasına xeyli kömək edəcəyinə əmin olaraq, aparteidin, irqçiliyin bütün formalarının, irqi ayrıseçkiliyin, müstəmləkəçiliyin, təcavüzkarlığın, xarici istila və hökmranlığın və dövlətlərin daxili işlərinə müdaxilənin ləğv edilməsinin kişi və qadınların hüquqlarının tam həyata keçirilməsi üçün zəruri olduğunu qeyd edərək, beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinin, beynəlxalq gərginliyin azaldılmasının, sosial və iqtisadi sistemlərindən asılı olmayaraq, bütün dövlətlər arasında qarşılıqlı əməkdaşlığın, ciddi və səmərəli beynəlxalq nəzarət altında hamılıqla və tam tərkisilahın, xüsusilə də nüvə tərkisilahının, ölkələr arasında münasibətlərdə ədalətlilik, bərabərlik və qarşılıqlı fayda prinsiplərinin təsdiq olunmasının və xarici və müstəmləkə hökmranlığı və xarici istila altında olan xalqların öz müqəddəratlarını təyin etmə və müstəqillik hüquqlarının həyata keçirilməsinin, habelə dövlətlərin milli suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsinin sosial tərəqqiyə və inkişafa yardım edəcəyini və bunun da nəticəsi olaraq kişi və qdınlar arasında tam bərabərliyə nail olunmasına səbəb olacağını təsdiq edərək, ölkələrin tam inkişafının, bütün dünya rifahının və sülh işinin, bütün sahələrdə qadınların kişilərlə bərabər səviyyədə maksimum iştirakını tələb etdiyinə əmin olaraq, qadınların ailə və cəmiyyətin rifahında, bu günə qədər tam şəkildə qəbul edilməyən xidmətlərinin əhəmiyyətini, analığın və hər iki valideynin ailədə və uşaqların tərbiyə olunmasında sosial əhəmiyyətini nəzərə alaraq və uşaqların tərbiyə olunmasının kişi və qadınlardan  və bütövlükdə bütün cəmiyyətdən birgə məsuliyyət tələb etdiyinə görə qadınların nəslin artırılmasındakı rolunun ayrı-seçkiliyə səbəb olmadığını dərk edərək, kişi və qadınlar arasında tam bərabərliyə nail olmaq üçün həm kişilərin, həm də qadınların cəmiyyətdə və ailədə ənənəvi rollarını dəyişdirməyin zəruriliyini yada salaraq, Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması haqqında Bəyannamədə bəyan edilən prinsipləri həyata keçirmək və bu məqsədlə, belə ayrı-seçkiliyin bütün forma və təzahürlərini ləğv etmək üçün lazım olan tədbirləri görmək əzmində olduqlarını bildirərək, aşağıdakılar barədə razılığa gəldilər.

# Bələdiyyə üzvünün statusu haqqında Azərbaycan Respublikasının Qanunu

## Maddə 4. Bələdiyyə üzvünün hüquqları

Bələdiyyə üzvü bələdiyyənin fəaliyyəti ilə bağlı aşağıdakı hüquqlara malikdir:

bələdiyyənin daimi və digər komissiyalarına üzvü seçmək və seçilmək;

bələdiyyənin və onun orqanlarının iclaslarında müzakirə üçün məsələlər təklif etmək, müzakirə olunan məsələlər barəsində çıxış etmək, təkliflər və düzəlişlər vermək, qeydlər etmək, çıxış edənlərə və ya təyin edilməsinə razılıq verilən vəzifələrlə göstərilmiş namizədlərə sual vermək, arayış vermək, səsvermədə iştirak etmək;

bələdiyyənin iclaslarında müzakirə üçün qərar layihələrini hazırlamaq;

bələdiyyənin daimi və başqa komissiyalarının iclaslarına təqdim edilmiş məsələlərin müzakirəsində iştirak etmək və təkliflər vermək;

bələdiyyənin fəaliyyəti ilə əlaqədar zəruri məlumat almaq;

sorğu vermək;

qanunvericiliyə müvafiq surətdə yerli radio və televiziyadan, mətbu nəşrlərdən istifadə etmək.

## Maddə 14. Bələdiyyə üzvünün bələdiyyədə fəaliyyəti ilə əlaqədar məsuliyyəti

Bələdiyyə üzvü barəsində bələdiyyədə fəaliyyəti ilə əlaqədar aşağıdakı hallarda intizam tədbirləri tətbiq edilir:

bələdiyyənin iclaslarının aparılmasına mane olduqda;

bələdiyyənin və onun komissiyalarının iclaslarında insanın şərəf və ləyaqətinə xələl gətirən kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verdikdə, başqalarını bu cür hərəkətlər etməyə çağırdıqda;

bələdiyyənin nizamnaməsində göstərilən müddətlərdə bələdiyyənin və onun daimi və başqa komissiyalarının iclaslarında üzürsüz səbəbə görə iştirak etmədikdə.

# Qeyd